AZƏRBAYCAN
GƏNCLƏR FONDU

Bu kitab
Azərbaycan Respublikasının
Prezidenti yanında Gənclər Fondunun maliyyələşdirdiyi,
Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) tərəfindən
icra edilən
“QƏLBDƏKİ VƏ QƏLƏMDƏKİ QARABAĞ”
layihəsi çərçivəsində
DGTYB tərəfindən hazırlanıb,
onun içərisi hər hansı formada
Fondun mövqeyini əks etdirmir.

Dünya Gənc Türk Yazarlar Birliyi
www.dgtyb.org, www.bizimyazi.com

QƏLBDƏKİ VƏ QƏLƏMDƏKİ QARABAĞ

1

nəşriyyatı

Layihə rəhbəri: **İntiqam YAŞAR**

Tərtibçilər: **Sərvər KAMRANLI,**
Nofəl ÜMİD, Sərdar ŞİRVAN

Redaktorlar: **Əkbər QOŞALI, İbrahim İLYASLI,**
Dəyanət OSMANLI

Məsləhətçilər: *dos.dr.* **Hikmət BABAOĞLU,** *Millət vəkili, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru*

İlham İSMAYILOV, *Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının üzvü, ATXƏM başqanı*

Mübariz HACIOĞLU, *Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin başqan müavini*

dos.dr. **Rəsmiyyə SABİR,**
DGTYB Təsisçilər Kurulunun üzvü

Mustafa CEYLAN, *"Gülce" Ədəbiyyat Axımının başçısı (Antalya-Türkiyə)*

Rəyçilər: **Umud RƏHİMOĞLU,** *BAMF başqanı*

Vüqar QƏDİROV, *Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının başqanı*

Elşad EYVAZLI
"MODERN.AZ" portalının baş redaktoru

Müşfiq XAN, *"XAN" nəşriyyatının direktoru*

Elşən ƏZİM, *Milli Qəhrəman Şahlar Şükürov ad. Kəlbəcər 35 saylı tam orta məktəbinin direktoru (Mingəçevir)*

Texniki redaktor: **Bəxtiyar ƏLƏKBƏROV**

Dizayn və qrafika: **Teymur FƏRZİ**

DGTYB. Qəlbdəki və qələmdəki Qarabağ.
"XAN" nəşriyyatı. Bakı– 2016. 248 səh.

ISBN: 9000000060132

© DGTYB / 2016

© "XAN" nəşriyyatı / 2016

QƏLBDƏKİ VƏ QƏLƏMDƏKİ QARABAĞ: Düşüncələrdən qələmlərə, qələmlərdən qəlblərə....

"Qəlbdəki və qələmdəki Qarabağ" adlı layihənin İşçi Qrupu və eyni adlı kitabda yazıları yer alan müəlliflərin bir çoxunu şəxsənvə ya imzalarından tanıyıram... Bax, elə buradan – bizim üçün vacib olan tanışlıq, tanımaq məsələsindən başlamaq istərdim. Hesab edirəm ki, bu mövzudahəyata keçirilən layihələrin ilk uğuru xeyli sayda yaradıcı insanların bir-biri ilə tanış olması və neçə-neçə müəllifin yaradıcılıq düşüncəsinə bizim üçün böyük önəm daşıyanbir mövzunun – Qarabağ mövzusunun təqdim edilməsidir.

Bəzən belə düşünürük ki, türksoylu ölkə və toplumlara mənsub olan insanlar, onsuz da, bizə qardaşlıq duyğuları ilə yanaşır, ona görə də əsas məsələ başqa xalqların yazarları ilə işləməkdədir və s. Lakin gəlin yadımıza salaq, "Qəlbdəki və qələmdəki Qarabağ" və buna bənzər layihələr çərçivəsində hazırlanmış bədii əsərlər, ədəbi örnəkləristisna olmaqla, neçə Qarabağ şeiri, Xocalı hekayəsi, mövzu üzrə obyektiv araşdırma, müsahibə və ya digər janrlı yazılar haqqında danışa bilərk? – Bax, bu suala verdiyimiz səmimi cavablar durumun "necə"liyini və "harada"lığını göstərməkdədir, deyə düşünürəm.

Əlinizdəki kitabın hazırlanmasına və ərsəyə gəlməsinə zəmin olmuş layihə:

- türk ölkə və toplumlarındakı yeni nəsil qələm adamlarının timsalında, doğma Qarabağın Ermənistan işğalından qurtulmasının zəruriliyi ideyası

ilə silahlanmış yeni dostlar qazanmağımızı şərtləndirir;

- bu kitabda, eləcə də KİV-lərdə, sosial paylaşım şəbəkələrində yer almış materialların sayəsindəhəm respublikamızda, həm də uluslararası miqyasda müəyyən qədər ictimai fikrin qidalanmasını təmin edir;

- yeni ilişkilər, yeni işbirlikləri yaradır, bu da öz növbəsində yeni ideyaların, yeni təşəbbüs və fəaliyyət meydanının, yeni yaradıcılıq imkanlarının yaranması anlamı daşımaqdadır;

- Mövzu üzrə araşdırma aparan mütəxəssislərimiz bu layihə və konkret olaraq, bu kitabın timsalında xeyli yeni material əldə etmiş olacaq;

- Bu kitab (və ya layihə) milli donor institutlarımıza mövzu üzrə imkan və gerçəklikləri daha aydın dəyərləndirməkdə yardımçı olacaq;

- Burada yer alan yaradıcılıq nümunələri başqa sənət sahələrini təmsil edən yaradıcı insanlar üçün də yaradıcılıq materialı rolunu oynaya bilər. – Belə ki, bir bəstəçi bir şairlə, bir rəssam bir nasirlə, bir rejissor bir başqa yazarla işbirliyi qurunca, bu ümumi işimizin xeyrinə olacaqdır...

Əlbəttə, siz oxucular bu layihənin digər faydalı xüsusiyyətlərini də göstərə bilərsiz; əsas nəticə isə ondan ibarətdir ki, “Qəlbdəki və qələmdəki Qarabağ” qəlb-qəlb, qələm-qələm, yazı-yazı, kitab-kitab yayıla, dalğalana və yeni ünvanlar qazana bilər. Mən bunun məhz belə olacağına inanıram. Çünki bizim işimiz haqq işidir! Atalarımız demişkən, “Haqq incələr, amma üzülməz!” Biz buna inanırıq və ona görə də haqqın müdafiəsi naminə əlinə qələm almış və yazısı bu kitabda yer alan hər bir müəllifə həm bir oxucu və

həm də Azərbaycan parlamentinin üzvü kimi öz təşəkkürlərimi bildirirəm. Çox sağolun ki, haqqın yanındasız, çox minnətdaram ki, Qarabağ mövzusunu qəlbinizdən və qələminizdən keçirirsiz. Qarabağın düşüncələrdən qələmlərə getdiyi yol da, qələmlərdən qəlblərə getdiyi yol da haqq-ədalət yoludur.

Yolunuz açıq, qələminiz iti, qəlbiniz fərəhli olsun!

Qarabağda – Xocalıda, Şuşada, Kəlbəcərdə, Laçında, Xankəndində, işğaldan azad edəcəyimiz digər şəhər və kəndlərimizdə görüşmək diləyi və inamı ilə,

Dr. **Cavanşir FEYZİYEV**
Millət vəkili
BAKI-2016

Dos.dr. Şəmil SADİQ
/Şəmil Kamil oğlu Sadıqov;
AMEA H.Cavidin Ev Muzeyinin aparıcı elmi işçisi,
"Hədəf" Şirkətlər Qrupunun Baş direktorudur./

QARABAĞ SAVAŞI AZƏRBAYCAN ROMANINDA

(Özət)

Azərbaycan torpaqlarını işğal edən Ermənistanla Azərbaycan arasında başlamış Qarabağ müharibəsində atəşkəsin elan edilməsindən iyirmi il keçir. Bu müharibə nəticəsində yüzminlərlə insan yurd-yuvasından didərgin düşdü, faciə yaşadı və hələ də yaşamaqdadır.

Atəşkəsin elan olunmasından illər keçməsinə baxmayaraq Azərbaycan ədəbiyyatında müharibənin fəlsəfi və ideoloji tərəfini əks etdirən sənət əsərləri yaranmış və yaranmaqdadır. İnsan duyğularını birbaşa ifadə edən şeirdə bu mövzu lazımi qədər işlənsə də, romançılıq baxımından vəziyyət o qədər də ürəkaçan deyil. Əsərlərin böyük əksəriyyəti problemi deyil, duyğuları ifadə edir. Azərbaycan xalqı hələ də müharibə şəraitində yaşayır. Torpağımızın iyirmi faizi işğal altındadır. Bu isə o deməkdir ki, ədəbiyyatımızda müharibə mövzusu önəmli olmalıdır.

Ədəbiyyat insan ruhunu tərbiyələndirməyə xidmət etdiyi üçün, millətin mənliyinin, qürurunun, böyüklüyünün və qurulacaq gələcəyinin yönləndirilməsi baxımından ciddi əhəmiyyət kəsb edən peşələrdəndir.

"Qarabağ müharibəsi Azərbaycan romanında" adlı

məqalədə Qarabağ mövzusunun ədəbiyyatımızdakı yeri araşdırılmış, II Dünya Müharibəsinə ədəbiyyatın münasibəti ilə Qarabağ müharibəsinə münasibət müqayisə edilmişdir.

***

Ədəbiyyat öncə gözəllikdir. Lakin bəşər övladının dünyanını qan gölünə çevirmək cəhdi ədəbiyyatdan da yan keçmir və bu ədəbiyyatda müharibə kimi mövzuların yaranmasına və inkişafına gətirib çıxarır. Roman janrında bir zamanlar sadəcə tarixi roman anlayışı kimi tanınanan mövzunun içindən artıq müharibə və ya savaş tipli növlər yaranmışdır. Təəssüflər olsun ki, bu gün dünyada gedən müharibələr həyatımızın bir parçasına çevrilmiş və bayrağı gözəlliklə süslənməli olan ədəbiyyat bu mövzuları bədii yolla insanlara çatdırmağa çalışır.

Azərbaycan ədəbiyyatının keçmişindən bu gününə nəzər salsaq, ədəbiyyatın mövzusunun məhəbbət, sevgi, əxlaq, fəlsəfə ağırlıqlı olduğunu görərik. Nə həyatı boyu hökmdarlara məsləhət verən Şeyx Nizami, nə bir ömür insan ruhunun azadlığı üçün mübarizə apamış Nəsimi, nə də böyük bir İmperiyanın - Vahid Azərbaycan türk dövlətini qurucusu olmuş Səfəvilər sülaləsinin banisi Şair Şah İsmayıl Xətai yaradıcılığında müharibəyə özəl yer ayırmışdır. Ən yaxşı halda Nizami Gəncəvi bu mövzulara toxunmuşdur ki, o da “Sirlər xəzinəsi”, “İskəndərnamə” kimi poemalarında sadəcə müharibələrin törətdiyi faciələrdən bəhs etmiş, şahları, fatehləri, hökmdarları qan tökməkdən, torpaq işğalından, səltənət davalarından yayındırmaq üçün nəsihətverici tərzdə bu mövzunu işləmişdir.

Böyük Azərbaycan şairi Məhəmməd Füzuli "Bəngü Badə" alleqorik əsərində iki qardaşın Sultan Səlimlə Şah İsmayılın bir-birinə qarşı döyüşünü işarə etmiş və bir növ bu qanlı savaşı, bu gərəksiz mübarizəni tənqid etmişdir.

Uzun müddət bu mövzulara ötəri müraciət edilsə də, müharibə mövzulu əsərlər XX yüzilin əvvəllərində daha geniş işlənmişdir. Buna nümunə olaraq Hüseyn Cavidin "Peyğəmbər", "İblis", "İblisin intiqamı", "Səyavuş", Cəfər Cabbarlının "Trablis müharibəsi", "Ədirnə fəthi", "Od gəlini", Cəlil Məmmədquluzadəninin "Kamança" kimi pyeslərində, Qurban Səidin - Məmməd Əsəd bəyin "Əli və Nino", Məmməd Səid Ordubadinin "Qılınc və Qələm" kimi romanlarında məhz müahirəbə mövzularına ciddi şəkildə toxunulmuşdur.

Azərbaycan ədəbiyyatında Nizami Gəncəvinin mənzum romanlarını nəzərə almasaq, romanın tarixi Əbdurrəhim bəy Talıbovun "Kitab yüklü eşşək" və Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi" adlı farsca yazılmış əsərlərlə başlayır. XIX əsrdə dünya ədəbiyyatının janrlarından yararlanan Azərbaycan yazarları XX yüzilin əvvəllərində bu gün də öz aktuallığını saxlayan və dünya ədəbiyyatı örnəklərindən sayılan bir çox maraqlı romanlar qələmə almışlar. Bunlara Sovet çağı repressiyalarının qurbanına çevrilmiş Çəmənzəminlinin "İki od arasında" (1937), "Qızlar bulağı", "Studentlər", "1917 -ci il" kimi tarixi romanlarını, Məmməd Səid Ordubadinin XII yüzilin şair və hökmdarlarından bəhs edən "Qılınc və qələm"(1946-1948), "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940) tarixi romanlarını, Qurban Səidin "Əli və Nino" romanını Azərbaycan

ədəbiyyatının layiqli nümunələri kimi qeyd edə bilərik.

1950-ci illərdən sonra isə Azərbaycan romanında yeni bir dirçəliş başlandığını deyə bilərik. Çünki XX yüzilin əvvəllərində milli düşüncə ilə formalaşan aydınlarımız 1937-ci il repressiyasının qurbanları olmuş, uzun illər Azərbaycan ədəbiyyatı bir növ ziyalı qıtlığı çəkmişdi. Lakin Stalinin ölümündən sonra bəraət alan Azərbaycan milli ədəbiyyatı yeni yazarlar yetirmiş və onların yazdığı əsərlər Azərbaycan ədəbiyyatının nüfuzunu yenidən özünə qaytarmağa başlamışdır. Bu baxımdan Azərbaycanda İlyas Əfəndiyevin, Mirzə İbrahimovun, İsmayıl Şıxlının yazıdığı dəyərli romanları qeyd etmək olar. Azərbaycanda "60-cılar ədəbi nəsli" adı ilə tanınan Elçinin, Anarın, Fərman Kərimzadənin, Sabir Rüstəmxanlının, İsa Muğannanın əsərləri isə ədəbiyyatımıza yeni nəfəs gətirmiş, ədəbi-bədii düşüncənin formalaşmasına xidmət etmişdir.

Müharibə romanı

Bu gün Azərbaycan ədəbiyyatında müharibə mövzulu əsərlər daha çox tarixi romanın tərkibində öyrənilir və tədqiq edilir. Əlbəttə bu da ondan xəbər verir ki, Azərbaycan ədəbiyyatşünaslığında "Müharibə ədəbiyyatı" termini hələ yaranmamışdır. Azərbaycan ədəbiyyatı türk təfəkküründən axib gələn əxlaqi-didaktik mövzulara toxunmaqla zərifliyi və incəliyi daima özünə mövzu seçmişdir. İkinci Dünya Müharibəsindən sonra müharibə mövzulu əsərlər sifarişlə də olsa yazılmış və süni şəkildə əsas mövzuya

çevrilmişdir. Bu fikrimizi aşağıdakı faktlar sübut edir:

Ə.Bağırzadə Azərbaycanlıların II Dünya müharibəsində iştirakının bədii təcəssümunun statistikasını bu cür yazır: "Yazıçı və şairlər Azərbaycan oğullarının cəbhədəki əsgəri rəşadətini, arxa cəbhə qəhrəmanlarının fədakar əməyini tərənnüm edən onlarla əsər yazmışdılar.

Cəbhə üçün Azərbaycan yazıçılarının 12 külliyyatı, cəbhəçi şairlərin xüsusi şeirlər toplusu çap edilmişdi. Müharibənin ilk ilində ordu hissələrinə Azərbaycan dilində 172 adda 247 min nüsxə kitabça, 106 adda 736 min plakat, 66 adda 813 min vərəqə, 213 adda 11898 min şüar göndərilmişdi." (1.səh.379)

Bu cür statistikalara meyil edilməsi onu göstərir ki, rejim ədəbiyyatı dövlətin ideologiyası üçün bir növ zorlamışdır.

Lakin nə qədər güclü təsirlər və yuxarıdan gələn sifarişlər olsa da, əsil ədəbiyyat heç bir zaman ölmür. Əsil ədəbi mətn nümunəsi üçün bu gün yaddaşlarda qalan İsa Hüseynovun- Muğannanın "Tütək səsi", "Saz", İsmayıl Şıxlının "Cəbhə gündəlikləri", İmran Qasımovla, Həsən Seyidbəylinin birgə qələmə aldıqları "Uzaq sahillərdə" əsərləri bu gün də demokratik Azərbaycan oxucusu üçün maraqlı və təravətlidir. Düşünürəm ki, "Uzaq Sahillərdə" romanı Azərbaycan ədəbiyyatında müharibə və döyüş səhnələrinin qələmə alındığı ilk əsərlərdəndir.

Və 1990-cı illər...

Bu dövr Azərbaycan tarixində Azərbaycan xalqının yenidən öz müstəqilliyinə qovuşması ilə ən şanlı səhifələrindən olsa da, qonşu Ermənistanın Sovet

hökumətinin yıxılmasından və qarmaqarışıqlıqdan istifadə edərək Sovet-Rus ordusunun köməyi ilə Azərbaycan torpaqlarını işğal etməsi və bu zaman tökülən qanlarla, qırğınlarla, faciələrlə ən ağrılı tariximiz kimi yaddaşımızda həkk olundu.

Azərbaycan torpaqlarını işğal edən Ermənistanla Azərbaycan arasında başlamış Qarabağ müharibəsində atəşkəsin élan edilməsindən iyirmi il keçir. Bu müharibə nəticəsində yüzminlərlə insane yurd-yuvasından didərgin düşdü, faciə yaşadı və hələ də yaşamaqdadır.

Müharibə nəticəsində övladını itirən analar, atasını itirən körpələr, qardaşını itirən bacılarla bərabər uşaqlıq və gənclik duyğusundan məhrum olub, psixoloji zərbələr alan və problemlərlə böyüyən minlərlə gənc var.

Atəşkəsin élan olunmasından illər keçməsinə baxmayaraq Azərbaycan ədəbiyyatında müharibənin fəlsəfi və ideoloji tərəfini əks etdirən sənət əsərləri yaranmış və yaranmaqdadır. İnsan duyğularını birbaşa ifadə edən şeirdə bu mövzu lazımi qədər işlənsə də, romançılıq baxımından vəziyyət o qədər də ürəkaçan deyil. Əsərlərin böyük əksəriyyəti problemi deyil, duyğuları ifadə edir. Azərbaycan xalqı hələ də müharibə şəraitində yaşayır. Torpağımızın iyirmi faizi işğal altındadır. Bu isə o deməkdir ki, ədəbiyyatımızda müharibə mövzusu önəmli olmalıdır.

Ədəbiyyat insan ruhunu tərbiyələndirməyə xidmət etdiyi üçün, millətin mənliyinin, qürurunun, böyüklüyünün və qurulacaq gələcəyinin yönləndirilməsi baxımından ciddi önəm kəsb edən peşələrdəndir.

Tarixi həqiqətlər bəzən tarixi əsərlərdən daha çox, sənət əsərlərində gizlənir. Çünki tarixi yazanlar olay-

ları hər hansı siyasi quruluşun sifarişi ilə, ya da tərəfdarı olaraq qələmə alır. Fəqət ədəbiyyat insanı öyrəndiyi üçün, hadisələrə obyektiv baxmağa çalışır. Milli təəssüb siyasətini daha üstün tutan yazarlar belə, sətrlər arasında həqiqəti əks etdirməkdən vaz keçə bilmir.

"Siyasi həqiqətin insan ruhunda qurduğu tələni ortaya çıxaran vasitələrdən biri olan ədəbiyyat, müharibənin məhv etdiyi və ya şikəst qoyduğu fərdlərin və toplumların iztirablarını, əziyyətlərini, onların başına gələnləri şeir və roman başda olmaqla müxtəlif janrlarda ələ alar və işləyər. Ədəbiyyatın funksiyası bu olmasa da, mövzu olaraq seçər və maarifçilik cəhdi ilə boynuna çəkdiyi bu vəzifəni müharibəsiz dünya arzusuyla qələmə alar." (2)

Bu gün Azərbaycan ədəbiyyatında Qarabağ müharibəsi mövzusunda yazılan əsərlər həm kəmiyyət, həm də keyfiyyət baxımından heç də ürək açan deyil. Çünki bir milyondan çox qaçqının olmasını, iyirmi fazidən çox torpağın işğal edilməsinə vəsilə olan bir müharibədən yazmamaq və ya ötəri toxunmaq bir xalqın yazarları üçün heç bir halda xoş ola bilməz. Gərəkdir ki, yazıçılarımız bu mövzuda şah əsərlər yarada, xalqı ruhlandıra, xalqın damarlarındakı qanı coşdura. Yenə də deyirəm təssüf ki, bu belə olmadı. Son dövrlər bu mövzuya qayıdış başlasa da, hələ də ədəbi mənzərə ürək açan deyil. Müharibənin getdiyi dövrlərdə böyük həcmli əsərlərin yazılması mümkün deyildi. Lakin atəşkəs elan olunduğu ildən təqribən 20 il keçir və torpaqlarımız hələ də düşmən işğalı altındadır. Lakin bu dövlrədə Azərbaycan ədəbiyyatının 60-cılar deyilən nəsli bu mövzuya girə bilmədi. Yetişməkdə olan 80-90-cı illər ədəbiyyatın nümayən-

dələri də ya müharibənin ağrı acısı ilə, ya güzəran çətinliyi ilə üzləşdiyi üçün, ya da müharibənin xaotik abu-havasını yaşadıqları üçün bu mövzularda yazmağı tam istədikləri kimi bacarmadılar. 2000-ci illərdə yetişən gənclik isə Avropada gedən ədəbi proseslərin kor-koranə aşiqi olub özlərini yenilikçi və ya postmodernist adlandıraraq, tamamilə Azərbaycan-türk ənənələrinə yad olan mövzulara toxunur, qələmlərini yad ideologiyalara çalışdırırlar sanki. Bəlkə də, bu ədəbiyyatın azadlığıdır. Lakin heç bir azadlıq milli dəyərləri tapdalamamlıdır.

Bugünkü ədəbiyyatın aparıcı qüvvəsi olan gəncliyin bədii əsərlərini, bədii əsərlərə yazdıqları tənqidi yazıları, müəyyən aiditoriyada etdikləri çıxışları oxuduqda və ya dinlədikdə ilk ağlımdan keçən bu olur ki, bugünkü Azərbaycan ədəbiyyatı atasız bic uşaqlar kimi böyüyür. Bu zaman da bir neçə sual çıxır ortaya: “Bunun günahı kimdədir?”, “Bic uşaqların gic uşaqlardan üstün xüsusiyyətləri həddindən çox deyilmi?” və s.

Məncə günümüzdə ədəbiyyatımız bir lider, bir məktəb, bir cərəyan qıtlığı çəkir. Bunun səbələrindən biri də ədəbiyyatımızda, çağdaş yazıçıların, şairlərin arasında “avtoritet”in olmamasıdır. “Avtoritet”in olmaması isə ədəbiyyatın özbaşına inkişaf etməsinə səbəb olur. Kimlərsə düşünəcək ki, indi mən ədəbiyyatın başında durub yazıçıları idarə edən, yönləndirən axtarıram. Və ya mayası azadlıqla yoğrulmuş ədəbiyyata dictator tapmaq arzusundayam. Qətiyyən, belə fikrim yoxdur. Amma ədəbiyyatı izlədikdə bu cür qənaətə gəlirik. Bəzi tənqidçilər gənclərlə klassiklər arasında qütbləşmə var deyəndə az qalıram sevinim. Amma vallah bu qütbləşmə də nəyinsə ətrafında olur

axı. Deməli, qütbləşmə də yoxdur. Qütbləşmə "Mollanəsrəddinçilərlə" "Fyuzatçılar" arasında idi. Həm də bu xeyirli qütbləşmə idi.

Ədəbiyyatı atasız qoyan, atalıq borcunu layiqincə yerinə yetirməyən, ata olmağa layiq olmayanlar bu gün çağdaş ədəbiyyatımızın bic uşaq kimi böyüməsində ən böyük günahkarlardırlar. Çünki qələmlərini gəncliyin haqlı, haqsız ittihamlarına qarşı qalxan edə bilmirlər. Bu yaşlı nəslin, dünya ədəbiyyatından 3-5 yazıçının adını əzbərləyib sağda, solda dahi kimi görünmək üçün istifadə edən gənclərdən zəif olduqları demək deyil. Bunun səbəbi "özü lum-lum udub, batində, amma dediyi mənaya bir bax" fəlsəfəsinin ortadakı təzahürüdür. Hədyan danışan uşağın ağzının üstündən bir sillə vurub: "kəs səsini", demək üçün Hüseyn Cavid kimi, Mirzə Cəlil kimi, Əhməd Cavad kimi, Xəlil Rza Ulutürk kimi, Bəxtiyar Vahabzadə kimi haqqın olmalıdır ki, sonra da onun əlindən tutub istədiyin yerə aparasan, yönləndirəsən.

Bu mövzuya müraciət edənlərin qıtlığını duyan Azərbaycan mətbuatı, konkret olaraq "Yeni Müsavat" qəzeti 2010-cu ildə yazarlar arasında bir soruğu keçirib. Sorğunun sualı isə bu cürdür: "Qarabağ mövzusunda əsərlər yazılsın, ya yox?" Göründüyü kimi sualın qoyuluşu belə bu mövzuya münasibəti ifadə edir. Verilən cavablar isə ondan daha ağırdır.

...Yazıçı, şair-publisist Rəşad Məcid "Yazarlarda bir depressiya, stress, ruh düşkünlüyü var" deyir. Sonra isə əlavə edir: "ekspertlər Böyük Vətən Müharibəsinə həsr olunan əsərlərlə Qarabağ mövzusunda yazılan (və yazılmayan) əsərləri müqayisə etməyi düzgün saymır. Ümumi rəy belədir ki, birinci müharibə iki ideoloji tərəf arasında baş verib, nəticədə

Rusiya və keçmiş qardaş ölkələr qalib duruma düşüb. Hökumət isə bu ideoloji sahəyə böyük sərmayə qoyduğu üçün ortaya güclü bədii nümunələr çıxıb. İndi isə... Hələ ki, müharibə bitməyib...”

Tanınmış yazıçı Seyran Səxavətin isə məsələyə baxışı fərqlidir. “Mən bütün ərkim keçən yaradıcı ziyalıların hamısından əvvəl xahiş, sonra da tələb edirəm, Qarabağ mövzusunda heç nə yazmasınlar. Çünki mən bütün varlığım qədər inanıram ki, bu gün Qarabağ mövzusu yazıçılardan daha çox, dövlətin, müdafiə nazirinin, ümumilikdə bütün xalqın mövzusudur. Mən sabah bir roman yazım, azdan-çoxdan fantaziyam da var, bir azərbaycanlı obrazı yaradım, bir ucdan qırsın ermənilər... Bu, absurd bir şeydir. Biz kimi aldadırıq? Ona görə də mən bütün dostlarımdan xahiş edirəm ki, Qarabağdan heç nə yazmasınlar. ”

Naşir Şahbaz Xuduoğlu isə bir naşir gözü ilə baxır məsələyə: “Hesab edək ki, hökumət bu sahəyə maliyyə ayırdı, yazıçılar da bir-birindən maraqlı əsərlər yazmağa başladılar. Bəs Azərbaycan oxucusu? Onların bu mövzuda yazılan əsərlərə marağı, tələbatı varmı?”

O hesab edir ki, “Qarabağ hadisələrinə qədər bu mövzuda yazılanlar Qarabağ olaylarının yanından ötüb. Ədəbiyyat bir nəfərin faciəsini daha ustalıqla yaza bilir, nəinki bir ölkənin. Statistik məlumatlar əsasında yaranmış ədəbi nümunələr var ki, bu, oxucu marağına səbəb olmur. Bu hadisələrdən zərər çəkmiş insanların yazdıqları isə daha çox onların yaxın çevrəsi üçün maraqlı olur. Qaçqın həyatı, Qarabağ ədəbiyyatı özünə yer tapa bilməyib. Oxucu Qarabağ mövzusunda dinamik mətn axtarır.” (3)

Lakin 2005-ci ildən sonra sanki Azərbaycan yazıçılarında bir oyanış hiss olunur. Çünki milli düşüncənin xaotik durumdan çıxaraq yenidən bərqərar olunması, Qarabağ müharibəsi mövzusunun ədəbiyyata gəlişinin işartılarını göstərmiş olur.

2013-cü ildə modern.az saytının apardığı digər bir sorğuda Qarabağ müharibəsi mövzusunda yazılan əsərlərin bədii keyfiyyətindən danışılır. Çünki yazılan romanların dünya ədəbiyyatı ilə ayaqlaşıb- ayaqlaşmaması artıq mövzuya çevrilib. Əslində bu sorğunun aparılması yuxarıda qeyd etdiyim kimi, müharibə mövzusuna ehtiyacın olduğundan xəbər verir və oxucunun tələblərinə cavab verib-verməməsi mövzuya çevrilmişdir.

..."Ulduz" jurnalının baş redaktoru, şair Qulu Ağsəs isə yazılan əsərlərin ədəbi mətn olmamasından gileylənir: "Bu əsərlər bir qarış işğal altında olan torpağı azad etməyib. Əvəzində ədəbiyyatın ərazilərini işğal edib. Bu cür mövzularla ədəbiyyata gəlib Yazıçılar Birliyinin üzvü olan xeyli adamlar var. Qarabağ barədə yazılan əsərlər öncə ədəbiyyatın, sonra isə Qarabağın, vətənin meyarlarına cavab verməlidir. Amma Qarabağ mövzusunda yazılanlar ədəbiyyat meyarlarına cavab vermir."

...Bütün bu deyilənlər Azərbaycan ədəbi mənzərəsinin bir növ göstəricisidir. Gördüyümüz kimi, tənqidçi, yazıçı, oxucularımız bu mövzuda əsərlərin ya olmamasından, ya bədii keyfiyyətlərinin aşağı səviyyədə olmasından narahatdırlar. Sual oluna bilər, doğrudanmı, Azərbaycan ədəbiyyatında Qarabağ müharibəsindən yazılan romanlar bu qədər qıtdır? Doğrudanmı, yazılan əsərlər bu qədər zəifdir? Düşünürəm ki, adlarını sadaladığım tənqidçilər, yazarlar bəzən

başlarını öz pənəcərələrindən çıxarmırlar. Və sadəcə yan-yörələrində gedən prosesləri müşahidə etməklə qənaətlənirlər. Çünki yazılan əsərlər var. Düzdür, onların poetikası o qədər zəngin olmasa da, az-çox yazılan əsərlərin təbliği sahəsində də ciddi problemlər var. Azərbaycan ədəbiyyatında yaşanan problemin ən böyüyü qütbləşmlərin olmasıdır. Diqqətinizə yazılan bir neçə əsəri və onların Qarabağ mövzusna münasi bətini çatdırmaq istərdim:

İsa Muğannanın "Qəbirstan", Sabir Əhmədlinin Qarabağ trilogiyası "Axirət sevdası", "Kef", "Ömür urası" Aqil Abbasın "Dolu", Şəmil Sadiq və Müşfiq Xanın "Umidlərin izi ilə", ...Orxan Fikrətoğlunun "Tək", Cingiz Abdullayevin "Əclaflarin qanunu", Elxan Elatlının "Cəhənnəmdən gələn səs", Sərdar Aminin "Qaratoyuq nəğməsi", ...Nüşabə xanım Məmmədlinin "Zəngülə", Yusif Əhmədovun "Torpağa tökülən qan", Zaur Akifoğlunun ilk bədii əsəri olan "Qız və Qurd", Şəmil Sadiqin "OdƏrlər" kimi romanları ədəbi-tarixi yaddaşımızı özündə əks etdirən, əldə olan bədii nümunələrdir.

Adlarını qeyd etdiyimiz romanların Qarabağ müharibəsinə yanaşmasını ümumiləşdirsək, aşağıdakı mənzərə ilə rastlaşarıq: müharibənin gedişində Azərbaycan xalqının Ermənilər tərəfindən zülmlərə düçar olmasını, müharibədə məğlub tərəf olsaq da, ayrı -ayrılıqda şücaət göstərən əsgərlərimizin igidliklərindən, müharibədən sonra qaçqın və köçünlərin yaşadıqları durumdan, müharibənin hər iki xalqa vurduğu mənəvi, psixoloji ziyandan, girovluq həyatı yaşamış azərbaycanlıların xatirələrindən, Sovet hökumətinin varisi olan Rusiyadan və dünya ictimaiyyətindən Azərbaycana qarşı bir tərəfli münasi-

bətindən...

Adını çəkdiyim romanlardan "Ümidlərin izi ilə" romanının həmmüəllifiyəm. Bu romanda əsirlikdə olan azərbaycanlı qızın Fransa da tapılan bir gündəliyindən bəhs edilir. Əsərin qəhrəmanı – Azərbaycanın əsir düşmüş qadınlarının ümumiləşdirilmiş tipi Aytəkinin dilindən əsirlikdə ermənilər tərəfindən başına olmazın oyunların gətirilməsi, qürurunun tapdalanması, insan oğlunun təsəvvür belə edə bilməyəcəyi işgəncləri yaşadığı, gözünün qabağında anasının, nənəsinin, bacısının zorlanması və körpə qardaşı ilə birgə vəhşicəsinə öldürülməsi danışılır. Əsər MTN-in arxiv materialları və əsrilikdən olan qadınların xatirələri əsasında yazılmışdır. Nə qədər tarixi həqiqətləri əks etdirsə də, bu gün mən o əsərə görə bəzən utanıram. Əslində tarixi materialları toplayanda utandığım üçün əsərin həmmüəllifi Müşfiq Xanla birgə bu gerçəkliyi oxucuya çatdırmaq üçün çılpaqlığı ilə verməyi qərara aldıq. Çünki bundan artıq nə etməlidirlər ki, mənim – türkün əsəblərini tarıma çəksinlər. Lakin əsəri oxuyan ağsaqqallarımızdan biri bizi bu əsərə görə xeyli danladı. Onun fikrincə, bu cür əsərlər bir xalqı özünə güvənməsinə yardım etmir, əksinə onun gözünü qorxaqlığa, həmişə əzilməyə layiq olduğuna, zəif, gücsüz, qürursuz bir gənclik yetişdirməyə xidmət edir. Düzdür, əsərin sonunda sevgilisi, Aytəkini müharibədə itirən mayor Ramilin apardığı gizlin əməliyyat həqiqəti üzə çıxarır. Aytəkinin yaşadığı bəlalara, işgəncələrə baxmayaraq, sonuna qədər vətəninə xəyanət etməməsi, bacısının yaşaması üçün ermənilərin bütün işgəncələrinə dözən qəhrəmanın, sonda vətəninə görə ondan və özündən vaz keçməsi Azərbaycan gəncliyində öz milləti ilə

qürur duymasına, əzilsək də, yıpransaq da, vətən namusu və qeyrəti mövzu olduqda yenidən dirçəlib mənliyimizi qurtarmaq kimi hisslərimizin olduğunu anladır. Lakin buna baxmayaraq, torpaqları işğal altında olan bir xalqın ədəbiyyatı sadəcə qəhərə-manlar yaratmalı, onların şücaəti ilə gənclikdə bir ruh yüksəkliyi aşılamalı, qurtluşunun mübarizədən keç-diyini incə, zərif yollarla ifadə etməlidir. Elə buna görə də "Ümidlərin izilə" romanından sonra "OdƏr lər" əsərini qələmə aldım.

"Şöhrət" ordenli yazıçımız Aqil Abbasın 2008-ci ildə yazılmış, "Dolu" romanı (2012-ci ildə eyniadlı ssenari əsasında film çəkilib) ədəbiyyatımızda haq-qında ən çox danışılan, yazılan "Qarabağ" müha-ribəsinin gerçəkliklərini özündə əks etdirən, məhz müharibədən dolğun şəkildə bəhs edən əsərlərimiz dəndir.

Yazıçı-publisistin "Ən xoşbəxt adam", "Bat-manqılınc", "Çadırda Üzeyir Hacıbəyov doğula bil-məz", kimi maraqlı əsərləri olsa da, "Dolu" romanını onun yaradıcılığının zirvəsi hesab etmək olar. Çap olunduğu gündən roman haqqında müxtəlif səpkili fikirlər səsləndirilir, ədəbi-tənqidi yazılar, təhlillər yazılır. Romanı tənqid edənlər çox olsa da, L. Tolstoy kimi nəhəng yazıçının dünyaca ünlü "Hərb və Sülh" romanı ilə müqayisə edənlər də var. Qısacası, Roman müharibə dövrünün gerçəkliklərini əks etdirmək və bu günki gəncliyi qəhrəmanlığa, vətənpərvərliyə səsləmək baxımından çox önəmli əsərlərdən biridir. Mövzu olaraq Qarabağ müharibəsinin seçilməsi, müəllifin vətəndaş olaraq narahatlığının, nigarançı-lığının göstəricisidir.

"Dolu" romanının uğurlu xüsusiyyətləri kifayət

qədər çoxdur. Romandakı ayrı-ayrı səhnələr, süjet keçidləri, obrazlar, əsərin dili, dinamikası, mövzunun aktuallığı yazıçının uğurlu yanaşmasının məhsuludur.

Müəllif Qarabağ müharibəsinin gerçəklərinə özünəməxsus tərzdə işıq tutur.

Əsər iki hissədən ibarətdir. Olduqca dinamik bir dillə qələmə alınmış birinci hissədə "Dünyanın Ən Varlı Şəhəri" – Ağdam və onun ətrafında gedən döyüşlər, Ağdamda təşkil edilmiş özünümüdafiə batalyonu, könüllülərin "Vurğun Vurmuş Cavanlar"ın torpağı uğrunda döyüşmələri və şəhid olmaları, "Dünyanın Ən Varlı Şəhəri"nin Sovet dövründəki vəziyyəti təsvir olunub. I Qarabağ müharibəsinin atəşkəslə başa çatmasından sonrakı dövrü əhatə edən ikinci hissədə isə "Dünyanın Ən Varlı Şəhəri" işğal altında olan ağdamlıların çadır şəhərciklərində yardım ümidinə yaşamaları, Komandirin müharibədən sonrakı keşməkeşli həyatından bəhs edilir.

Müəllifin yaxın tariximizi diqqətlə və peşəkar yazıçı müşahidəsi ilə izlədiyi bütün əsər boyu nəzərə çarpır. Müəllifin "Dolu"nu "Qarabağ haqqında salnamə" adlandırılması kifayət qədər həqiqətə uyğundur. "Dolu"da Qarabağ müharibəsinin həqiqətləri şillə kimi üzümüzə çırpılır.

Aqil Abbas "Dolu" romanında rus riyakarlığını və vicdansızlığını, erməni vəhşiliyini necə ustalıqla qələmə alıbsa, Azərbaycan türklərinin hətta müharibə şəraitində belə insanlıqdan, bəşəri dəyərlərdən uzaqlaşmadığını ustalıqla qələmə ala bilib. Aşağıda verəcəyim nümunə türk əsgərini hətta döyüş şəraitində belə ermənilərə bənzəmək, onlar kimi vəhşi və şərəfsiz olmaq istəmir:

"Döyüşlərin birində əllərinə bir erməni qızı düşmüşdü. İntiqam eşqindən gözlərini qan tutmuş uşaqlar qızı zorlamaq istəmişdilər... Bəlkə də uşaqlar bu qızı güllələsəydilər fərqinə varmazdı, amma zorlanmasını qəbul edə bilməmişdi. Və qızcığazı kolluğa basmaq istəyən uşaqları saxlamışdı:

- Dəyməyin!

Araya mübahisə düşmüşdü.

- Bəs onlar bizimkiləri zorlaya bilər?!

- Biz erməni deyilik!"

Nəzərinizə çatdırım ki, müəllif müharibənin birbaşa iştirkçısı olmuş, bu cür hadisələri öz gözü ilə görmüşdür. Azərbaycan xalqı, ordusu, Xocalı kimi bir faciəni yaşasa, nəin ki, müharibədə, heç bədii əsərində də özünü ermənıyə bənzətməkdən uzaq düşüncədədir.

Romanda maraqlı detallardan biri də "Dünyanın Ən Varlı Şəhəri"nin, ağdamlıların Türkiyəyə, türk ordusuna olan sonsuz inamı və bu inamın sarsılmasıdır. Sözsüz ki, Qarabağ müharibəsində Türk insanı bacardıqca xalqımızın yanında olub, ona dəstək verib, öz yardımını göstərib. Ancaq sadə insanlar siyasi şəraiti nəzərə almadan Türkiyədən, öz qardaşlarından daha böyük dəstək gözləyirdi. Çünki Türkiyə bütün türk xalqları kimi, azərbaycanlıların da nicat yeri idi. Hər kəs bu qeyri-bərabər müharibədə 1918-ci ildəki kimi Nuru paşa, Ənvər paşa kimi qəhrəmanların ölkənin dadına çatacağı ümidində idi. Əsərdə müəllif azərbaycanlıların ümidlərinin puça çıxmasını ürək ağrısı ilə qeyd edir. Çarəsiz qalmış ana əsərin qəhrəmanı oğlu Pələngdən soruşur:

- Bala, bəs bu türklər niyə gəlmirlər?

- Gəliblər, ay ana, gəliblər!

- Allah, sənə şükür. Bəs qurban olduqlarım hardadı?

- Bakıda dönərxana tikirlər.

- Dönərxana nədi, a bala?

- Dönərxana?! Avtomat zavodu.

- Ayaqlarının altında ölüm! Onlar olmasa, ermənilər çoxdan bizi qırıb qurtarmışdı.”

...

Və bir anda bütün şəhərə səs yayıldı:
-Türklər uşaqlara pul göndəriblər...
- Deyirlər özləri də gəlir...
- Di gedin, erməni köpəyoğlu! Elə bilirsiniz qardaşlarımız bizi tək qoyacaqlar...
Və İkinciyə xəbər çatdı ki...

... Batalyonun həyətində Türkiyənin bayrağını qaldırıblar!

... Batalyonun həyətində qaldırılan isə Türkiyənin bayrağı deyildi, Drakonun Pələngin qanına hopmuş köynəyiydi...”

Göründüyü kimi, Azərbaycanın ağır durumunda ölkəyə iş məqsədilə gələn təriqətçilər, işbazlar qınaq obyektinə çevrilir. Sadəlövh azərbaycanlı qadının türk ordusunun köməyə gələcəyinə nə qədər inandığını görürük. Təəssüflər olsun ki, 1992-ci ildə Azərbaycana gələn kiçik alverçilər bu gün böyük holdinqlərin, təhsil şəbəkələrinin sahibləridir. Burda ümumilikdə türk ordusuna olan inam və etibarla yanaşı “uman yerdən küsərlər” prinsipi də öz əksini tapmışdır. Lakin sadə azərbaycanlının qəzəbdən doğan “Bakıda dönərxana tikirlər” ifadəsi belə qardaş münasibətdir. Lakin rəsmi də olmasa Birinci Qarabağ müharibəsində könüllü türk qardaşlarımız bizimlə

çiyin-çiyinə döyüşüb və şəhid olublar.

Müəllif Qarabağ müharibəsinin uduzulmasında təkcə dünyanı, qardaş türkiyəni günahlandırmır. Hələ də rusların qayıtmasını gözləyən, ironik şəkildə simvolik olaraq adlandırdığı fırıldaqçı "At Belində Olan Adam"ın müharibədə şücaət göstərən Drakonu şəxsi prinsipləri üçün oldürtmək istədiyi üçün cəsarətli Pələngə bir çanta pul verməsi o dövrdəki tarixi həqiqətləri ortaya qoyur. Siyasi başıpozuqluq Azərbaycan ordusunun vahid əmr altında döyüşmə-sinə böyük əngəllər yaradır, könüllülər batalyonunda tez-tez düşən çaxnaşmaların da torpaqlarımızın işğal olunması səbəbləri kimi göstəriri. Pələng ona təklif edilən iyrənc təklifi-pulu alsa da məqsədi Drakonu öldürmək deyil, pulla ehtiyacı olanlara kömək etmək, qalan məbləği isə könüllülərə vermək fikrnə düşür. Anası bu pulun hardan alındığını soruşanda o, həqiqəti deyə bilmədiyi üçün sadədil və safqəlbli anasını aldatmağa məcbur olur:

"- Bu nədi, ay bala? Oğurluq eləmisən?- dedi və halsız düşdü çarpayıya.

- Oğurluq nədi, ay ana?! Bakıdan göndəriblər, batalyonun puludu.- amma gördü anası inanmadı, and içdi;- Seyid Lazım ağanın cəddi, batalyonun puludu.

Anası yenə inanmadı:

- Denən Həzrət Abbas haqqı!

- Həzrət Abbas haqqı! İndi inandın? - Sonra "türk" adı gələndə çiçəyi çırtlayan anasını həm rahatlatmaq, həm də sevindirmək üçün dedi; - Türklər göndərib.

Anasının gözləri alacalanıb işıqlandı:

- Buy, onlara qurban olum! Buy, onların başına

dolanım!”

Təbii ki, Pələngin anası oğlunun kinayəsini başa düşmür və sadəlövhlüklə türklərin köməyə gələcəyinə inanır. Pələngin ölümündən sonra həmin çantanı Komandirə təqdim edir və türklər tərəfindən göndərildiyini deyir. Bu, bir daha onu göstərir ki, bu gün kimlərinsə bu bir millətin arasına təfriqə salmaq arzusunu məhv edir. Analarımızın, atalarımızın qanında qardaşa inam və etibar heç bir zaman ölməmişdir. Bu indi də davam edir.

Cəlil Cavanşir “Dolu” romanı haqqında yazır: “Əsər bədii cəhətdən də uğursuz hesab oluna bilməz. Obraz və xarakterlər, təhkiyə, dil, üslüb, bədii təsvir, deyimlər, müşahidələr olduqca maraqlıdır. Müəllifin peşəkarlığı, özəlliklə romançı kimi dinamik dili əsəri olduqca oxunaqlı edir. Bəzən məntiqi bağlılıqlar oxucunu heyrətləndirir. Obrazların xarakterini açmaq üçün yazıçının peşəkarlığı kifayət qədər yetərli olduğundan əsər oxucunu təsirləndirir, silkələyir.” (5)

Aqil Abbasın “Dolu” romanı bir çox məziyyətlərinə görə dövrün salnaməsi hesab edilə bilər. Yazıçı əsəri hadisələrin baş verdiyi dövrü hadisələrin canlı şahidi kimi ustalıqla və peşəkarlıqla qələmə alıb. Ən əsası odur ki, döyüş səhnələri ilə bol olan bu əsər, bəlkə də müstəqillik dövrümüzdə savaş, döyüş romanlardan birincisidir.

Yazıçı-jurnalist Zaur Akifoğlunun “Qız və Qurd” romanı öz sujet xətti ilə və olaylara fərqli baxışı ilə çox maraqlı əsərlərdədnir. Aqil Abbasın “Dolu” romanı müharibədə əziyyət çəkən insan talelərindən və siyasi proseslərdən bəhs etsə də, “Qız və Qurd” romanı insanla təbiətin vəhdətdə olduğunu və qanlı

müharibələrin insanla bərabər təbiətə də vurduğu zərbələrdən danışır. Müharibənin təkcə bir millət üçün yox, bəşəriyyət üçün, kainat üçün təhlükə olduğu fikrini ana xətt kimi götürür. Biz bu əsərdə bir kiçik, kimsəsiz, türk qızın taleyi ilə təbiətin taleyini qarşılaşdırır. Buna baxmayaraq əsərdə təbiət-Qurd əsərin baş qəhrəmanıdır.

Əsərdə Qarabağ müharibəsinin fonunda əsərin əsas obrazı olan Qurdun-təbiətin də işgəncələrə düçar olduğu bəlalarla erməni işğalçılarının başına min bir oyun açdığı, yurdsuz, yuvasız, kimsəsiz buraxdığı azərbaycanlı uşaqların ümumiləşdirilmiş tipi Nigarın qarşılaşdırılması heç də təsadüfi deyil. Əflatun Amaşova görə, "Zaurun yaratdığı dördayaqlı obrazı daha kamildir, indiyədək təqdim olunanlardan kifayət qədər fərqlidir. O, adi obraz deyil, qədim Türk xalqlarına məxsus bəşəri keyfiyyətləri özündə əks etdirən rəmzdir – Boz Qurddur. Nigar ömrünün son anlarını yaşamasına baxmayaraq nicat əlini canavara uzadır, onu buxovlardan azad edir. "Qurd" çağırmaqla tərəf müqabilinə həyat eşqini, mübarizliyi qaytarır. Bir vaxtlar Türk övladına işıqlı dünyaya yol göstərən Boz Qurda indi xeyirxahlığının əvəzi qayıdır. Təsirli səhnənin iştirakçılarının ağıllarına da gəlmir ki, hər ikisi ermənilərin soyqırımı hədəfindədir. Biri Türk soyundan olduğuna, digəri Türkçülük rəmzi kimi qəbul edildiyinə görə. Hökmü kəsən isə Tanrıya, müqəddəs kitablardakı ehkamlara asi çıxan, "böyük pəhriz" dövründəki günahların bu rəmzin məhvi ilə yuyula biləcəyini təlqin edən kilsə keşişi Şmavon, icraçısı dağ batalyonu komissarı, dinc sakinlərin qatili Xaçik və onun buyruğunu yerinə yetirənlərdir. Fikir, məqsəd konkretdir: "Rəmzlər olmayanda

problem olmur”. (6)

Əsərdə azərbaycanlı qız kimi, Odlu silahlarla məhv edilən təbiətdən öz sürüsünü xilas etmək istəyən Qurd belə düşmənin hədəfindədir. İnsanlara yalnız türk olduğuna görə işgəncə verən, onları öldürən ermənilər Sibirdən mahir nişançı Frolu məhz Qurdu öldürmək üçün sifarişlə gətirmiş və buna görə muzd ödəmişlər. Gördüyümz kimi, əsərdə problemin qoyuluşu və məqsədə doğru inkişafı yazıçının arzusunun gerçəkləşməsidir. Elə oxucunun da.

Apardığımız tədqiqatın sonunda belə qənaətə gəlirik ki, Azərbaycan ədəbiyyatında, o cümlədən romanında Qarabağ mövzusuna müraciətin ürəkaçan olmamasının bir neçə səbəbi var:

-Birincisi, Azərbaycanın Qarabağ müharibəsində (hələlik) məğlub olması,

-İkincisi, rejim dəyişikliyinin olması, yəni bir ictimai quruluşun, digər bir ictimai quruluşa keçid dövrü yaşandığı üçün yazıçılar arasında ədəbi varislik, sələf-xələf prinsipinin pozulması,

-Üçüncüsü, Azərbaycan yazıçısının öz oxucusunu itirməsi və bu gün oxucuların yazarlardan tələbinin olmaması,

-Dördüncüsü, Müstəqil Azərbaycan nəşriyyatlarının tam inkişaf etməməsi,

-Beşincisi, ədəbi tənqidin obyektiv olmaması, sadəcə dəstəbazlığa xidmət etməsi,

-Altıncısı isə dövlətin ədəbiyyatı bir ideoloji maşın kimi istifadə etmək cəhdinin olmaması.

Adlarını qeyd etdiyimiz və haqqında danışdığımız romanların Qarabağ müharibəsinə yanaşmasını ümu-

miləşdirdikdə: müharibənin gedişində Azərbaycan xalqının Ermənilər tərəfindən zülmlərə düçar olmasını, müharibədə məğlub tərəf olsaq da, ayrı-ayrılıqda şücaət göstərən əsgərlərimizin igidliklərini, müharibədən sonra qaçqın və köçünlərin yaşadıqları durumunu, müharibənin hər iki xalqa vurduğu mənəvi, psixoloji ziyanı, girovluq həyatı yaşamış azərbaycanlıların xatirələrini, Sovet hökumətinin varisi olan Rusiyadan və dünya ictimaiyyətindən Azərbaycana qarşı bir tərəfli münasibətinin şahidi oluruq.

Qaynaq:

1. Bağırzadə Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970, səh. 379
2. Eyüp Azlal. "Savaşta Edebiyat Edebiyatta Savaş" (http://www.ayvakti.net)
3. "YAZIÇILAR "QARABAĞIN QARA BƏXTİ"ndən YAZMAĞA HƏVƏSLİ DEYİL" Sevinc Telmanqızı, "Yeni Müsavat" , 23.10.2010 (http://musavat.com)
4. "Qarabağ haqda yazılan əsərlər torpağı azad etməyib, ədəbiyyatı işğal edib", Elmin Nuri, 25.01.2013 (http://modern.az)
5. "Dolu" Qarabağ döyüşləri haqqında yazılan ən yaxşı nəsr nümunələrindən biridir". Cəlil Cavanşir. 01.02.2012 (http://edebiyyat.biz)
6. "Qız və Qurd"– əbədiyyət nəğməsi",Ə.Amaşov, "525-ci qəzet".- 2011.- 1 iyul.- S.2. (http://anl.az)

Gülnar QASIMLI (SƏMA)
/AMEA Ədəbiyyat İnstitutunun doktorantı, DGTYB Məclis üzvü/

MÜSTƏQİLLİK İLLƏRİNDƏ YAZILMIŞ POEMALARDA QARABAĞ MÖVZUSU

Açar sözlər: poema, şair, müharibə, şəhid, müstəqillik

Ölkəmizin əldə etdiyi bağımsızlıq bütöv mədəniyyətimiz kimi, ədəbiyyatımıza da təsirini göstərdi. "Yeni dövr şeirin məzmun və formasına dəyişikliklər gətirməklə bərabər, həm də onun tədqiq istiqamətini dəyişdi, əvvəlki poetik baxışlar sistemini təbəddülata uğrtadı". 1(315) Bu dəyişiklik yalnız şeirdə və kiçik həcmli janrlarda nəzərə çarpmırdı. Ədəbiyyatımızın ənənəvi janrlarından olan poemalarda da özünü göstərdi. Müstəqillik əldə etməyimizlə Qarabağı əldən verməyimiz ard-arda oldu. Elə bu səbəbdən də, ədəbiyyatımızın başqa janrlarında olduğu kimi poemalarda da torpaqlarımızın itirilməsinin bədii əksini görmək mümkündür. Bu məsələni ümumiləşdirərkən Elnarə Akimova yazır: "Qarabağ dərdi, yurd nisgili, şəhid olmuş oğullarımızın şanlı obrazlarının yaradılması, düşmən tapdağında olan torpaqlarımızın acısı, Xocalı faciəsinin poetik sözdə təcəssümü, müharibə görüntüləri yaratmaq meyilləri poemada qabarıqlaşır. Son iki ildə Qarabağa, milli ağrılarımıza, şəhid obrazlarının təcəssümünə həsr olunmuş bir sıra əsərlər var ortada: Ələkbər Salahzadənin "Xocalı xəcilləri", Fikrət Qocanın "Şəhidlər xiyabanı", Zəlimxan Yaqubun "Şuşa", Ədalət Əsgəroğlunun "Xoca", gənc şair Ələmdar Cabbarlının "Kəlbəcərsiz

19 il", Musa Ələkbərlinin "Mübariz", Şahnaz Nəsirlinin "Mübariz", Mahir Cavadoğlunun "Riad" poemaları adından da bəlli olduğu kimi müharibə gerçəklərini əks etdirən poemalar sırasındadır. Bu poemalarda mübarizlik ruhu aparıcıdır, qəhrəmanlıq kult səviyyəsində təqdim olunur". 2(61) Müstəqillik illərində yazılmış poemalarda Qarabağ müharibəsinə ən müxtəlif rakuslardan yanaşılıb. Belə ki, həmin əsərlərdə müharibədən öncəki Qarabağın tərənnümündən başlamış müharibənin gedişatında baş verən proseslər qələmə alınmış ən nəhayət, müharibədən sonrakı Azərbaycanın Qarabağsız durumu müxtəlif məqamlarıyla ədəbiyyata gətirilmişdir. Bir sözlə, müharibənin bütün gedişatını poemalardan ardıcıl süjetlə öyrənmək olar. N.Həsənzadə müharibədən öncəki Qarabağın belə bir təsvirini verir: "Fəsillər çaşır Şuşadamən qışda bahar görmüşəm. Qızılgülün yanağında qızılyanaq qar görmüşəm". 3(390) Bu gözəlliyin necə vəhşicəsinə məhv edildiyini göstərmək üçün həmin nümunəylə tamamilə ziddiyyət təşkil edən bəndlərə baxaq:

Meyitin başı soyulub,
Birinin gözü oyulub.
Körpə pis günə qoyulub-
Eşiblər göreşən kimi. 4(167)

və ya

Danışmağa qoyma məni,
Dişimi qır, dilimi kəs!
Qarnımı cır! Körpəmi vur!

Nəslimi qır! Dölümü kəs. 5(257)

Gətirilmiş örnəklərdə müharibənin gedişatında ermənilərin türklüyümüzə qarşı necə həqarətlə yanaşdığının şahidi oluruq. Bu tükürpədici görüntülər Z.Yaqubun "O qızın göz yaşları" poemasında ən dəhşətli epizodlar kimi qabardılmışdır.

Körpəcə qızcığazın gözünün qabağında

Ağaca bağladılar atası Təvəkkülü ,
Üç dəfə od vurdular,yerə töküldü yağı
Göyə sovruldu külü. 5(260)

Səngərlərdə gedən döyüşlər bir yana qalsın, bu müharibə bütöv azərbaycançılıqla aparılan bir savaş idi. Çünki əsas məqsəd yalnız torpaqların işğalı olsa idi, körpəcə uşaqlara o cür ağlagəlməz işgəncələr verilməzdi. Lakin bir həqiqət də var ki, ermənilik qadir olduğu hər şeyi göstərməyə hazırdır. Özü də ən iyrənc bəhanələrlə,lakin şair erməni vandalizminə təzad olaraq azərbaycanlı insaniyyətini nümayiş etdirir:

De ki, Dağlıq Qarabağ erməni torpağıdır!
Bu sözü almaq üçün onun dodaqlarından
Qığılcımın alovun,odun gücü çatmadı,
Yağının, kəmfürsərin, yadın gücü çatmadı. 5(265)

Bu örnək, azərbaycanlı balası kimi, diri-diri ağaca sarınaraq yandırılmasına razı olan, lakin ermənin dediyini etməyən türkçülüyümüzün ümumiləşdirilmiş simvoludur. N.Həsənzadənin "Şəhid atası Şərif qağaya məktub" əsərində ermənilərin ölüm tüğyanına qarşı qəribə bir cavab verilib: "Tabut sükut içindəydi,

Sükut tabut içindəydi". (3, 422) Poetik cəhətdən nə qədər mükəmməl olsa da, ağrı tutumuna görə də, misralar çox həyacanlandırıcıdır. Bu sükutlu tabutun son mənzilə yola salınmasını isə şair çox mübaliğəli şəkildə əks etdirir. "Bütün bir kənd yığışmışdı, bir həyətə sığışmışdı". 3(422) Bir şəhidin torpağa tapşırılması bir kəndi bir araya gətirib. Nəzərə alsaq ki, bu müharibə zamanı bir çox kəndlərimiz şəhid vermişdi, onda gərək bütün Azərbaycan şəhidləri naminə birləşəydi. Lakin çox qəribə bir vəziyyət əmələ gəlmişdi. "Şuşa əllərindən gedəsi olsa, çoxu kəlləsinə güllə sıxırdı. Maşallah! Hələ də salamat gəzir". (6, 240) Digər tərəfdən isə "Kürsüyə çatmaqçün biri Ağdamı, Biri də Şuşanı güdaza verdi". (7, 192) Qəribə olan budur ki, "Radioda xəlvətcə Bakını tutmuşdur, Erməni əlində əsir olan qız". (4, 234) Bu elan olunmamış müharibədə qızlarımız əsir, oğullarımız şəhid olurdu. "Ağdərə uğrunda döyüş gedirdi, Azğın ermənilər qudurmuşdular". (8, 13) Döyüş gedə-gedə baş verən hadisələrin təfərrüatını İdris Verdiyevin "Taxılmamış mayor paqonu" poemasından görmək olur. "*Neçə raport yazdı yuxarılara, Birinə də cavab verən olmadı. Elə bil kar idi Bakıdakılar, Mirzə ha yazdısa, kömək almadı*". (8, 13) Bu örnəkdə həmin dövrün ictimai-siyası xaotikliyi çılpaqlığı ilə təqdim olunub. Nə yaxşı ki, vicdanlı zabitlərimizin vicdanı hələ bu qarışıqlığın təsirinə məruz qalmamışdı. "Qırx iki vətəndaş qorudu özü, Adı qəhrəmanlıq fövqündə qaldı". (8, 15) Bu fakt Azərbaycan əsgərinin gerçək(çi) döyüş həqiqətidir. Öz canı bahasına döyüş yoldaşlarını məhv olmaqdan qurtarır, lakin verilmiş dəyəri isə çox qəribə idi. "Kapitan Mirzənin ölməz ruhuna, Verilmədi Milli

Qəhrəman adı". (8, 16) Kapitan Mirzə minlərlə Azərbaycan şəhidinin ümumiləşdirilmiş obrazıdır. İgid oğullarımızdan geri qalmayan qızlarımızın da şücaəti poemalarda bədii əksini tapıb. N.Xəzri "Salatın" poemasında yazır: "Çiynində şəhidlər daşıyan gözəl, Bu gün özü getdi çiyinlər üstə". (9, 16) Bunlar hamısı müharibənin danılmaz faktlarıdır. Bu qurbanların əbəs olmadığı barədə B.Vahabzadə "Şəhidlər" poemasında yazmışdır: "Bizim şəhidlərin müqəddəs qanı, Bəlkə də, behidir sabahımızın". (7, 284) Biz hansı sabahımıza ümid edirdik, amma hansı qismətimiz oldu. "Sildilər yer üzündən Sildilər Xocalını. Bu qeyrət qalasını, Bu qeyrət timsalını". 10(152) Ümumiyyətlə, Xocalı faciəsi müharibə mövzuları içində ən çox müraciət edilənlərdəndir.

Xocalı şanlı insanlara canlı məzar oldu.
Dünyada bir "Babiy-yar" vardı.
Xocalı kimi ikinci bir "Babiy-yar" oldu.
Xirosima kül altında çürüdü,
Amma torpaq altında Xocalı
Şişman qarın kimi enib-qalxır. (11, 76)

Gətirilən örnəkdə Xocalı soyqırımının dünyanın ən dəhşətli fəlakətləriylə müqayisəsini görürük. Son misradakı təşbeh isə özəlliklə mükəmməldir. Amma... yalnız...

Xocalını itirməmişik;
Çox sərvəti itirmişik
Gör nə boyda məmləkəti itirmişik.
Biz Laçının açarını, Əsgəranı, Xocalını
Ağdam boyda bir məkanı,Qubadlını, Zəngilanı
Say-hesabsız kənd-şəhəri

Füzulini, Cəbrayılı, Kəlbəcəri itirmişik. (12, 10)

Bu ağrılı misraların müəllifi Cabir Novruzun poemaları barədə V.Yusifli yazır: "Azərbaycanın bu son 10-12 ildə aldığı yaralar şair ürəyində də öz əks-sədasını tapıb. Şuşaya həsr etdiyi poemada, yaxud 15 il öncə işıq üzü görən "Azərbaycan" poemasında tariximiz, bu günümüz bütün təzadlarıyla əks olunur". (13, 154) Bu müharibənin yalnız Azərbaycana yox, bütün bəşəriyyətə ləkə olacağını Elbariz Məmmədli özəlliklə xəbərdarlıq edir. "*Yaxşı bax, sərsəm dünya, Səni ölüm hərləyir. Bu erməni xisləti Sağalmaz yara kimi Qanını zəhərləyir*". 10(140) Müharibənin gedişatında aldığımız zərbələr kifayət etmədi, ölkəmiz sözün həqiqi mənasında müharibədən çıxmış vəziyyətə düşdü. Milli mənliyimizlə antimənlik mübarizəyə başladı. Müharibə yalnız maddi zərbələr vurmadı, həm də mənəvi aşınmaya gətirib çıxardı. "Gözü yaxşı görür xalqın, millətin Torpaq sata-sata dikəlirsiniz. Qarabağ bir yağlı quyruğa dönüb, Torpaq yeyə-yeyə kökəlirsiniz". (6, 235) Hələ müharibənin gedişatında əmələ gəlmiş bu mənəvi aşınmalar sonralar əsl mənəvi böhranlara gətirib çıxardı. "İndikilərin bəziBakıda yeddinci mərtəbədə qaçqındı.Yeri rahatdı, damağı çağdı, özü də gözləyir ki, erməni onun namusunu, təmizləyib qurtaracaq". (4, 234) Məhz buna görə də, şair əsərinin adını "Cənnətdən qovulanlar" qoyub. Çünki əsərdə şair bu dünyanın cənnəti kimi Qarabağı nümunə göstərir. "Eh, onsuz da milyondan çox qaçqınımız vardır hələ. Öz yurdumuz özümüzə dardır hələ". (12, 8) Yaxın tariximizin bu olayları Elçin İsgəndərzadənin də yaradıcılığından yan keçməmişdir. Bu barədə V.Yusifli yazır: "Ümumiyyəylə,

Qarabağ mövzusu, yurd itkisi və itkidən doğan yanğılar Elçinin şeirlərinin mühüm bir qolunu təşkil edir. Dərin vətənpərvərlik ruhu bu şeirlərin mayasına hopub. Amma E.İsgəndərzadə vətənpərvərliyi vətəni tərənnüm kimi anlamır, o, vətənin bu günündən yazır, onun igid, qəhrəman və şəhid oğullarını gənc nəslə nümunə göstərir, söz ustadlarının sənət dünyasına baş vurur, onları bir vətənin mənəvi tarixinin yaradıcıları hesab edir". (13, 215) Onun belə əsərlərindən biri də, "Bu qala bizim qala" poemasıdır. "Xarıbülbüllər səni Yuxuda görür,bəlkə? Bəlkə, şəhər şehiylə ağlayır Qarabağda. Bizim güllər, çiçəklər. Hələ qan qoxuyur, barıt qoxuyur. Qarabağdan əsən yellər küləklər..." (11, 100) "Biganəlik iqlimi" əsərində isə yazır:

Üstü-başı, ayaqqabısı nimdaş,
Ürəyində ümid, gözlərində yaş.
bu gün rüşvət verə bilmədiyi üçün
imtahandan kəsilmiş
əli-ayağı yerdən-göydən üzülmüş
qaçqın bir tələbə qızıngözlərinin
aynasında solan, saralan
Vətən, Millət sevgisini görmüsünüzmü?!
Görmüsünüzsə əgər, necə rahat yaşamısız o səhər?! (14, 160)

Şair qaçqın adını daşımağa məhkum olunmuş tələbə qızın hekayətilə ümumiləşdirmə aparır. Qaçqınlıq taleyi bir yana, imtahanlardan kəsilməyinin əsl səbəbi də müharibənin ölkəmizdə dərin iz saldırdığı problemlərdəndir. Ən qəribəsi də odur ki, bu cür acınacaqlı taleyi yaşamaq məcburiyyətində qalmış bir türk qaçqınının gözlərində hələ də, Vətən, Millət sevgisi aydınca görünür. Problem ondadır ki, bu görünən

sevgini görmək istəməyənlər var. Bunlar da müharibənin vətəndaşlarımızın daxili dünyasına vurduğu mənəvi zərbələrin təzahürləridir. Eyni düşüncələr F.Qocanı da narahat edir; "*Bəs Qarabağdan didərgin düşən gəlinlərə, körpələrə kim ağlayacaq? Bəs erməni əlində əsir qalan qızlara, Bəs bu çöllərə səpilmiş Körpələrə, yurdsuzlara kim ağlayacaq?*" (4, 233) Əslində şairin məramı milləti ağlaşmaya səsləmək deyil, əsl məqsəd halımızın nə qədər ağlamalı olduğunu unutmamağa çağırışdır. Hamımız bilə-bilə ki, erməni əsirliyində nə qədər soydaşlarımız var, ermənilər onlardan öz mənfur niyyətləri üçün necə amansızlıqla istifadə edir, gərək vətəndaşlıq məsuliyyətimizi itirməyək. "Qarabağdan gələn var" poemasında N.Həsənzadə yazır: "*Qarabağ mənim də yuxuma girir, Getdi haqq yolunda ərlər, ərənlər. Erməni Şuşada kilsə tikdirir, Bakıda pul səpir toya gələnlər*". 3(46) Qarabağı itirdikdən sonra, onu görə biləcəyimiz yeganə ümid yeri yuxularımızdır. Amma elə mənəvi erroziyaya məruz qalanlar var ki, onlar Şuşada ermənin "quruculuq, abadlıq" işləri aparmağından özlərini xəbərsiz kimi göstərirlər. Sanki heç yer üzündə türkün yaşadığı Şuşa adlı bir bölgə olmayıb. Çünki Şuşanın tarixi yoxluğu üçün düşmənlərimiz də var gücüylə çalışıblar. Yusifbəy Həsənbəy "Cənnətin bağlı yolları" əsərində bu problemi də qabardıb. "*Xan qızı Natəvan imarətinin qızıl-qızıl daşları Xankəndində Andranikə Ucaldılan saraydadı*". (11,68) Bu müharibədə nəinki, torpaqlarımız işğal olundu, bütün maddi-mədəni sərvətlərimiz tarixsizliyə uğradı. İlyas Tapdıq 2000-ci ildə qələmə aldığı "Şuşa gözləyir bizi"lirik poemasında tarixi abidələrimizin aqibətinə də etirazını bildirmişdi. "Ayağa qalxacaqmı, Vaqifin

məqbərəsi, Nəvvabın qəbri daha? Zakirin Natəvanın Tükəndi səbri daha”. (15, 133) Qarabağ bütün tarixi şəxsiyyətləriylə, mədəni irsiylə tarixə gömülmək təhlükəsi qarşısındadır. Bu səbəbdən də N.Həsənzadənin narahatçılığı əbəs deyil. “Məxəzlər oxudum mən qana-qana, Yazılar görmüşəm alban dilində. Tarix kitablarım qalsın bir yana, Tariximiz qaldı düşmən əlində”. 3(48) Bu həqiqətləri bilə-bilə mübarizəsizlik məğlubiyyətə səbəb olur. Bir fakt da danılmazdır ki, ermənilər bizim tariximizə aid olan hər şeyi saxtalaşdırmaqda mahirdirlər. Bu cür əlverişli mövcud şəraitdən yararlanmaq onlara çox sərfəlidir. Birinci minillikdən qalmış Alban dilli qədim qaynaqların düşmən əsarəti altında qalması gələcək tarixin nə qədər yanlış faktlarla dünyaya çatdırılmasına gətirib çıxaracaq, bunun səbəbləri çoxdur. Çünki müharibə ölkəmizdə neçə illik xaos yaratdı. Vaxtilə ziyalı ailə kimi tanınan ailələrimizin qaçqınlıq aqibəti çox acınacıqlı oldu. “*Müəllim qapıda gözətçi olub, Dünənki qəssabı qoruyur polis. Məktəb direktoru xidmətçi olub, “Fatihə” oxuyur çadırda artist*”. 3(57) Gətirilmiş örnək N.Həsənzadənin 1997- ci ildə qələmə aldığı “Qarabağdan gələn var” poemasındandır.

Ümumiyyətlə, əsərin mövzusundan bəlli olur ki, Qarabağdan gələnlər niyə və hara gəldiklərini ayrıd edə bilmirlər. Çünki onlar ölkədaxili yerdəyişmələrdə elə haqsızlıqla üzləşirlər ki, sanki onların yurd-yuvalarından zorla didərgin salınmaları yaddan çıxarılır. Poemadan da göründüyü kimi, vaxtilə məktəb direktoru işləmiş ziyalı indi acından ölməmək üçün Bakı məktəblərinin birində gözətçi işləməyə məcburdur. Dərinliklərinə varanda bunun da kökü ədalətsiz müharibəyə söykənir. Çünki onların doğma yurd-yu-

valları erməni qəsbkarları tərəfindən zor gücünə zəbt olunmasaydı, onlar da öz layiq olduğu yerlərdə çalışardılar. Bu müharibə hətta yaradıcılıqla məşğul olan insanların həyatına da təsirsiz qalmadı. Kəlbəcərli şair Ələmdar Cabbarlı "Kəbləcər tacıdır Azərbaycanın" poemasında qaçqınlıq ağrılarını belə ifadə edib: "Qəhrəman xalqımın, cəsur xalqımın Bilməzdim bir belə fağır olduğun. Qaçqın adı altda ömür sürməyin Dözülməz olduğun, ağır olduğun". (16, 20) Bənddən də göründüyü kimi, müharibə bir çox yaradıcı ziyalılarımızı da qaçqın adı altında yaşamağa məcbur edib. Özü də bu cür yaşam nə qədər dözülməz, nə qədər ağırdır:

Mənim də gözümdə yaşım göynəyir
Yadıma saldıqca huşum göynəyir,
Kəndimin suyundan içib yuxuda-
Səhər dururam ki, dişim göynəyir. (16, 26)

Bu yerdə məşhur misalımız olan "yuxuda görərsiz" ifadəsi yada düşür. Özü də necə vahiməli bir yuxu. Şairin qüdrəti ondadır ki, belədözülməz ağrıları bədii təcəssümlə əks etdirə bilmişdi. Bu misralar Kəlbəcərin buz bulaqlarını, diş göynədən sularını yada salır. Sözün həqiqi mənasında diş göynədən o bulaqlar indi məcazi mənada diş göynətməklə insanı göynəyə-göynəyə qoyur. Rizvan Nəsiboğlu "Dörd yol" poemasında haqlı olaraq yazır: "Yer də bütöv imiş, göylər də bütöv, Nə fərqi burdayan, ya o başdayam. Xocalı dərdimi qanmırsa dünya, Nədən iyirmi ildi "yalvarışdayam?!" (17, 90) Əgər biz qlobal dünyanın vətəndaşlarıyıqsa, dünya bizim hamımızın evidirsə, onda niyə supergüclər razı olur ki, iki qonşu ölkədən biri o birinə qarşı ərazi iddiasına düşsün, özü

də haqsızcasına. Axı hamımız bu dünyanın insanlarıyıq. Bəs niyə 20 ildir ki, bu dünya bizim Xocalı dərdimizi qanmaq istəmir?! Əslində biz düşmənlərə qarşı birgə mübarizə yolunu tutmalıyıq: "*Düşmən baş apardı, qudurdu bəsdi, Axtarma düşməni ocaq başında. Sıyır qılıncını sərhəddə gəzdir, Ya da ki, gəzdirmə papaq başında*". (18, 184) Birmənalı şəkildə qəbul edilmiş düşmənimiz var ki, onlara qarşı birgə mübarizə aparmaq lazımdır. Çünki bu müharibə zamanı yalnız Qarabağ və ətraf rayonlar döyüş bölgəsi deyildi. Ermənistanla sərhəd olan bütün bölgələrdə vəziyyət gərgin idi. Belə rayonlarımızdan biri də Qazaxdır. Orada şəhid olmuş Qaratel haqqında poema yazmış Məmməd İlqarın dastan-poemasından bir parçaya baxaq: "Bu ilki yaz elə gəlmişdi, elə bil bir də gəlməyəcəkdi. Qaratelin, Alının, Mərdanın və şəhid olmuş daha neçə-neçə Əskiparalının bu zövqü artıq duymadıqlarını düşünəndə dilxor olurdu". (19, 89) Bu hissləri keçirən yalnız əsərin qəhrəmanı yolçu deyil, milyonlarla türk övladıdır. Çünki neçə illərdir ki, gətirilmiş nümunədə təsvir olunan kimi, çox yazlar, çox fəsillər ötüşmüşdü, lakin neçə-neçə ləyaqətli vətəndaşlarımız dünyasını vaxtsız dəyişdiyindən bu həzzdən məhrum olmuşlar. Müharibə belə bir mənzərə yaratmışdı. "*Qarabağ - öz ana torpağında dustaqdı Qarabağ - Qeyrətli başlardan düşən papaqdı. Qarabağ- Ağ Nəbi yapıncısında qara papaqdı*". (11, 77) Bütün bu müsibətlərə baxmayaraq, yenə də ürəklərdəki qələbəyə inam hissi ölmür. Bunun təzahürünü C.Novruzun "Şuşa yolu" poemasından da görmək olar. Şair Dədə Qorqudun təbirincə son ümidini itirməyərək belə deyir.

Axırıncı nüsxələri, Şuşadan rədd olmayınca,
Əfi ilanlar sayağı başları əzilməyincə,
Qarabağdan birdəfəlik tumları kəsilməyincə,
Xankəndindən əbədilik bayrağım asılmayınca,
Bu yenilməz zəfərimin dastanı yazılmayınca,
Şuşa bizim millət üçün qeyrət,
namus, ar deməkdir.
Şuşanı azad eləmək Göyçəyə açar deməkdir.
Təbriz üçün bir paroldur
Dərbəndə uzanan yoldur.
Qərbi Azərbaycan üçünümid qapısıdır Şuşa,
Dərəyazı, Kərkük, Gəncəelin hamısıdır Şuşa. (12, 12)

Gətirilən örnəklər də göstərir ki, müstəqillik illərində yazılmış poemalarda Qarabağ müharibəsinə kifayət qədər yer ayrılmışdır. Bu müharibənin ölkəmizə gətirdiyi maddi və mənəvi fəlakətlər əsas mövzulara çevrilmişdir. Lakin bütün əsərləri bir ideya birləşdirir ki, bu da zəfər yürüşünə olan inamdır.

Qaynaq:

1. AMEA Rəyasət Heyəti, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu: Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru professor A.İmanquliyevanın anadan olmasının 75 illiyinə həsr olunmuş "Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı,10-11 oktyabr 2014. Bakı "Elm". 2014
2. AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Ədəbi proses-2013. Bakı. "Hədəf nəşrləri". 2014
3. Nəriman Həsənzadə. Seçilmiş əsərləri. 7 cilddə, II cild. Bakı. "Prometey". 2010
4. Fikrət Qoca. Sönən deyil bu ocaq. Bakı. "Elm və təhsil". 2012
5. Zəlimxan Yaqub. Mən bir dağ çayıyam. Bakı.

"Pedaqogika". 2006
6. Zəlimxan Yaqub. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı. "Şərq-Qərb". 2006
7. Bəxtiyar Vahabzadə. 2 cilddə, II cild. Bakı. "Öndər nəşriyyatı". 2004
8. İdris Verdiyev. Taxılmamış mayor paqonu. Bakı. "Qorqud". 1998
9. Nəbi Xəzri. Salatın. Bakı. "Gənclik". 1991
10. Elbariz Məmmədli. Mən savaşa çağırıram. Bakı. "Vektor nəşrlər evi". 2006
11. Yusif Həsənbəy. Cənnətin bağlı yolları. "Azərbaycan" jurnalı.№8, 2007
12. Cabir Novruz. Şuşa yolu. "Azərbaycan" jurnalı. №9, 2002
13. Yaqif Yusifli. Ədəbi həyat. Bakı. "Vektor nəşrlər evi". 2014
14. Elçin İsgəndərzadə. Qürbət hücrəsində. Bakı. "Vektor nəşrlər evi". 2013
15. İlyas Tapdıq. Şuşa gözləyir bizi. "Azərbaycan" jurnalı. №8, 2001
16. Ələmdar Cabbarlı. Kəlbəcərsiz 19 il... Bakı. "Elm". 2012
17. Rizvan Nəsiboğlu. Dörd yol. "Azərbaycan" jurnalı. №13. 2010
18. Kəmaləddin Qədim. Yaşamaqda nə varsa. Bakı. "Vektor nəşrlər evi". 2012
19. Məmməd İlqar. Qaratel. Bakı. "Qələm MMC". 2010

Tural ADIŞİRİN
/ŞƏKİ;
DGTYB Dənətim Kurulu üzvü/

XIX YÜZİL VƏ XX YÜZİLİN ÖNLƏRİNDƏ AZƏRBAYCAN YAZIÇILARININ ƏSƏRLƏRİNDƏ "ERMƏNİ" MÖVZUSU...

XIX yüzil və XX yüzilin önləri Azərbaycan xalqının ictimai-siyasi,mədəni həyatında önəm daşıyan bir mərhələdir. Ədəbiyyatımızın bu dönəmi ədəbiyyat tariximizdə çoxsaylı tədqiqatlarla müşayət olunur. Lakin bu tədqiqatarda elə məsələlər vardır ki,zamanın tələbləri ilə bağlı olaraq öz məzmunu və forması etibarı ilə dəyişdirilibdir. Bütün tarixi dövrlərdə türkün qəddar düşməni olan ermənilərə münasibət bu qəbildəndir. Tarixdən bildiyimiz kimi, milli faciəmizi qanuniləşdirən, iki qardaşı bir-birindən ayrı salan Türkmənçay müqaviləsinin XV maddəsi ilə İrandan Qarabağa ermənilər köçürüldükdən sonra bu düşmənçilik gizli və açıq şəkildə özünü göstəribdir. Uzun illər Azərbaycan yazıçıları öz əsərlərində saxta xalqlar dostluğu ideyasına sadiq qalaraq bu mənfur xalqın nümayəndələrini ədalət və demokratik nöqteyi nəzərdən göstərməyə çalışıblar. Hazırki araşdırmamın məqsədi XIX yüzil və XX yüzilin önlərində yazılmış əsərlərdə erməni obrazına münasibət bildirməkdir. Ümumilikdə bu dövrün mənəzərəsinə nəzər saldıqda erməni məsələsi, ermənilərin iç üzü həm XIX yüzil, həm də XX yüzilin önlərində yazıb-yaradan yazıçılarımızın əsərlərində özünü açıq şəkildə biruzə verir. XIX yüzil yazıçılarımızdan M.Ş.Vazehin şeirlərində, dramaturgiyamızın banisi M.F.Axundzadənin "Sər-

güzəşti mərdi-xəsis” (Hacı Qara) komediyasında, həmiçinin “Aldanmış Kəvakib” povestində, N.Vəzirovun “Yağışdan çıxdıq, yağmura düşdük” komediyasında Kefli Qıdının timsalında, o cümlədən, XX yüzilin önlərində realist nəsrimizin ən görkəmli nümayəndələrindən olan C.Məmmədquluzadənin “Kamança” pyesində kamançaçı Baxışın, “Usta Zeynal” hekayəsində Muğdusi Akopun timsalında, eləcə də felyotonlarında, özəlliklə, “Erməni və müsəlman övrətləri” başlıqlı felyetonunda, N.Nərimanovun “Bahadır və Sona” romanında və başqa əsərlərdə üzdə dost görünən, arxadan isə quyu qazan bu murdar xalqın iç üzü, qorxaqlığı, hiyləsi və.s hər cür insanlığa sığmayan iyrənc hərəkətləri üstöörtülü də olsa ustalıqla göstərilibdir. Bundan əlavə erməni xisləti, erməni məkri, hiyləsi neçə-neçə azərbaycanlının görən gözlərinin, düşünən beyinlərinin başında çanaq kimi çatlayıbdır. Belə ki, Azərbaycan mədəniyyətinin görkəmli simalarından biri, istedadlı alim, filosof və şair olan A.Bakıxanovun bir növ rus çarının gözündən salınmasında, ona qarşı hər cür pisliyin göstərilməsində erməni Mirzəcan Mədətovun məgər rolu olmayıbdırmı? Bu haqda biz görkəmli ədəbiyyatşünas Vəli Həbiboğlunun “Abbasqulu Ağa Bakıxanov” monoqrafiyasında rast gəlirik. Kitab A.Bakıxanov haqqında bilgi almaq üçün ən dəyərli sənət incisidir. Burada A.Bakıxanovun uşaqlığından tutmuş ta ölümünə qədər həyatı verilmiş, əsərlərinin adı qeyd edilibdir. Ancaq bu monoqrafiyada “Erməni generalı Mədətov” başlığı özəlliklə ilgiçəkicidir. Burada erməni generalının öz sələfləri kimi vəzifəsindən sui-istifadə edərək müsəlman əhalisinə divan tutması göstərilir. Qafqazda bu kimi erməni generallarının vasitəsilə çariz-

min müstəmləkəçilik siyasətinin həyata keçirilməsində və bu siyasətin erməni uzaqgörənliyi ilə aparılmasında bilavasitə Çar Rusiyasının xüsusi əli olubdur. Məgər A.Bakıxanovun "Müsəlman polkuna nə üçün başqa dinə biət edən şəxs başçılıq edir" fikri düşündürücü deyilmi? Yaxud A.Bakıxanovun çarın gözündən salmaq üçün gizli onun otağına girib seyfindən təmiz tərcümçə sənədlərini alıb onun yerinə qaralama, dəyişdirilmiş sənədlərin qoyulması erməni iç üzünü açıb göstərmirmi? Bu kimi faktları nə qədər istəsək göstərə bilərik. Buna bənzər başqa bir azərbaycanlı oğlunun – F.Köçərlinin başına gətirilən müsibəti də qeyd etmək yerinə düşər. Dövrünün açıq fikirli ziyalılarından olan bu Azərbaycanlı oğlunu təəssüf ki, erməni xisləti nəticəsində əcəl vaxtsız apardı. Hələ sağlığında bu görkəmli Azərbaycan alimi "Ey qardaşlar, həyatın qədrini biliniz, ayılınız, hərəkət ediniz, qapı-bacalarınızı açınız, evinizə işıq düşsün. Gözlərinizin tozunu silib diqqət ilə ətrafa baxınız" kimi xalqı ayıltmağa çalışan dəyərli fikirləri ilə öz ölüm fərmanını imzalayıbdır. Təbii ki, bu cür fikirlər nə Çar Rusiyasını, nə də erməni daşnaklarını razı sala bilərdi. Ona görə də belə insanların aradan götürülməsi vacib şərt idi. Necə deyək, onlar qaranlıq beyinlərə işıq salan məhz belə insanları aradan götürməklə xalqın düşünən beyinlərini məhv eləmək istəyirdilər. Onlar xalqın tanınmış şəxsiyyətlərinin sanki qan içənləri idilər.

XIX yüzildə mənfur erməni obrazını ilk dəfə ədəbiyyat tariximizdə işıqlandıran hələlik araşdırılmayan, geniş oxucu kütləsinə bəlli olmayan Xürrəminin "Salman ilə Sərkis" poemasından daha aydın görmək olar. Poema haqqında məlumatı biz Yolçu

Piriyevin "XIX əsr Azərbaycan ədəbiyyatında poema janrı" kitabından əldə edirik. "Kəşkül" qəzetinin 1888-ci il 65, 66, 67 və 68-ci saylarında bölüm-bölüm çap olunan bu əsər Azərbaycan və erməni xalqlarının həyatına və məişətinə həsr edilib. Əsərdə göstərilir ki, azərbaycanlı Salman və erməni Sərkis yol yoldaşı olur. Onların hər biri öz millətində olan şərafətdən, nəcabətdən bəhs edir. Salman öz xalqını tərifləyir və ermənilərdən şərəfli olduğunu qeyd edir. Salmanın aşağıdakı sözlərinə fikir verək: "Dağıstanda xanlıq olanda ermənilər bizə qul imişlər. Sizdə vüqar, təmkin, böyük-kiçik gözləmək yoxdur. Sizin millət arasında "təsvir və hiylə" geniş yer tutur." (9,78). Salmanın bu sözü Sərkisin xoşuna gəlmir,o da müsəlmanları pisləməyə başlayır. Müsəlmanların tərifi çox xoşladıqlarını söyləyir. Sonra qeyd edir ki,bəs nə üçün belədirsə, Qafqazda şöhrət qazanan ermənilərdir, ən yaxşı şeylər bizim xalqdan yetişir, badəpərəst bizik məst olan siz.

Ermənilər əgərçi çox azdır.
Leyk çeşmi-çırağı Qafqazdır.

Əlbəttə, Sərkisin sözlərində məna vardır.

İkiüzlülük, hiyləgərlik erməni xalqından başqa hansı xalqdan çıxa bilər. Ermənilərin ən böyük hiyləsi də xalqının qədrini, qiymətini bilməsidir. Bunu biz Sərkisin timsalında da görürük. O, dövlətin qüvvətlənməsi üçün hər ay Üçkilsəyə dini vergi verir. "Salman və Sərkis" poeması maraqlı məzmuna malik, dövr üçün aktual olan bir məsələyə həsr edilmiş bir əsərdir.

XIX yüzildə "erməni" mövzusuna ədəbiyyatımızın ilk maarifçi nümayəndəsi olan M.Ş.Vazehin

yaradıcılığında rast gəlirik. M.Şəfinin əsərləri içərisində onun azərbaycanca "Süsəni" rədifli müxəmməsi və farsca nəzmlə yazılmış aşiqanə məktubu diqqəti cəlb edir. Hər iki əsər Susanna adlı bir erməni qızına həsr olunub. Şair görünür sələfi Molla Pənah Vaqifdən fərqli olaraq, öz gözəl vətən qızlarımızı vəsf etmək yerinə, yanlışlıqla, erməni qızını bütün dünya gözəllərindən üstün tutubdur. Şeirdə erməni qızının bu cür vəsf edilməsi həqiqətən başa düşülməzdir.

Erməni məsələsi XIX yüzildə daha bir görkəmli sənətkarımızın – M.F.Axundzadənin yaradıcılığında vardır.

Ədəbiyyatımızda komediyanın, yeni nyüzilin, realizm məktəbinin əsasını qoyan bu böyük sənətkarın "Hekayəti mərdi-xəsis" və ya "Hacı Qara" komediyasında və "Aldanmış Kəvakib" povestində erməni məsələsinə toxunulubdur. "Sərgüzəşti mərdi xəsis" və ya "Hacı Qara" komediyası həyat həqiqətlərini dərindən əksetdirmə etibarı ilə M.F.Axundzadənin dramaturgiyasının şah əsəridir. Bu komediya sanki XIX yüzil cəmiyyətini və onun qayda-qanunlarını, eyiblərini əks etdirən bir güzgüdür. Komediyada erməni obrazlarına Ohan, Sərkis, Qəhrəman, Karapet, Mkrtıç və Arakel sürətləri daxildir. Onlardan Ohan, Sərkis, Karapet erməni qaravulları, Mkrtıç və Arakel isə adi əkinçilərdir. Ədib komediyanın üçüncü və dördüncü məclisində bu erməni nümayəndələrinin ifşaedici obrazlarını yaradıb.

Komediyanın üçüncü məclisində Ohan, Sərkis, Qəhrəman və Karapet adlı erməni qaravullarının qorxaqlığı canlandırılır. Onlar qorxaq,ikiüzlü erməni vətəndaşlarıdır. Onlar öncədən ağız dolusu danışır, qaçaqları gəlməklərinə peşman edəcəklərini, əllərində

nə varsa soyacaqlarını bildirirlər. Ancaq işə gəldikdə isə yerlərində tir-tir əsirlər. Onları öldürməmələri üçün qaçaqlardan aman istəyirlər. Buradan da yazıçı oxucuya bu xalqın necə qorxaq, ikiüzlü və riyakar olduğunu açıq-aydın göstərir. Bu faktı biz Heydər bəylə Ohanın dialoqunda bir daha görürük. Fikrimizi daha aydın çatdırmaq üçün dialoqdan bir parçanı qeyd edək:

Heydər bəy: – Adə qırışmal, ermənisən, nəsən, nə kəsdiribsən yolumuzu? Çıxın yoldan. Yoxsa hamınızı bu saat yarpaq kimi biçib-tökərəm.

Ohan: - Çıxırıq, çıxırıq darıxma, balam. Sərkis, Karapet, Qəhrəman, qayıdın balam. Bunlardan qan iyisi gəlir.

Artıq bu dialoqdan görünür ki, hər şey açıq-aydındır. Dialoqun bir tərəfində dediyi sözdən dönməyən, bircə qaşıq qandan belə qorxmayan igid türk oğlu türk obrazı, digər tərəfində isə öz həyasızlığı dünyaya səs salan,türkün qabağında tir-tir əsən erməni obrazı canlandırılır.

Bundan başqa əsərdə ermənilərin lap rüsvayçı halı Ohanla Sərkisin dialoqunda da özünü göstərir. Belə ki, Sərkisin papağı qaçdığı yerdə başından düşür. Sərkis papağını əyilib götürmək istəyəndə Ohan yüzbaşı onu qoymur. "*A gədə, Sərkis, bu yana dön. Bizi qana çalxalama, qoy qalsın – deyir*". Buradan da artıq ermənilərin nə qədər "qeyrətçil" bir xalq olduğu görsənir. Can hayında olan ermənin gözündə qeyrətin tapdaqlar altında olması onu heç maraqlandırmır.

Dahi mütəfəkkir ədəbiyyatımızda yeni nyüzilin (povest janrının) əsasını qoyduğu "Aldanmış Kəvakib" əsərində də "erməni məsələsi"nə toxunubdur. O, XIX yüzildə Rusiyanın əli ilə ermənilərin ayrı-ayrı

yerlərə səpələnməsi məhz "Aldanmış Kəvakib" povestində mollabaşı Axund Səmədin dili ilə aşağıdakı kimi vurğulayıbdır:

"Hətta mən istədim ki, cühutlara və ermənilərə dəxi əl qatıb onları da şiə məzhəbinə döndərim. Amma bir para xeyrəndiş kimsələr məsləhət görmədilər ki, lüzumu yoxdur. Çünki hər torpaqda cühutdan və ermənidən bir az var,bizim torpağımızda da bir az olmaqları məsləhətdir"

"Erməni mövzusu" ədəbiyyatımızın görkəmli nümayəndəsi N.Vəzirovun yaradıcılığında da öz əksini tapır. Ədibin 1895-ci ildə yazıb qurtardığı "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasında bunu sübut etmək mümkündür. Komediyanın Kefli Qıdı surəti timsalında dırnaqarası ermənilərlə azərbaycanlıların dostluğu,mehribanlığı göstərilir. Komediyada Kefli Qıdı gününü eyş-işrətdə keçirən harın erməni obrazıdır. Onu öz qarnından başqa heç nə maraqlandırmır. O, hətta əsərdə arvadbaz və cimrinin biridir. Uşaqlıq dostu Hacı Qəmbərə bir tikə çörəyi çox görür. Komediyanı oxuduqca yazıçı erməni obrazının hansı sifətlərə malik olmasını oxucunun nəzərinə çatdırır. Bundan əlavə bir şeyi də qeyd etmək lazımdır ki, N.Vəzirovun hər iki qonşu xalqı keçmişdəki kimi mehriban yaşamağa çağırması fikri də o qədər ürəkaçan deyil, əksinə ədib ermənilərin tarixən Azərbaycan xalqına qarşı törətdiyi vəhşilikləri nəzərə alıb,erməni obrazına daha tənqidi yanaşmalı, belə fikirlər irəli sürməməli idi. Hər halda o dövrün qayda-qanunlarını nəzərə alıb ədibin bu cür yanaşması başa düşüləndir.

Ədəbiyyatımızda erməni mövzusu, erməni obrazına münasibət XIX yüzil yazıçılarımızın əsərlərində öz əksini tapdığı kimi, XX yüzil yazıçılarımızın

əsərlərində də işıqlandırılıbdır. Bu dövr yazıçılarımızdan C.Məmmədquluzadənin "Kamança" pyesində, "Usta Zeynal" hekayəsində, N.Nərimanovun "Bahadır və Sona", M.S.Ordubadinin "Dumanlı Təbriz", Y.V.Çəmənzəminlinin "Qan içində" romanında "erməni məsələsi"nə ustalıqla yanaşılıb.

Qeyd edilən əsərlərdə dırnaqarası erməni- Azərbaycan dostluğu, ermənilərin fırıldaqçılığı, Azərbaycana qarşı torpaq iddiaları və.s məsələlər göstərilir.

İlk olaraq, C.Məmmədquluzadənin "Kamança" pyesindəki erməni obrazına münasibət bildirək. Bu pyes Azərbaycan ədəbiyyatında Qarabağ münaqişəsinə həsr olunmuş birinci bədii əsərdir. Pyesin qəhrəmanı Qəhrəman yüzbaşı vətənin müdafiəsi üçün erməni quldurlarına qarşı mübarizə aparan igid azərbaycanlı oğludur. Əsərin ən maraqlı hissəsi Qəhrəman yüzbaşı ilə erməni – kamançaçı Baxışın qarşılaşdırılması hissəsidir.

Həmvətənlərinin ermənilər tərəfindən vəhşiliklə öldürülməsinə baxmayaraq o böyük humanistlik göstərərək ermənini-kamançaçı Baxışı bağışlayır. Bununla da müəllif üstörtülü də olsa göstərir ki, Azərbaycan xalqı hər zaman bağışlayan,mərhəmət edən xalqdır. Halbuki qarşısındakı qaniçən erməni olsa belə. Böyük sənətkarın "Usta Zeynal" hekayəsində də Muğdusi Akopun simasında erməni obrazına rast gəlirik. Əsərdə avam, cahil Usta Zeynalın dilindən ermənilərin necə murdar bir xalq olduğu bədii ustalıqla oxucunun nəzərinə çatdırılır. Usta Zeynalın dilindən adicə bir fakta diqqət yetirək: "Qurban, belə fərz elə, ermənilərin hamısı dönüb müsəlman oldu. Onda Allah cəhənnəmi kimdən ötrü xəlq edib?" Buradan gözəl bir məntiq ortalığa çıxır ki,erməni və

erməni xalqı nəinki bu dünyaya,heç cəhənnəmin yeddinci qatına da layiq deyillər. Əsərdə yazıçı ermənini o qədər murdar hesab edir ki,küp vasitəsilə bunu lap gözəl ifadə edir. Aşağıdakı parçaya da diqqət etsək, dediyimiz fikri lap aydın başa düşərik: "Qurban, Allah sənə lənət eləsin!.. Ermənininin küpəsində su gətirib gəc qayırdın, bütün aləmi murdar elədin". Görünür böyük yazıçının erməni xalqına o qədər dərin nifrəti olub ki, əsərdə belə bir priyoma əl atıb.

Tarixi romanların mahir qələm sahiblərindən olan böyük yazıçı M.S.Ordubadinin "Dumanlı Təbriz" romanında erməni surətinə rast gəlirik. Təəssüflə qeyd etmək lazımdır ki, yazıçı erməni Arşaq Sürenyanı əsərin müsbət surətlərindən biri kimi təqdim edir. Guya müəllif bu surət vasitəsilə xalqlar dostluğunu, ermənilərlə - azərbaycanlıların qədim tarixə malik "qardaşlığını" əks etdirmişdir. Bir şey başa düşülməyəndir ki, daima türkün qanını içən, "türk sənin yeganə düşmənindir" deyən, adda qardaş adlandırdığı Azərbaycan xalqının ahılına, qocasına, beşikdəki körpəsinə belə acımayan, onu qılıncdan keçirən, faşistdən belə yüz dəfə qatı faşist olan erməni xalqının azərbaycanlılara qarşı hansı dostluğundan söhbət gedə bilər? Hər halda bu o dövr üçün digər yazıçılarımızda başa düşülən olduğu kimi, M.S.Ordubadidə də başa düşülən idi. Çünki bu dövrdə ölkəyə Çar Rusiyasının əmanətçisi olan Sovet imperiyası ağalıq edirdi. Azərbaycan xalqının başı üzərində daima ermənilərin simasında rusların "Demokl qılıncı" var idi.

Erməni məkri, erməni hiyləsi XX yüzildə daha bir yazıçımızın – Y.V.Çəmənzəminlinin "Qan içində" romanında mühüm yer tutur. Romanı tarixi sənədlərə, qaynaq əsaslanmış yazıçı Mirzə Adıgözəl bəyin

"Qarabağnamə" və Mirzə Camalın "Qarabağ tarixi" əsərlərindən geniş istifadə edibdir. Romanda Ohan yüzbaşının timsalında ermənilərin Azərbaycan xalqına qarşı torpaq iddialarının ilk rüşeymlərini görürük. Belə ki, Qarabağ ərazisində yerləşən erməni məlikləri böyük ağaları Rusiyanın havadarlığı ilə Qarabağ xanlığına qarşı pozuculuq edir, xanlığın nüfuzunu Rusiyanın nəzərindən aşağı salmağa çalışırdı.

Ümumiyyətlə, ermənilərin həm istər o dövr üçün – XIX, XX yüzil, həm də çağdaş dövrümüzdə – XXI yüzildə Azərbaycan xalqının başına gətirmədiyi bəla,müsibət qalmamışdır. 1918-ci il mart soyqırımı, 1990-cı ilin 20 yanvarı, Sumqayıt hadisələri, 1992-ci ilin Xocalı soyqırımı, Qarakənd faicəsi və bundan başqa saya bilmədiyimiz Azərbaycana qarşı haqsız törədilən yüzlərlə terror aktları ermənin-bu mənfur xalqın türkün, ümumilikdə türk dünyasının qorxulu kabusu,düşməni olduğunu bir daha göstərir. Bu mövzu ədəbiyyatımızın ağrılı-acılı səhifələrində özünəməxsus yer tutur və erməni məkrini, hiyləsini daha dərindən öyrənmək üçün gələcəkdə tədqiqə böyük ehtiyacı vardır.

Qaynaq

1. "Azərbaycan ədəbiyyatı tarixi". II cild. Bakı. 1960. AMEA-nın nəşriyyatı

2. Axundov Y. "Azərbaycan Sovet tarixi romanı". Bakı, Yazıçı, 1979

3. Axundov M.F. "Bədii və fəlsəfi əsərləri". Bakı, Yazıçı, 1987

4. F.Köçərlinin şəxsi arxivi. Bakı, Nurlan, 2005

5. Həbiboğlu Vəli. "Abbasqulu ağa Bakıxanov". Bakı, Gənclik, 1992

6. Məmmədquluzadə C. "Seçilmiş əsərləri". I cild. (Pyesləri və nəsr əsərləri)

7. Məmmədquluzadə C. "Seçilmiş əsərləri". II cild. (Felyotonları və məqalələri)
8. Məmmədquluzadə C. "Seçilmiş əsərləri". IV cild. Bakı, Öndər, 2004
9. Piriyev Y. "XIX əsr Azərbaycan ədəbiyyatında poema janrı". Bakı, Yazıçı, 1988
10. Vəzirov.N. "Seçilmiş əsərləri" (Povest və hekayələri). Şərq-Qərb. Bakı, 2005



Rauf ZEYNİ,
/Azərbaycan Milli QHT Forumunun prezidenti/

YADDAN ÇIXMAZ QARABAĞ – ADİ BAYATI, YOXSA GERÇƏK TARİX?..

Hardasa 12 yaşım var idi. Yay tətilində Qarabağa getmişdik – Ağdamın Kolanı kəndinə (camaat arasında "XaçınStroy" deyirdilər). Uşaqlıq yaddaşımın ən ilginc səhifələri yazılırdı o günlərdə... Xaçın gölünün ("Su anbarı"nın) sahili, uşaqlarla (Səxavətlə, Rəhmanla) Almadətli kəndindəki bağlara alma oğurluğuna getməyimiz, bağın qarovulçusu Arifin bizim arxamızca düşməsi, avarlı qayıqda təkbaşına gölü keçməyim, qaçıb canımı qurtarmağım, daha nələr, nələr...

Bunları niyə xatırladım? Sadəcə, yadıma salmaq istədim ki, "Qarabağ şikəstəsi"nə xanəndənin canlı ifasında ilk dəfə deyəsən elə o vaxt qulaq asmışam. Əslində Qarabağ faciəsi mənim beynimdə elə o vaxtdan başlayıb. Kənddə toy var idi. Nə isə yadımda qalıb ki, xanəndənin yanıqlı zil səsi var idi və o həmin toy axşamı, yəni 1972-ci ilin yayında, o toyda "Qarabağ şikəstəsi" oxuyurdu:

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Musiqi və Xanəndənin səsi ecazkar olsa da, bayatının sözləri yaddaşımın bir guşəsində elə o zamandan ilişib qaldı. O zaman sadəcə bayatının sözləri ürəyə və dilə yatımlı olduğundan yadımda qalmışdı.

O günlərdə heç ağlıma da gəlməzdi ki, bir vaxtlar bu bayatı haqqında dərindən düşünüb onun milli, tarixi və siyasi mahiyyəti haqqında araşdırma aparacağam. O zamanlar əzbər bildiyim başqa bir şeir də-böyük şairimiz Səməd Vurğunun "Azərbaycan" şeirinin bir bəndi də məni bu bayatı haqda düşünməyə yönəldirdi.

Könlüm keçir Qarabağdan.
Gah o dağdan, gah bu dağdan,
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi...

Sözün düzü o vaxt ilk ağlıma gələn fikir bu olmuşdu ki, xanəndə Qarabağı şikəst bir uşaq kimi əzizləyir. Amma elə o vaxtlar anlaya bilməmişdim ki, Şəkinin, Şirvanın bura nə dəxli var? Həmçinin bayatının son misrası olan "Yaddan çıxmaz Qarabağ" deyimi nə deməkdir? Kimdir ki, Qarabağı unudan? Xanəndə niyə belə oxuyur?.. Bunlar hamısı o zaman idi...

İllər keçdi, zaman dəyişdi, SSRİ çökdü, Azərbaycan 20-ci ildə itirdiyi dövlət müstəqilliyini bərpa elədi; amma Qarabağ işğal olundu..! Başımıza gələnlər taleyimizi, düşüncəmizi dəyişdi. Elə o vaxtdan bu bayatının izinə düşdüm. Öncələr elə bilirdim, ötən yüzilin əvvəllərində adıyaman qonşular tərəfindən Qarabağın işğalı həyata keçiriləndə, nənələrimizin dilindən deyilən bir ağıdı bu bayatı. Sonralar anladım ki, Qarabağ və Şuşa xanı İbrahim xan rus imperiyasının güclü təzyiqləri altında Qarabağ Xanlığının işğalına imza atıb, yəni rus imperiyasının tərkibinə verilməsinə imza atıb.

Muğam Azərbaycan milli musiqisinin möhtəşəm

məbədidir. Ulu xalqımızın varlığından süzülüb gələn bu məbəddə (rahib ya da kahin) olmaq hər bir soydaşımız üçün şərəfdir. Bu məbəddə on iki muğamla yanaşı, bir neçə zərb muğam da var. "Arazbarı", "Simayi-Şəms", "Şirvan Şikəstəsi", "Mani-Osmani", "Mənsuriyyə", "Qarabağ şikəstəsi" və s. Bu zərb muğamların hər biri haqqında geniş danışmaq mümkündür, amma bu zərb muğamların heç biri, Qarabağ şikəstəsi kimi, həm musiqisi, həm də sözləri ilə konkret tarixi faciəmiz olan Qarabağ faciəsi ilə əlaqədar yaradılmayıb.

Sovet dövründə belə bir fikir formalaşdırmağa çalışırdılar ki, Qarabağ bayatısı guya Xan qızının Tehrana ərə getməsi ilə bağlıdır. Guya Xanqızı Qarabağdan Tehrana köçərkən, xiffətdən və ya həsrətdən

Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ...
deyib...

Məncə bu heç bir məntiqə uyğun gəlmir. Birincisi, Xanqızı özü bayatı deməydi Şəki, Şirvan, Qarabağ yox, məsələn: Ağdam, Şuşa, Qarabağ deyərdi, yəni ən yaxın və doğma əhatəni dilə gətirərdi. Beləliklə, bu versiya daha çox uydurmaya oxşayır, sadəcə Xanqızının adından el-obada çağırılan bayatı təsiri bağışlayır.

Tam əminliklə deyə bilərəm ki, bu bayatı məhz Qarabağ xanlığının işğalı ilə bağlı yaradılıb və Qarabağ şikəstəsi zərb muğamı da ona görə belə kədərli, yanğılı, əzəmətli və unudulmaz bir formada bəstələnib ki, bu tarixi gerçəkliyi xalq hec zaman unutmasın.

Bu bayatını araşdırmaya başladığım ilk andan bayatının son misrası diqqətimi cəlb etdi: "Yaddan

çıxmaz Qarabağ”..! Nə üçün bayatı məhz bu fikirlə bitir? Anladım ki, Qarabağın varlığını, tarixini, mahiyyətini yaddaşlardan silmək niyyəti var imiş bəlli düşmənlərimizin. Bu təhlükəni duyaraq, o dövrün tanınmış aydınları (Mirmövsüm Nəvvab və b.) bu bayatını məqsədyönlü yaratmış və bu bayatıda gerçək tariximizin Qarabağ səhifəsini yaddaşlara həkk etmək istəmişlər. Ulu dədələrimizin niyyəti ilk baxışdan adi və sadə görünən bir neçə misralıq bayatıda 1805-ci il faciəsini əks etdirmək olub. Bəs onda Şəki, Şirvanın bu bayatıya nə dəxli var? Bax, bu tarixi bayatının sirri də məhz elə bu misrada gizlənirmiş...

“Şəki, Şirvan, Qarabağ” – məntiqi və tarixi ardıcıllığa diqqət yetirin, Şirvan, Şəki, Qarabağ-da deyə bilərdilər. Bəs niyə deməyiblər? Çünki bəlli xanlıqların işğal tarixlərinə uyğun ardıcıllıqla yaradıblar bayatını... Bu məntiqlə belə bir fikir deyə bilərik ki, bu təsadüfən emosional durumda çağırılan bayatı deyil, daha doğrusu, hisslərin yox, düşüncənin məhsuludur!

İlkin araşdırılmalardan aydın oldu ki,1801-ci ildə Şəki, 1804-cü ildə Şirvan və yuxarıda qeyd etdiyimiz kimi, 1805-ci ildə də Qarabağ xanlığı zorən rus imperiyasının tərkibinə qatılıb. Araşdırmaların sonucu belə düşünməyə əsas verir ki, bu möhtəşəm bayatı duyğusal nənələrimizin dərddən çağırdığı bayatı deyil, əslində, faciənin içində qovrulan, tarixi gerçəyin sarsıntısını içdən keçirən ulu dədələrimizin düşünülmüş əsəridir..! Şəki, Şirvan, Qarabağ xanlıqlarının rus imperiyası tərəfindən işğalının şahidi olmuş dədələrimiz bu faciənin xalqın yaddaşında gərəyincə yaşaması üçün (millət bu faciəni unutmasın deyə!) bu bayatını yazmış və bununla da yetin-

məyərək, “Qarabağ şikəstəsi”ni də faciələrimizin ruhuna bəstələmişlər. Heç şübhəsiz ki, böyük Səməd Vurğun:

“ Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi” deyəndə bu tarixi gerçəklikdən xəbərsiz deyildi. Nəhayət, araşdırmanın sonucu gördüyünüz kimi bir bayatının timsalında acı tarixi gerçəyi ortaya qoydu. Zamanın gedişi belədi, taleyin hökmü belədi. Qarabağ bu gün işğal olunmayıb. Bayatıdan da göründüyü kimi, 1805-ci ildə işğal olunub. Tanrı bizim xalqı bundan sonra işğal bayatılarından hifz etsin (inş.)! Tanrım böyük alimimiz Xudu Məmmədovun ruhunu şad etsin və bizə zəfər bayatıları qismət etsin. Amin! –

Bu qala bizim qala,
Həmişə bizim qala.
Tikmədim özüm qalım,
Tikdim ki, izim qala...

Tural TURAN
(Tural Mətləb oğlu Mustafayev;
DGTYB Məclisinin üzvü, "Həftə içi" qəzetinin əməkdaşı

QAR ABAĞ...
(İçsəs)

Ona biz tərəfdə "abax" deyən də var, "abağ" da. Nənəm rəhmətlik isə abağa gah "ağba" deyərdi, gah da "qar abağ". – Tərəkəmə kişilərin evlənən vaxtı oğlanlarına verdiyi çomağa deyirlər. "Abax" o çomağa deyilir ki, onu ağ pambığa bürələyib qızılı toxmaqlı sapla əyməcəli şəkildə bədizləyərlər. Yəni, naxışlayarlar.

Bu abax doqquz ay təzə bəyin evinin küncündə od vurulacağı zamanı, vədəni gözləyər. Çoban oğlunun ilk övladı erkək olunca baba olmuş çoban həmin abağı oğlundan geri alar, körpə doğulan evin damına çıxıb pambıqlı çomağı odlayar. Hər oğlan müjdəsi gələndə bu abağ odlaması davam edər. Qız övladı dünyaya gələrsə, çomağın pambıqları tüpürülə - tüpürülə qaz tükü kimi yolunar. Qar abax, qara abağa dönər...

Tərəkəmə adətinə görə, birinci sarıqda abax nəs gətirdisə, üçillik qoç yununu yandırıb qorsaqlı külünü daşdan süzərlər. Həmin su ilə də çomağı yenidən yuyarlar ki, doğulan ilk qızın davamı oğlan olsun. Su törə-tökə də çomağı yuyar, Yaradandan diləklərinin yerinə yetirilməsini istəyərlər. Sonra abaxları yenidən ağ pambığa bükər, qızılı iplərlə növbəti doqquz ay üçün sarıyarlar. Hətta tərəkəmənin dünya görmüş

ərsaya arvadları ocaqda qız səsi eşidiləndə qəmlənib bir ağı deyərdilər, günü qara gəlmiş abağa:

Qar abağdı,
Al ipli qar abağdı.
Qız gətirdi bu dəfə,
Abağın qara baxtı.

...Nədənsə, hər dəfə bu abax çomaqlar yadıma düşəndə Qarabağı xatırlayıram. Daha doğrusu, qara abağı, abağın qarasını... Qarabağın abağı nə vaxt odlanacaq deyə, düşünürəm. Niyə tapdaqlı illər, ard-arda ilmələnən doqquz aylar "qız" doğur?!.. Görəsən, Qarabağın "abağının pambığı", ipliyi nədəndir ki, qələbə hissi bu qədər sozaldı, sonsuzladı?.. Bəlkə, bizdən sonra çomağı hisə verilmiş qara pambıqla, qarsımış ipliklə dolaqlandığı üçün Qarabağsız illərimiz qız doğur?

Tək bilinən odur ki, dovşan ili də, qoyun ili də üstümüzə oğlan xəbərlərlə gəlmir. Bəlkə son bir dəfə özümüz gedək - Əsgəran qalasının təpəsinə çıxıb bir abağ yandıraq. Pambığı, ipliyi hətta sapı - çomağı belə özümüzdən olan abağı. Özü də gecə gedək. Gecə gedək ki, onun burmalı tüstüsünü qaradonlu gözü görməsin. Nəfsi abağın ağaran tüstüsünü yandırmasın. Təkcə biz baxaq abağın qıvrım telli burmalı tüstüsünə... Sonra da yığışıb geri qayıdaq. Onsuz da doqquz aydan sonra Əsgəran qalası o tüstüdən üçrəngli bir oğlan doğacaq. Mən buna inanıram.

Sonra Qarabağın tarix boyu bizə uğursuzluq gətirmiş adını da dəyişərik. Kökündən yox, sadəcə "qara bağ"ı, "qar abağ" edərik. Uğrunda şəhidlər verdiyimiz, 25 il gözümüzə yol çəkdirib bəbəyimizə boz qətirən qara bağdansa, qar abağ daha uğurlu addır

deyə düşünürəm. Həm də bu, bütöv bir məmləkətin yeni bir çağının başlanğıcı olacaq məncə.

Qara (iri) bağın boynumuza çatı olmasından cana doyduğumuz bəsdir. Zaman qar abağın zamanıdır. Türkün kökünə, əski inanışına dönüşü ilə biz də Qarabağsızlığın şifrələrini çözəcəyik, eloğlular. Təki, abağımızın tüstüsü bizə biz istəyəni versin.

Doqquz aydan sonra sizə yenidən yazacağam, sayğılı qar abağlılar...

2009-2016 / Tiflis- Bakı



Taleh MANSUR
/QAZAX;
DGTYB Məclisinin üzvü/

BAHADIR VƏ SONA
(hekayə)

N.Nərimanovun "Bahadır və Sona" romanının yazılmasından 100+1 il sonra qələmə alınıb…

2014-cü il, iyul ayının 31-i idi. Günlərdi cəbhədə davam edən gərginlik son günlər açıq-aşkar müharibəyə çevrilmişdi. Havadakı barıt qoxusunu qızmar günəs belə əridib yox eləyə bilmirdi. İki gün öncə Naxçıvanla sərhəd bölgədən Noyemberyan rayonunun Berdavan kəndinə gələn nişançı Sona Akopyan mövqe seçib düşmən tərəfi müşahidə edirdi. Ara-sıra silah səsləri eşidilirdi. Qarşıda Eyibli qüzeyinin zirvəsinə kəmər kimi dolanmış Azərbaycan ordusunun mövqeləri görsənirdi. Bu gün nədənsə fikri dağınıq idi. Kimsəsizlər evində keçirdiyi günlər gəlirdi gözünün önünə. Ona kim olduğunu, hardan gəldiyini deyən olmamışdı. Yalnız yazıb-oxumaq öyrənəndən sonra kimsəsizlər evinin qarşısındakı "Mankatun" ("Kimsəsizlər evi") yazılmış lövhədən öyrənmişdi kimsəsiz olduğunu. 18 yaşına çatandan sonra İrəvan küçələrində keçirdiyi ağır günlər qız yaddaşını xəncər kimi doğramışdı. Bir qarnı ac, bir qarnı tox işlədiyi Samvelin kafesinin iyrənc qoxusu getməmişdi burnundan. Samvelin yekəqarın, harın müştərilərinin yatağında itirdiyi ismətinin izi belə qalmamışdı. Gündüzlər qul idi, gecələr fahişə. O, sevgini öyrənmədən sevişmək öyrənmişdi. İsmətli olmadan fahişə

olmuşdu. Od-alovun içinə daha çox bədbəxt olmamaq üçün gəlmişdi. Könüllü şəkildə "snayper kurslarına" yazılmışdı. Hərbi təhsilini bitirdikdən sonra cəbhəboyu bütün ərazilərdə barmağı tətikdə gözü nişangahda can alıb-can verirdi. Daha doğrusu bu yolla özünü təsəlli edirdi. Bəlkə bu təsəllini öz ölkəsi tanımasaydı, bunu düşmən tərəfdə də axtarardı.

Bu qarabuğdayı qızın gözəlliyi daim erməni dığalarının hədəfində olmuşdu. Ruhuna sevgi dəyməmişdi. Cisminə belə qısa sevgilərlə, daha doğrusu sevişmələrə toxunmuşdular. Bəlkə, buna görəydi ki, nişançı idi. Bütün qəzəbini snayperin nişangahına sığdıra bilirdi. O ömrünün son illərini nişan almaqda keçirmişdi. Taleyinin qatillərinin acığına, həmin qatillərin düşmənlərini öldürməklə məşğul idi.

Fikirdən ayrılanda atışma qızışmışdı. Güllə səsləri əsgər səslərinə qarışmışdı. Müharibədə güllə səsləri müharibənin musiqisi, əsgər səsləri onun sözləri olur. Bu mahnı neçə-neçə oğulları öz ağuşuna alıb uzaqlara aparmışdı. Baş gizir Bahadır Almazovun gur səsi güllə səslərini batırırdı. Onun qalın səsi az qala düşmən tərəfin müdafiə səddini dəlib keçirdi. Bu səsdən diksinən ölüm mələkləri küpəgirən qarılar kimi güllə üstündə əsgərlərin gah sağından, gah solundan, gah da bu səsdən yayınıb, ürəklərindən keçirdi. Hər iki tərəf itki vermişdi. Erməni tərəfdə bu daha çox idi. Sona Akopyan baş verənləri soyuqqanlılıqla müşahidə edirdi. Arada səkkiz yüz metr məsafə olmasına baxmayaraq o səs güllələrdən sıyrılıb Sonanın qulaqlarını sızırdı sanki. Həyəcanlanmışdı, ancaq ilk döyüş həyəcanı deyildi. Qorxmuşdu, amma ölüm qorxusu deyildi. Bu nəsə bir başqa hiss idi. Bir azdan bu "səs" bütün ruhuna yayıldı. Güllə

səslərini müharibəni unutdu, dərin bir yuxuya getmək istədi, ancaq o səs yenə səngər qarışıq ruhunu silkələdi. Səngərin dikdirindən ot qarışıq bir xışma torpaq töküldü çiyinlərinə. Axı onun durduğu yerə güllə və ya mərmi düşməmişdi? Sona gözlərini snayperin optik nişangahına dayadı, bu dəfə qalın səsli adamı lap aydın gördü. O səngərin nisbətən dayaz yerində durub, əsgərlərdən birinə bağıra-bağıra tapşırıq verirdi. Qəzəbi ona ölüm qorxusunu unutdurmuşdu. Onun qapqara saçları, qalın qaşları, enli kürəyi, qaranlıqda işıq saçan güllə kimi qaynar gözlərini lap aydın görünürdü. Bəlkə də onun dayandığı yer səngərin dərin yeri idi, amma səngər onun boy-buxunun yanında çuxur kimi görsənirdi. Sonanın bütün bədəni gərilmişdi. Həmişə atəş açmazdan öncə ayaq dırnaqlarının ucundan şəhadət barmağının ucuna kimi belə gərilər və bir göz qırpımında atəş açardı. Bu dəfə bütün bədəni gərilsədə, tətiyə dirədiyi şəhadət barmağı gərilmədi. Ona elə gəldi ki, barmağının ucundan qan axır. Axan qan onun ürəyinəcən gedib çıxırdı. Dişlərini qıcadı, bir daha cəhd elədi. Həmişə nifrətlə baxdığı nişangah indi ona niyəsə doğma görsənirdi. O heç vaxt qurbanlarının simasına nəzər yetirməzdi. Sadəcə nişan alacağı gözə, alına gicgaha suni hədəf kimi ötəri baxıb atəş açardı. Bu dəfə hər şey tərsinə olmuşdu. Ona tanış olmayan bir dünyaya düşmüşdü. Tanımadığı hisslər çulğalamışdı ruhunu. Həmişə qəzəblə dolan gözləri indi göz yaşlarının içində boğulurdu. Özünü, müharibəni, kimliyini, keçmişini, unutmuşdu. Qəribədir, bu unutqanlığından həm zövq alır, həm də əzab çəkirdi. Tanımadığı, bilmədiyi, ölümə qonaq edəcəyi birini sevməyə başlamışdı, deyəsən. Axı necə oldu ki, bu gen dünyada rast gəlmədiyi sevgiyə bu

od-alovun içində, daşqəlbli "Draqunov"un nişangahında rast gəldi? Anidən gələn ölüm kimi sevdi, ölüm kimi sirli müəmmalı. Baş barmağını nişangahın şüşəsinə toxundurdu. Gur səsli oğlanın gicgahına, gözlərinə, dodaqlarına "toxundu". Bir neçə dəqiqə beləcə qaldı...

Yox, o sevə bilməzdi, sevərək öldürə bilərdi, həm də indi - vaxt itirmədən. Nə yazıq ki, sevgiyə qərq olan ürəyi erməni qanıyla qidalanardı.

Şüursuz şəkildə yenidən gözünü nişangaha yaxınlaşdırdı. Bu dəfə gur səsli oğlanı bağıra-bağıra DŞK-dan atəş açan gördü. Yer-göy silkələnmişdi. Ermənilər başını qaldıra bilmirdi. İkinci postun əsgərlərindən ikisi can verirdi. Birinci, üçüncü, dördüncü postların hərəsində bir ölü vardı. Beşinci post isə digər postlar kimi susmuşdu.

Sona snayperin darağını çıxardı, lap üstə olan gülləni ovcuna alıb bərk-bərk sıxdı. Sevgi məktubu kimi bağrına basdı. İtmiş körpəsini tapan ana kimi gülləni acgözlüklə bərk-bərk öpdü. Sevgiyə bulaşmış nifrəti olmasaydı, bəlkə gülləni udardı, ancaq nə fayda? Dilindən pıçıltı ilə qeyri-ixtiyari :"Mənim düşmənim, mənim sevgim, mən sadəcə sənin gözlərindən öpmək istəyirəm. Dodaqlarım, nəfəsim sənə çatmır, bu sənin gözlərinə çatacaq..."- sözləri qopdu. Dodaqlarını gülləyə dayayıb bir anlıq durdu. Gözlərini yumub gülləni yerinə qoydu. Darağı taxıb, bir gözqırpımında atəş açdı. Güllə Bahadurun sağ gözündən "öpdü". Bahadır gövdəsi kəsilmiş xan çinar kimi yerə gəldi. Eyibli qüzeyi nərə çəkdi, silahlar diksinib səsini kəsdi. Bir anlıq dünyanın hər yerində müharibə dayandı. Gülüşlər dondu,mahnıların major notları minor notlarla əvəz edildi. Yer üzündəki bütün

qəbirlər, bütün insanlar, hətta bütün bətnlərin dölləri bir damcı göz yaşı axıtdı. Sona daha ağlamırdı, çünki ölmüşdü; ölən adamlar ağlamaz. Ölməyə nə var ki, zülüm dirigözlü ölməkdi. Sona "Draqunov"u şüursuz şəkildə yerə qoydu. Səngərin içində çökdü, səmaya baxdı. Havada uçan güllələr Tanrının qarşısını kəsmişdi. Tanrının insanlara göndərdiyi mərhəməti güllələr dəlmə-deşik eləmişdi. Bu zaman baş leytenant Gevorq Ohanyanın "Ux, çavettanem, axçık. Oy sireli, turkes" (Ux, qadan alım, qız. Oy, bədbəxt türk) -deyib şaqqanaq çəkməyindən diksindisə, nə dediyini dərk etmədi. Bayaqdan susan erməni postları indi dil açmışdı. Həm də təzəcə dil açmış uşaq kimi; yaxşı "danışa bilmirdilər" Sona Akopyan damarlarında axan erməni qanına, sinəsindəki ürəyə, gəzdirdiyi ruha daha çox nifrət edirdi indi. Ən böyük cinayətin insan və insanlığı öldürmək deyil, sevgini öldürmək olduğunu anlamışdı. O sevgini öldürmüşdü. Ətrafa boylandı, dünyanın hər yerinə baxdı. Ona bu dünyada biryaşamlıq bir qarış yer qalmamışdı. Bəlkə, o dünyada belə bir cəhənnəmlik yeri yoxuydu. Onu bu dünyada mühakimə etməyə kiminsə haqqı çatmırdı. Onu Tanrı mühakimə edə bilərdi, o da... Nə yaxsı ki, Tanrı taleyini iyirmi dörd il öncə yazıb qoymuşdu. O ölə bilərdi. Sona ağır-ağır ayağa durdu. Gülləni patron yatağına yeritdi. Silahın lüləyini ürəyinin üstünə qoydu, qundağı isə səngərin divarına dirədi. Belə rahat ölmək olardı. Sevincindən uşaq kimi ona tərəf qaçan Gevorq yerində donub qalmışdı. Nə baş verdiyini anlaya bilmirdi. Ətrafdakı erməni əsgərlər belə qeyri-ixtiyarı atəşi dayandırıb həyəcanla Sonanın nə edəcəyinə baxırdılar. Sonanın heç vaxt bağrına basa biləcəyi nə sevgilisi, nə bir doğması, nə də körpəsi

olmuşdu. Necə olmuşdusa, indi “Draqunovun” lülə-yini sevgilisi, doğma balası kimi sıxmışdı sinəsinə. Dəqiqliklə nişan almağa ehtiyac yox idi. İndi sinə-sindəki ürəyini vurmalı idi. Nə əlləri titrəyirdi, nə də bədəni. Bircə bayaqdan donub qalan iki damla göz yaşı titrəyirdi gözlərində. Deyəsən, yanaqlarından yıxılacaqlarını duymuşdular. Sona daha qadın ətri vermirdi. Ondan ölüm qoxusu gəlirdi; bütün insanla-rın bilmədiyi ölüm qoxusu. Düşüncəsi dilinə doğru bir neçə kəlmə söz ötürdü, bağıra-bağıra: “Hamınıza nifrət edirəm. Bu ölkədə mənim sizə olan nifrətimdən dahi bir şey yoxdu, dedi. Sonuncu kəlməsini ehtiraslı güllə səsi öpdü. Gevorqun “Verjacru axçik, inçes anum?” (Dayan, sən neynirsən, qız) sözləri dodaqla-rına yapışıb qaldı. Güllənin təsirindən əvvəlcə sən-gərin divarına dəydi, sonra üzüstə düşdü. Axan qan cadar-cadar olmuş torpağın arasına doldu. Torpaq qanı içmədi. Göllənmiş qan quruyub laxtalandı. Necə vardısa eləcə də qaldı .

Qan tökülən yer yenə də cadar-cadar idi.

Torpaq su istəyirdi...

Dos.dr. Təranə TURAN
/Təranə Yusif qızı Rəhimli;
ADPU-nun "Dünya ədəbiyyatı" kafedrasının dosenti,
DGTYB Təsisçilər Şurasının üzvü/

TOPXANADAKI SÜKUT
(hekayə)

Şəhər arxada qaldıqca atışma səsi də getdikcə uzaqlaşır, qəribə boğuq bir uğultuya dönürdü. Qadın meşənin dərinliklərinə doğru tələsir, orada sanki hər cür təhlükədən uzaq olacağına inanırdı. Köksünə bərk-bərk sıxdığı körpəsini düşmən gülləsindən qorumaq üçün var gücüylə qaçırdı. Meşənin sinəsinə doğru uzanan torpaq yol çoxdan başa çatmışdı. İndi hara gəldi qaçır, hər beş addımdan bir ağaclarla toqquşur, səmtini dəyişir, yenə də Topxananın yuxusu qaçmış sakinləri – ağaclar yolunu kəsirdi. Birdən elə yerə gəlib çatdı ki, meşənin bu qədər sıxlığında necə hərəkət edəcəyini bilmədi. Sanki bir anlıq düşünmək qabiliyyətini itirdi. Hər tərəf ağacdı. Alaqaranlıqda ağaclar səltənətinin arxasında sıx kolluq vardı. Kolluğa sarı addımladı. Topxana meşəsinə "qu" desən qulaq tutulan ağır bir sükut çökmüşdü. Addımlarının xəzəlləri xışıldadan səsi bu sükutda daha aydın eşidilirdi. Öz addımlarının səsindən hürkdü, bu səsin onu ələ verəcəyindən ehtiyatlandı. Dayandı. Ürkək-ürkək ətrafa göz gəzdirdi, yerində dövrə vurdu. Lakin gözlənilmədən arxadan, kolluqdan uzanan bir əl qolundan yapışdı, başqa bir əl ağzını qapayıb onu

kolluğun içinə dartdı. Qorxudan içində nəsə qırıldı. Ürəyi parça-parça olub ayağının altına düşdü sanki. Bu an körpəsini əlindən alacaqlarmış kimi özünə daha bərk sıxdı. Qəfil qulağında hiss etdiyi istilik doğma ana dilində pıçıldadı:

– Qorxma, bizimkilərdi. Sakit dur, ağzını açıram. Səsin çıxsa, hamını ələ verəcəksən.

Kobud, cadar-cadar kişi barmaqları yavaş-yavaş açıldı. Əlin var gücüylə sıxdığı ağzının kənarlarında keylik və ağrı hiss etdi. Ətrafında xeyli kişi, qadın və uşaq gördü. Qadınlar və uşaqlar kişilərə nisbətən çox idi. Amma deyəsən ən az yaşlı uşaq onunkuydu. Körpənin üzünə baxdı, gözləri işıldayırdı, ana isə onu yatmış bilirdi. Mat qaldı, oyaq ola-ola səsi belə çıxmamışdı. Həmişə yuxudan duranda ağlayardı. Sanki baş verənləri altı aylıq körpə də sövq-təbii hiss edirdi. Sakitcə baxır, hər zamankı vərdişini, oyanınca süd istəmək "fəryadını" yadırğamış kimi görünürdü.

Kolluqla əhatə olunmuş talada idilər. Kolluq o qədər sıxdı ki, sanki meşənin ortasında hörülmüş divar kimi onları yad gözdən qoruyurdu. Düşmən təqibdə idi. Az keçmədən erməni dilində sözlər gəldi qulaqlarına. Heç birini başa düşmədilər. Amma səslər çox qəzəbli, amansız idi.

– Axtarın! Uzağa gedə bilməzlər. Köpək uşağı, birinizi də sağ buraxmaram... – bu sözləri isə pozuq ləhcə ilə bizim dilimizdə dedilər.

Böyüklər səsi çıxmasın deyə uşaqların ağzını yummuşdular. Gənc qadın da qorxunun təsiriylə körpəsinin ağzını özü də bilmədən elə bərk qapamışdı ki, uşaq tez-tez başını bulayıb onu sıxan bu məngənədən xilas olmağa çalışırdı. Lakin əl getdikcə daha bərk sıxılırdı. Uşaq başını tərpətməkdən yorulub dinc

dayandı. İndi hər səs, hər hərəkət, duyulacaq nəfəs belə ölüm demək idi. Hamı nəfəsini içinə çəkib təhlükənin haçan sovuşacağını gözləyirdi. Kimi ayaq üstə, kimi yerdə oturulu vəziyyətdə donub qalmışdı. Kimsənin tükü belə tərpənmirdi. Arabir səslər kolluğa qədər gəlib dirəndi. Hamının ürəyi ağzına gəldi. Amma Allahdan ipləri üzülməyibmiş. Bir səs inandırıcı ahənglə burda kimsənin olmadığını dedi və onları meşənin başqa səmtinə baxmağa yönəltdi. Ölüm saçan səslər və addımlar uzaqlaşdı. Hamı nəfəsini dərdi. Uşaqlar ağızlarını qapayan dəmir barmaqların cəngindən qurtuldu. Lakin yenə də qorxudan kimsə danışmırdı.

Ətraf o qədər sakitlikdi ki, soyuq axşam küləyinin tərpətdiyi yarpaqların səsi apaydın eşidilirdi. Qadın hələ də körpənin ağzını bərk-bərk tutmuşdu. Uşağın gözləri yumulu idi. Ana körpənin bu gərginlikdəki rahat yuxusuna sevundi. Əlini onun ağzından çəkdi. Kişilərin əli yalın, silahsız olduqları üçün hirsindən qaraldığı, qadınların qorxu və çarəsizlikdən bütün vücudunun əsdiyi vaxtda yeganə yol səssiz, ehtiyatla irəliləmək idi. Sonra nə baş verəcəkdi? Dəstə yoluna davam edirdi. Meşənin qurtaracağında xilasedici helikopterin onları gözlədiyindən xəbərləri belə yoxdu. Artıq hava tam qaralmışdı. İrəliləmək nə qədər çətin olsa da qaraltıları sezmək mümkün idi. Ağlı kəsən uşaqlar qorxa-qorxa hərdən bir pıçıltıyla soruşurdular: – Çatmırıq? Sual isə hər dəfə havadan asılı qalır, ya da “Sus!” nidası ilə cavablanırdı. Çünki bu sualın cavabını kimsə bilmirdi.

Meşənin qurtaracağına çatdılar, bəlkə də ömrün sonuna, yaxud əksinə, təzə həyatın başlanğıcına, bunu da kimsə bilmirdi. Açıqlıqda, düzün ortasında heli-

kopteri görüncə, öncə duruxdular, sonra qapısında dayanan əsgərin doğma ana dilində kəlmələrinə, səsinə doğru qanadlandılar. Qaçmağa yox, hamı helikopterə sarı uçmağa başladı. Gənc ana sanki mələk qanadları taxdı, hamıdan tez helikopterə yetişdi. Əsgərlərin köməyilə kəndir nərdivanla qalxdı. Oturub yerini rahlayandan sonra körpənin üzünə baxdı, uşaq hələ də yatırdı, yol boyu heç oyanmamışdı deyəsən. Əliylə körpənin üzünü sığalladı: – Can bala, donmusan – dedi – Şükür, biz salamatıq, yazıq atan... – sözünün ardını gətirə bilmədi, əsir düşmüş ərinin aqibətini düşününcə göz yaşlarına boğuldu, ürək yandıran hönkürtüylə ağladı. Sonra uşağını oyatmaqdan ehtiyatlandığı üçün səsini içinə çəkdi. Amma uşaq daş kimi yatırdı. Nə helikopterin pərlərinin uğultulu səsi, nə də tələşla içəri doluşan adamların hay-küyü uşağı oyatmadı. Ana körpənin ağaran bənizini sanki indi gördü. O, nəfəs almırdı. Bədəni bərkiyib qıc olmuşdu. Heç bir əzası tərpənmirdi. Körpə keçinmişdi. Ana düşməndən qorumaq üçün sinəsinə sıxdığı, ermənilər duyuq düşməsinlər deyə səsi çıxmamaq üçün ağzını bərk-bərk qapadığı körpəsini bilmədən öz əliylə qətl etmişdi. Tələşdan, qorxudan körpənin burnunu da qapamış, o havasızlıqdan boğulmuşdu. Havaya qalxmaqda olan helikopterdən tükürpədici qışqırıq səsi gəldi. Bu səsdən Topxana meşəsinin sükutu diksindi.

Mənzil başına çatanda əsgərlər cəsədi basdırmaq üçün ananın qucağından zorla qoparıb aldılar. Dərdli qadının sanki dili tutulmuşdu. Nə ağlayır, nə də dinib-danışırdı.

O vaxtdan illər ötmüşdü. Qarabağ uğrundakı müharibə bitməsə də, qanlı döyüşlər atəşkəslə ara vermişdi. Cəbhə bölgəsində tez-tez atəşkəsi pozsalar

da, şəhidlər verməkdə davam etsək də, Bakıda sakitlikdi. Şəhərin küçələrində bir qadın hər gün səhər tezdən harasa tələsir. Sağ əli biləkdən kəsilmiş (deyilənə görə əli çörək zavodunda dəzgahın altında qalıbmış, amma təsadüfmü, qəsdmi, kimsə bilmirdi, bu, bir vaxt körpəsinin ağzını qapayan əl idi), qara saçları vaxtsız ağarmış, bütün görkəmindən qəm- kədər yağan dərdli bir qadın sübh çağı sükuta qərq olmuş küçələrlə pay-piyada yola çıxır. Axşamadək gah metroya tələsir, gah avtobus dalınca qaçır, axtardığı ünvana çata bilmir ki, bilmir. Axşam qaranlıq düşəndə kor-peşman evə – köçkünlərin sığındığı tələbə yataqxanasına dönür.

Ağlını itirdiyi üçün hamının halına acıdığı bu qadın hələ uzun illər, bəlkə də ömrünün sonunadək müharibənin əlindən aldığı sevgisi, doğmaları, yeganə ümidi və son pənahı olan körpəsi, gəncliyi, gözəlliyi, bəxtəvərliyi üçün hər gün beləcə yola çıxacaqdı. Hər gün gəzib-dolanıb yorulacaqdı, kor-peşman geri dönəcəkdi. Amma itirdiyi səadət geri dönməyəcəkdi. Çox uzaqlarda qalan Topxana meşəsinin dərin sükutu bəlkə əsrlərlə bu qadının ölən dünyasına yas saxlayacaqdı.

Tural İRFAN
/DGTYB Məsləhət Kurulunun üzvü,
AMEA-nın dissertantı/

QULAQ
(hekayə)

Gedirdi və gedə-gedə fkirləşirdi. Fikirləşdikcə şirin-acı düşüncələrin xoşluğu canına yayılırdı. "*Atam qocalır, anam xəstədir. Rusiyada çox veyilləndim. Otuz beş yaşa çatıram. Ailə qurmaq vacibdir... İndi də ki, müharibə. Deyəsən bu xəmir çox su aparacaq. Allah bilər... Hələ ki, vuruşuruq. İki ilə yaxındır başlamışıq türkləri hürkütməyə. Buradan yeddi kəndi aldıq. Alacağıq Dağlıq Qarabağı da. Rusiya lap Pyotrun dövründən bizim arxamızda durur. Fransada, Amerikada, lap bu İranın özündə, hər yerdə bizi müdafiə edənlər çoxdur. Çox yerdən kömək edirlər bizə. Sağ olsun dünyaya səpələnmiş qardaşlarımız, ziyalılarımız, varlılarımız. Xaricdəki lobbilərimiz çoxlu dost qazanıblar, tərəfdar toplayıblar. Aləmi inandıra bliblər ki, Dağlıq Qarabağ qədim erməni torpağıdır, Zori Balayan demişkən, hay ocaqlarından biridir. Dünyanın çox hissəsini inandıra bliblər ki, Azərbaycan türkləri bu torpağa çox sonralar, müsəlmanlığı qəbul edəndən sonra gəliblər. Azərbaycanın ərazisində olan xristian abidələrinə yiyələnməkdəyik. Köhnə-təzə, bütün tarixçilərimizə min rəhmət, albanların, türklərin nəyi varmışsa itirib-batırıb, məhv ediblər. Ən gərəklilərinə isə yiyə durmuşuq. Arakel müəllim demişkən, Matenadarandandakı əlyazmalarından tutmuş, muzeylərimizdəki saxsı parçalarınadək – çoxu Azərbaycan torpağından əldə*

olunub. Lap yaxşı da eləmişik, əlimizin içindən gəlib. Arakel müəllim deyərdi ki, əsl erməni mişar yox, kərki olmalıdır. Yəni mişar kimi dişinə gələni iki tərəfə verməli deyil, kərki kimi ağzından çıxanı özünə tərəf eləməlidir. Allaha şükür, bizimkilər, irəli çıxanlarımız, imkan tapanlarımız elə də olurlar. Əşi, bacarana baş qurban! İndi türklər sübut eləsinlər ki, ermənilər filan məsələni, filan şeyi düz demirlər, düz yazmırlar. Ay elədilər ha! Ölmüşdü Ambarsum... Öncə albanlara, sonra türklərə qarşı soyqırımı başlayan bizimkilər olub, fəqət türklərin ermənilərə qarşı soyqırımı barədə planetin hər yerinə car çəkən də bizimkilərdir.

Türkləri həmişə qabaqlayırıq. Onlar dayaz yer tapıb çırmanınca, biz çayı adlayırıq... Budur, Ermənistanda etnik təmizləmə başa çatmaq üzrədir, Dağlıq Qarabağda da həmçinin. Bəli, erməni yaşayan yerdə, ancaq erməni yaşamalıdır. Hayestan haylar üçündür, türklər, malakanlar, kürdlər üçün yox!

Arakel müəllim nələr danışırdı tarix dərslərində?! Bizim daimi düşmənimiz türklərdir. İndiki müharibə planımızda, Qarabağın azad edilməsi planında çox şey var. Keçən həftə gizli müşavirədə general deyib ki, balalarım, qabağınıza çıxanda, yaşayış məntəqələrini qoyub qaçmayanda, necə ki, Bağanıs Ayrımda etdiniz, sizə əsir düşəndə türklərə qarşı yalnız mümkün olan yox, könlünüz istəyən metod və vasitələrdən istifadə edin. Türklərdən gördüyünüz yaxşılıqları unudun, pislikləri iki qat artığı ilə gözünüzün qabağına gətirin, onda onlara ən layiqli cəza verə bilərsiniz...

Doğru deyib, lap ürəyimdən deyib general. Hə, o gün əsir türk gədəsini bizim uşaqlar öz qibləsinə bo-

ğazladılar, qanından içdik. Son yarım ayda üç cüt türk qulağı, iki türk başı gətirib uşaqlarımız. Gətirənlərə qapalı fonddan pul mükafatı veriblər, beş günlüyə evə buraxıblar. Budur indi mən də türk qulağı gətirməliyəm; amma qorxulu işdir. Ölümlə siçan-pişik oyunudur. Nə edim? Vaxtım da azdır. İki gün iki gecə keçib. Sabah saat on ikidə məni gözləyəcəklər ki, gətirdiyim türk qulağına doyunca baxsınlar, sonra mənə pul mükafatı versinlər, sonra oturub yeyib-içsinlər, sonra qulağı öncəkilər kimi Stepanakertə çatdırsınlar.

Görəsən, haraya göndərirlər türk qulağını, türk başını? – dəqiq bilən yoxdur. Bəziləri deyirlər, Yerevanda onun da uçotunu aparırlar. Bəziləri söyləyir ki, imkanlı və ahıl ermənilər nəmər verib alırlar. Bir parası da deyir, bununla biz cavanlarda türk ovlamağa, türk öldürməyə vərdiş yaradırlar. Nə bilim, vallah..."

Bir az nəfəs dərmək üçün dayandı. Oturdu. Ətrafa diqqət yetirdi, qulaq asdı. Sakitlik idi. Axşamdan olsa da, hava soyuyurdu. Qışdır axı. Yola düşəndə bir nəfəsə başına çəkdiyi yarım litr spirtin istisi hələ canında idi. Qalın geyinmişdi. Yaxşı ki, papiros çəkmirdi. Hələ xeyli yol vardı qəbiristanlığa. Dünən bu fikrə gəldiyi vaxtı xatırlayıb ayağa durdu və yoluna davam elədi. "Türk qulağı gətirmək üçün gərək türk kəndinə girəsən, ya da türk kəndinin yollarında pusquda durasan, ya da ki, əlbəyaxa döyüş ola... Bəlkə... Əşi, bunların heç biri mümkün olan deyil. Mən də ki, türk qulağı gətirməyə boyun olmuşam, daha doğrusu, boynuma qoyublar. Xüsusən batalyon komandiri lap bezdirmişdi məni, yarızarafat, yarıciddi hey deyirdi: "Simonyan türk qulağı gətirməsə, öz qulaqlarını verməli olacaq." Ay verdim ha! Ölmüşdü Am-

barsum... Başınızı elə piyləyim ki... Çox düşünüb, götür-qoy edib baş sındırsam da, yaxşı yol tapdım dünən... Bağanıs Ayrım soyqırımından sonra nə məkrli məqsədləsə faciədə iştirak edən şəxslərin yerlərini dəyişmişdilər. Bəzilərinə yüksək rütbə və vəzifə də vermişdilər. Bu yerdəyişmə bəlkə də, necə olsa, həmin şəxlərin qisasın – intiqamın qurbanına çevrilə biləcəkləri qorxusu və ehtiyyatı üzündən idi.

Simonyan Ambarsumu da belə olub yerini dəyişib Qarabağ istiqamətindəki hərbi hissəyə göndərmişdilər. Buranın komandirlərinə o, hələ isnişməmişdi. Bəziləri, onu elə bir qətliamın iştirakçısı kimi öyür, üstün tutur, tərifləyirdi. Bəziləri isə ona soyuq və ögey yanaşır, onu adi gözdə görürdülər.

...Simonyan hörmətini bir az da qaldırmaq üçün dünən uydurub tapdığı yolu belə düşünürdü: "*Hə, qulağı necə əldə etdiyimi onlara belə izah edəcəyəm: Köhnəqala kəndinin meşə yolunu kəsdim, daha doğrusu, gecə-gündüz nəzarətdə saxladım. Axır ki, dünən axşam Dar dərənin girəcəyində birini yaxaladım. Qaçmaq istədi. Avtomatı qaldırıb, dedim, qaçma, söz soruşacağam, yolu azmışam. Əllərini qaldırıb dayandı. Çatan kimi öncə ağzına əski tıxadım, sonra əllərini və ayaqlarını bağladım. Üzü üstə yerə uzatdım. Bıçağı çıxarıb sağ qulağını kəsdim. Budur...*"

Birdən ayağı çökəyə düşdü, yüngülcə burxuldu. Qorxdu. Sağ ayağı topuqdan ağrıyırdı. Dayandı. Özünü tarazladı. Çiynindəki rus avtomatını, cibindəki fransız bıçağını yoxladı. Ətrafa boylandı. Qəbristanlıq arxada qalmışdı. Qayıtdı. Elə gəldi ki, düz təzə qəbrin baş tərəfinə çıxdı. Balaca ağac xaçı və qəbrin üstündəki kağız əklili götürüb yana qoydu. Nazik qar vardı. Əllərini hovxurdu. Talvarın altından bel gətirdi.

Avtomatı çiynindən çıxarıb qırağa qoydu. Arxayın idi: erməni kəndinin sakinlərinə gecə bayıra çıxmamaq və işığı gizlətmək tapşırığı verilmişdi, türklər də ki, buralara gələ bilməzdi. Qazmağa başladı. Torpağı çıxardı. Köndələn taxtaları götürdü. *"Yazıq Kolya. Tabutun üstünü torpaqlayanın biri özüm idim. Köpəyoğlu türk snayperi düz alnından vurmuşdu. Bədbəxt Kolya, son sözü bu oldu: "Qarabağı alammadım". "Yerevanda, uşaq evində, daha doğrusu, yetimxanada böyümüşdü. Bir dəfə möhkəm keflənəndə söylədi ki, anam məni bic doğub, iki aylığımda yetimxanaya verib. Sonralar axtardım, tapa bilmədim, Dilicanda yaşayan xalamı tapdım, o da dedi, anan Kanadaya köçüb, orada da ölüb. Nə isə peşə məktəbində oxuyub çilingər oldum. Rus ordusundan qayıdan kimi Qarabağ uğrunda döyüşə atıldım. Qarabağımız ayrıca dövlət olandan sonra, evlənib buralı olacağam."*

Yazıq Kolya bir də deyirdi ki, "*ölsəm və meyidimi əldə edə bilsəniz, elə burada, Qarabağ torpağında dəfn edin məni.*" Biz də onun vəsiyyətinə əməl etdik, budur, buradaca torpağa tapşırmışıq. Uşaqlar taxta -tuxta tapıb tabut düzəltdilər; ən yaxın erməni qəbristanlığına çatdırdıq onu..."

Tabuta çatdı. Əlinə birtəhər yer eləyib qapağın baş tərəfini araladı və yavaş-yavaş qaldırdı. Təzə əsgər paltarında arxası üstə uzanmış döyüş yoldaşı Nikolay Vanyans sanki gülümsədi... Yox, qorxmadı. Bıçağı cibindən çıxarıb Kolyanın sağ qulağını dibdən kəsdi, cib yaylığına büküb, qoltuq cibinə qoydu. Tabutun qapağını yerinə yerləşdirdi, köndələn taxtaları dəlitərsinə tabutun üstünə düzdü. Torpaqladı. Ağac xaçı yerinə sancdı. Karton–kağız əklili torpaq qalağının

üstünə qoydu. Avtomatı çiyninə aşırdı. Beli talvarın altına qoydu. Hardasa xoruz banladı. Deməli, gecənin üçdə biri qalıb. Tələsmək lazımdır. Üç km. yol var... Dönüb qəbrə baxdı. Pıçıldadı: *"Bağışla!"*

Başının qısa tükləri qulaqlı papağı yuxarı qaldırdı. Uzun qara saqqalından əllərinin və ayaqlarının üstündəki xırdaca tüklərədək biz-biz oldu. Bədəni isindi, ürəyinin döyüntüsünü eşitməyə başladı. Kolya onun qabağında ayaq üstə durmuşdu: "Nəyi bağışlayım?!" Sağa döndü... Yenə qənşərində durub ona baxırdı Kolya: "nəyi bağışlayım, nəyi?!" Sola döndü, yenə həmin həngamə..! Arxaya çevrildi. Onunla lap burun -buruna, çənə-çənəyə dayanan Kolya yenə dilləndi: "Nəyi bağışlayım axı?!"

Sonra nə oldu, bilmədi... Simonyanı axtaran dəstə dörd gün sonra həmin qəbristanlığın böyründən keçirdi. Başçıları "uşaqlar, gəlin mərhum Kolyaya baş çəkib sonra gedək" dedi. Döndülər o tərəfə. Yaxınlaşanda gördülər ki, Şimonyan tirtap uzanıb qəbrin bir böyründə. Çoxdan keçinmişdi. Nədən öldüyünü bilmək üçün hər yerini axtardılar, yoxladılar. Yarası yox idi. Yalnız... qoltuq cibindən yaylığa bükülmüş bir qulaq çıxdı, elə bil yenicə kəsilmişdi...

Vəfa MÜRSƏLQIZI
/AYB-nin üzvü, Prezidentin Təqaüd Fondunun təqaüdçüsüdür.
Gənclər-İdman Nazirliyinin "Gəncliyin səsi" ödülünə layiq görülüb. Orta məktəbdə müəllimə işləyir./

ULDUZLU İNTİHAR
(hekayə)

Üzü göyə uzanmışdı. Başını nəm torpağa qoymuşdu. Ulduzlu səmaya baxırdı. Yadına coxdan eşitdiyi türk mahnısı düşdü:

Ulduzlar, ulduzlar, ulduzlar,
Ulduzlar altında yalnızlar.

Hə... o da yalqız idi, bu ulduzların altında yalqız. Kartof qızartmasının iyi gəldi burnuna. Onlar kartof qızardırdılar. Çoxdan idi kartof qızartması yemirdi.

Əllərinə baxdı. Əllərində və üzündə qan ləkələri vardı. Dünən gözləri önündə başını kəsdikləri oğlanın qanı idi. Üstünə sıçramışdı, alnına da sürtmüşdülər o qandan… "məzə üçün". Onu buraya qəsdən gətirib bağlamışdılar. Amma nədənsə bu mənzərə onu tərpətmədi, çünki bundan betər hadisələr görmüşdü…

Bir az aralıda oğlanın qanı göllənirdi. Ulduzlar qana yığışmış milçəyə bənzəyirdi. Bom-boş idi hər yan. Bu boşluqda arzuları pərən-pərən olmuşdu. Kəndlərində bir qız vardı. Bakıya getmişdi oxumağa. İkinci kursda bir şəhərli oğlana ərə getdi. O da oxumaq, şəhərli bir oğlana ərə getmək istəyirdi.

Səhərki erməni gədəsi düşdü yadına. Bu uşaq hər gün gəlib ona tamaşa edirdi. Vəhşi bir heyvana baxırmış kimi baxırdı ona. Sonra ədəbsiz hərəkətlər

edirdi, söyürdü, tüpürüdü. Bir dəfə başı bərk ağrıyırdı. Ağrıya dözə bilmədi, uşağa yalvardı ki, ona ağrıkəsici bir dərman gətirsin. Uşaq harasa qaçdı. Bir azdan əlində bir həb qayıtdı. Dərmanı dörd-beş hissəyə qırıdı. Öz dillərində başa saldı ki, ağzını göyə açıb atdığı dərman hissəciklərini tutmağa çalışsın. Ağrıya dözə bilmirdi. Uşağın dediyini elədi. Amma birini də tuta bilmədi. Sonra torpağın üzərinə dağılmış həb qırıqlarını ovucuna yığıb torpaqqarışıq ağzına qoydu.

Daşıya bilmirdi qandallarını… daşıya bilmirdi xatirələrini… Xatirələrinin hamısı iyrənc və qanlı idi... Ən gözəl və təmiz xatirəsi atasının ölümü idi. Sevinirdi – nə yaxşı atası əsir düşmədən ölmüşdü və bu günləri görməmişdi.

Burdan cıxsa necə yaşayardı? Ən qutsal şeylər iyrənc "xatirə"lərə bələnmişdi. –

Od-ocaq – Qardaşını ağaca bağlayıb yandırmışdılar. Yanıq ət qoxusu hələ də burnunda idi…

Çörək – Hər dəfə xəndəyin qırağında dayanan erməni kişiləri çörək tikələri atardılar ona… Öncə yeməzdi… namusunu, şərəfini tapdalamışların atdığı şörək parçalarını... amma yeyəcək başqa şey bulmayınca, torpağa bulaşmış o tikələri könülsüz- könülsüz yeyərdi. – Yeməzdi daha doğrusu, çörək onu yeyərdi sanki…

Hər gün bir boy ölürdü... Bir çörək tikəsi qədər ölürdü. Hardasa uzun-uzun danışıqlar gedirdi… Əllər sıxılır, görüşlər keçirilirdi.

Hardasa …qadınlar vardı dadlı-dadlı yeməkləri yeyib, uşaqlarını yatırıb sosial şəbəkələrdə sevgi şerləri paylaşırdılar. Düzdür, arabir müharibə haqda, onun kimilər haqda da nəsə yazırdılar… amma ona nə xeyri vardı? Qadınlar vardı "mənəvi boşluq"larını

doldurmaq üçün min oyundan cıxırdılar. Və bir də orda, uzaqlarda insanlar vardı, ölümdən qorxan insanlar. O isə qorxmurdu ölümdən. O ölümə minnətçi düşürdü. Hər gecə Tanrıya yalvarırdı ki, öldürsün onu… amma öldürən öldürmürdü...

İçində böyük bir istək vardı. Heç olmazsa bir ermənini oldurmək istəyi. O başı kəsilən oğlanın əllərinə və alnına bulaşmış qanını ancaq belə təmizləyə bilərdi. Ona xəndəyin başından çörək tikələri atan o yaramaz dığaların birinin qanı ilə!..

Axşam "mərasim" bitəndən sonra erməni əskəri onun əllərini qandallamağı unutmuşdu. Cox sərxoş idi. Turşumuş iyi gəlirdi oğlandan. Bu turşumuş iyi hər yerə hopmuşdu. Səma, ulduzlar, Ay… hər şey turşumuş iyi verirdi. O oğlan içki bankasını harasa buralara atmışdı. Tələsik o tərəf, bu tərəfə baxdı. Orda idi – yerdə. Sevindi, bu gecə həll edəcəkdi hər şeyi! Əllərindəki qan, alnındakı namus ləkəsini yuyacaqdı.

Bankanı tapıb götürdü; ayağının altına qoydu, sonra, daşa dönmüş kobud dabanı ilə döyəclədi, banka çatladı. Əlinə aldı, güclə ikiyə böldü. Barmaqları qan içində idi. Bankadan onu yenə də turşumuş iyi vurdu. Bu iy cox tanış idi. Bəzən onu da içirdirdilər. "Məzə üçün" güclə ağzına içki tökürdülər. Belə anlarda düşünürdü ki, Tanrı yoxdur. Yox, var idi Tanrı! – sadəcə buradakı yaratılıqlar Tanrıyı danmış, danızıdırmışdılar..! Belə iyrənc yerlərdə Tanrının nə işi vardı?..

Əllərini qoşalayıb qarnına qoydu. İki aylıq erməni küçüyü daşıyırdı bətnində. Ona da onu qidalandıran bədəninə də nifrət edirdi. Bir azdan ədaləti bərpa edəcəkdi..!

Bankanin ülgüc kimi iti kənarını biləyinə çəkdi. Şiddətli ağrı hiss etdi. Sonra ağrı səngidi. Başını halsız-halsız nəm torpağa qoydu. Qan damlalarını saymağa başladı. Bir, iki, üç, ... Uşaq vaxtı yata bilməyəndə belə edərdi. Yüzə kimi sayardı. Nəhayət içindəki düşmən, günah onunla birgə damla-damla ölməyə başladı. Yoxsa bu uşaq da böyüyüb bir gün xəndəyin qırağından kiməsə dörd-beş yerə böldüyü dərman hissəcikləri ya da çörək tikələri atacaqdı.

Yarıqapalı gözlərində sevinc vardı, aylardan bəri hiss etdiyi ilk sevinc. Biləyindən axan qan əllərindəki qanı və alnındakı namus ləkəsini yuyurdu deyəsən. Sabah bu əclafların hamısı biləckdi ki, o bir erməni öldürdü, canı bahasına olasa da...

Dan yeri qızarırdı, Günəş ağır-ağır çıxırdı – sanki… bu dəfə yalnız onun “qalibiyyəti”ni aşkar etməkçün...



Afaq ŞIXLI
/MOKSVA, RF;
Şair, publisist, tərcüməçi, həkim,
Rusiya Yazıçılar Birliyinin üzvü, AYB-nin Moskva bölməsinin məsul katibi,
"Nicat" Azərbaycan irsinin dirçəlişi Cəmiyyətinin təsisçisidir./

HARDASA BİR KƏND VAR İDİ...
(hekayə)

...Həyət adi həyət idi: çox da böyük olmayan ev, meyvə ağacları, güllər və Suqra ananın hər dəfə yeni bir adla çağırdığı hovuz. Bu hovuz neçə il idi ki, evin ağbirçəyinə görə, su üzü görmürdü. Onun yanında nə çimmək olardı, nə də ki, özünü günə vermək. Vərdişli sərçələr, qaranquşlar hərdənbir su içmək üçün aşağıdan uçur, nahaqdan endiklərini gördükdə isə üzüyuxarı qanad çalırdılar.

Evin qarşısındakı yaşıllıqda bitən ağ yasəmən kolunun üstü bal arıları ilə dolu idi. Suqra ananı zaman-zaman maraqlandıran məsələlərdən biri də, bu arıların harada yuva qurması və onun bağının çiçəklərindən çəkilmiş şirənin kimin həyətində bala çevrilməsi idi. Niyə zaman-zaman? Yaddaşı itmişdi Suqra ananın. Dünyanın hər əzabını görmüş bu nurani qarı soruşduqlarının cavabını bir neçə dəqiqədən sonra unudur və eyni sualları yenə də verirdi. Onu narahat edən ən vacib məsələ, yerinə yetməyəcək arzusu, heç unutmadığı sualı isə "Kəndə nə vaxt gedəcəyik?" olurdu. Bu sualın qarşısında hamı aciz qalır, cavab tapa bilmir, gəlinlərin gözü dolur, kişilərin boğazı qəhərlənirdi. Çünki Suqra ananın get-

mək istədiyi kəndin sadəcə adı qalmışdı yaddaşlarda. Özü isə...

Kənddən ötrü qəribsəməsin deyə, övladları ona həyət evi almışdılar. Dediyi hər şeyi yerinə yetirir, bir sözünü iki eləmirdilər. Amma nə fayda! Başına gələn müsibətlərdən, çəkdiyi iztirablardan yaddaşını itirmişdi Suqra ana, vəziyyəti getdikcə daha da pisləşirdi. Oğul-uşağın adını qarışdırır, gah oğlanlarını torpaq uğrunda həlak olmuş qardaşları ilə səhv salır, "qardaş" deyə fərəhlə boylarını oxşayır, gah da özünü hələ gənc, ərə getməmiş bir qız sanır, atası evindən ötrü darıxdığını, ora həftələrdir ki, gedə bilmədiyini söyləyirdi.

Vaxtilə kəndin toyunda, yasında başbilənlik edən, bişmişin üstündə duran, gəlinə-qıza ana məsləhətləri verən, kənddə demək olar ki, bütün gənclərin, uşaqların təvəllüdünü əzbər bilən bir insanın, indi belə çarəsiz vəziyyətə düşməsi övladlarının ürəyini göynədirdi. Amma bir yandan da düşünürdülər ki, bəlkə də o, yaşadığı dəhşətləri, itirdiyi əzizlərini xatırlamasa yaxşıdır. Bəlkə də, olub-keçənlər, onu bu əzablı xatirələrdən qorumaq üçün silinib yaddaşından.

Beləcə, dünyadan bixəbər olan Suqra ana hər gün eyvandakı qoltuqlu kürsüdən ətrafa göz gəzdirir, eşiyin havasından, güldən-çiçəkdən həzz alır, çay-çörək hazırlayanlara, ona qulluq edənlərə ürək dolusu alqış edir və... səbrsizliklə kəndə gedəcəyi zamanı gözləyirdi...

***

Buzovnada sərin mehli sabah açılmışdı. Otlar şehə bürünmüşdü. Nəm torpağın ətri havaya bir başqa

təravət verirdi. Hələ ki, nə quşlar, nə arılar, nə də ki, zəhlə tökən milçəklər gözə dəyirdi.

Suqra ana, köhnə vərdişi ilə, səhərin gözü açılmamışdan yerindən qalxmış, əl-üzünü yuyub eyvana çıxmışdı. Hər zaman yanında olan, yıxılıb eləməsin deyə qarabaqara ardınca gəzən Kəklik də yanında idi. Əzizi, böyüyü, ona ana əvəzi olan yeganə bacısı bu günə düşəli, Kəklik özünə yer tapa bilmirdi. İşi-gücü zorla yeriyən Suqraya göz-qulaq olmaq (axı iki dəfə yıxılıb qıçını sındırmışdı), ona qulluq etmək idi. Bu işi heç kimə, hətta bütün günü başına fırfıra kimi dolanan gəlinlərə belə, etibar etmirdi. Bir yana baxanda o da gənc deyildi, bacısından toplam altı yaş kiçik idi, lakin indiki vəziyyətdə, əlbəttə ki, ondan çox gümrah və cəld görünürdü. Öz ailəsi olmamışdı heç zaman, varı-yoxu qardaşları və tək bacısı idi. Ömrünü-gününü onların yanında keçirmiş, qardaşları həlak olandan sonra isə bütün meylini bacısına salmışdı. Ümid yeri də, güman yeri də Suqra idi. Onun da halı belə olandan bəri, əli yerdən-göydən üzülmüşdü Kəkliyin. Kimsə görməyəndə, bir küncə çəkilib xısın-xısın ağlayır, sonra yaylığının ucu ilə gözlərini silib üzünü göyə tuturdu; nə dediyini, nə istədiyini bir özü, bir də Allah bilirdi. Amma bu dualardan sonra köksünə sanki yeni nəfəs, gözünə işıq gəlirdi.

- Kəndə nə vaxt gedəcəyik?

Məhəccərə söykənən yarıyuxulu Kəklik diksindi.

- Evin tikilsin, sabahın gözü yenicə açılıb. Getmək vaxtıdımı? Sakit ol, qoy evin adamı yatsın.

- Nə yatmaq? Mal-heyvan örüşə gedəsidi, it bağlanasıdı.

- Mal-heyvan yoxdu qapıda, rahat ol. Çay istəyirsənmi?

- Hanı bəs inəklər? İki ağ inəyim var idi, yoxsa gecə gəlib ermənilər apardı?

- **...**

Suqra ana iki əlini dizinə çırpdı:

- Vay ciyəriniz yansın! Bunlar nə binamus adamlardı, ay Allah! Niyə qırılmır bunlar?!

- Ay bacı, bura Bakıdı, ey, Bakının kəndidi. Buzovna. Yenəmi yadından çıxdı?

- Nə danışırsan? Ay qız, ata evindən 3-4 aydı çıxmışıq, bəs qardaşlarımız nə deyəcək? İkimizi də əməlli-başlı danlayacaqlar, bax budu sənə deyirəm!

Suqra ana bikefləyib susdu...

Eşikdə qonşunun xoruzu banladı. Qadın ətrafa baxıb üzünü Kəkliyə tutdu:

- Qadan alım, o kimin xoruzuydu banlayan?

- Nə bilim, ay bacı..? Qonşunun...

- Abdal Şəminin?

- Şəmi nə gəzir, evin tikilsin? Bakıdı bura, Bakı! Ey..., ay Suqra, sən bu günə düşəsi arvad deyildin! Allaha fəda olum!

Kəklik doluxsundu. Bunu hiss edən Suqra ana:

- Deyəsən sarsaqlayıram ha? Neçə ki, təmiz xarablamamışam Allah başımı yerdə gizlətsin! – dedi və yenə bikeflədi. Üzünün qırışları birə beş artdı. Elə bil ki, on il daha qocaldı. Donunun ətəyini düzəldə-düzəldə dodağının altında nəsə danışmağa başladı...

Onların səsinə oyanan ev adamları bir-bir eşiyə çıxdılar. Kiçik oğlu Fərid gəlib anasının əlindən, üzündən öpdü. Qarşısında çöməlib körpə uşaq kimi başını onun dizinə qoydu.

- Sabahın xeyir, ana!

- Hər vaxtın xeyir, qadan alım. Niyə belə gec durdun? Gün günorta oldu.

- Hələ saat yeddi də deyil, anam mənim. Sən tez dururs an.

- Sabahın havası dərmandı, ay qardaş. Sən də tez dur, bir həyət-bacada gəz. Bax, bayaq saymışam, düz iyirmi səkkiz dənə şam ağacımız var. Elə də gözəldilər ki!

Birdən gözü həyətin ortasında qaralan hovuza sataşdı. Əliylə Kəkliyi itələdi.

- Bir o yana dur görüm! O nədi, ay qardaş, nə çaladı o?

- Çala deyil, ana, hovuzumuzdu.

- Onu neynirsən elə?

- Çimmək üçün idi, ay ana.

Suqra ana narazılıqla başını buladı:

- Torpaqla o çalanın içini. Uşaq-böyük qaranlıqda görməz, yıxılar, qolunu-qıçını sındırar.

Fərid gülümsündü. Anası hovuza gah çala, gah çuxur, gah xəndək, lap hövsələsiz vaxtında isə - kalafa deyirdi. Evdəkilərin də onun təkrarlanan sualına verdikləri cavab, adamından asılı olaraq, müxtəlif olurdu. Fərid həmişə düzünü deyirdi ki, çimmək üçündü. Gəlinlər və Kəklik deyirdilər ki, həyəti suvarmağa lazımdı. Nəvələri isə onunla zarafat edirdilər: “Özün istəmisən də, ay nənə, demisən ki, belə bir çuxur qazın, biz də qazmışıq”. Suqra da mat qalır, nədən ötrü qazdırdığının səbəbini fikirləşib tapa bilmirdi. Kəkliyinsə ürəyi dözmür, uşaqlara acıqlanır, “Nənəylə məzələnməyin, dələduzlar”, - deyirdi.

- Bəs kəndə nə vaxt gedəcəyik, ay qardaş? - Suqra yazıq-yazıq Fəridin üzünə baxdı. - Ev-eşik yiyəsiz qaldı axı! Bağ-bağat yandı getdi yəqin susuzluqdan...

Qəhərlənən Fərid bir söz deməyib ayağa durdu. Anasının ağ saçlarını tumarlayıb başından öpdü. Suqra ana arxadan səsləndi:

- "Ver-veş"imi toplayasıyam, qadan alım, mənə bir az qabaqcadan xəbər eləyərsən. Hə, qardaş, bir də bizim uşaqları görsən, de ki, ay insafsızlar, Bəybura Beyrəyin yolunu gözləyən kimi, Suqra gözləri yolda sizi gözləyir!

Bu kəlmələrə hamı tutuldu... Araya sakitlik çökdü...

Saniyələr sanki gün kimi keçirdi bu dərdli ana üçün, amma bir az sonra yaddaşı yenilənir, hər şey olduğu yerdən – onun 25-26 yaşlarındakı dövrdən başlayırdı...

***

Günortanın günəşi yandırıb yaxırdı. Hamı sərinlənmək üçün evdə oturmuşdu, yatan yatmış, yatmayan da öz otağına çəkilmişdi.

Kəkliyin yuxuya getməsindən istifadə edən Suqra ana özünü eşiyə saldı ki, təklikdə həyəti doyunca gəzib dolansın, amma çəliyinin taqqıltısı onu ələ verdi. Hövlnak gözünü açan Kəklik, bacısını yanında görməyincə, yaşına uyğun olmayan cəldliklə yerindən sıçradı.

- Məni yuxuya verib getməyi də təzə başlayıbsan deyəsən, hə? Demirsənmi yıxılarsan?

- Guya sən məndən səriştəlisən? – Suqra ana hikkələndi. – Camaata mən ağıl verirəm, indi məni öyrədənə bax bir. Görəcək günlərim varmış!

- Yaxşı da, ay bacı, bir söz dedim, yüz cavab eşitdim.

- Yersiz danışanda elə olasıdı!

Birdən əlini gözünün üstünə qoyub harasa zillədi:

- O nə çuxurdu elə, orada? Onu niyə qazıblar?

- İçinə su doldurub həyəti suvaracaqlar.

Kəklik sözü uzatmamaq üçün yalan danışsa da, bu dəfə əksinə oldu.

- Həyəti sulamaq üçün o boyda çuxuru niyə qazıblar? Əmælləri azıb vallah. Başqa şey fikirləşə bilmirdilər? Camaatın çuxuru yoxdu, həyəti sulanmır?

- Nə bilim indi, qazıblar da...

- Qardaşıma deyəcəm, onu torpaqlasın. Adam bilməz, içinə düşər. Bunların hoqqasına bax!

Kəklik dediyinə peşman olub sözü dəyişmək istədi:

- Ağaclara bax, ay bacı, gör nə gözəl böyüyüblər.

Doğrudan da, çuxur məsələsi Suqranın yadından çıxdı, gözləri güldü.

- Hə. Qoy görüm neçə dənədirlər... bir, iki, üç..., ...iyirmi səkkiz. Düz iyirmi səkkiz dənədir. Necə də qəşəngdirlər!

Qəfildən Suqra ananın yadına nə düşdüsə, ayaqlarına baxdı, o yan bu yana boylandı və başını buladı:

- Ay başın batsın, Tanya! Yenə gəlib məndən xəbərsiz ayağımın qabını geyinib gedib. İndi gəl bunu tap görüm, hardan tapacaqsan.

- Tanya kimdi, qadan alım?

- Yuxarı məhlədən Serojun arvadı yoxdumu? Günü budu... Darvazamızı açıq görən kimi gəlir, əlinə nə keçsə geyinir gedir. Sonra da boynuna qoya bilmirəm.

Kəkliyin gülməyi də tutdu, ürəyi də ağrıdı. Bacısı yenə də xəyallanıb kəndə, əvvəlki günlərə qayıtmışdı...

Suqra heç bu qədər nasaz olmamışdı, axır vaxtlar vəziyyəti lap pis idi. Kəkliyin ürəyinə bəd gümanlar gəlir, sonra qorxub pis fikirləri özündən uzaqlaş-dırırdı. Hərdən ona elə gəlirdi ki, bu da Allahın işidir: bacısının yaddaşı bu günə düşməsəydi, kəndin adını gündə yüz dəfə çəkməsəydi, kim bilir, bəlkə də hər şey zamanla unudulub gedərdi...

Kəklik yenə əllərini göyə tutdu: "Ey Suca Seyidin cəddi! Səni and verirəm Allahın birliyinə, mənim bacımın dərdinə əlac elə! Yazıqdı. Ondan başqa heç kimim yoxdu. El-aləmin gözündə kiçiltmə onu. O elə qadın deyildi, özün ki tanıyırdın... Allah sənə rəhmət eləsin! Cəddinə qurban olum! Bacıma kömək elə!"

***

...Suca Seyid – kəndin çox sayğın adamlarından biri idi. Adı Sücaəddin olsa da, hamı ona Suca Seyid deyirdi. Ağır cəddi vardı.

Həddən artıq mehriban və xeyirxah insan olan Suca Seyid kənd məktəbində tarix müəllimi idi. Onun atası da, babası da mötəbər insanlar olmuşdular. Əllərində hikmət vardı: yanlarına gedən xəstələr şəfa, dərdi olanlar səfa tapardılar. Kənd camaatı arasında onların cəddinin möcüzəsinə inanmayan yox idi.

Suca Seyidlə bağlı bir əhvalat isə, insanların yadından heç vaxt çıxmırdı...

...Yaz vaxtı, Suca Seyid, bir neçə müəllim yoldaşı ilə birgə, oturub çay içirmiş. Kəndin ucqarındakı erməni məhəlləsində yaşayan Akop adlı bir pinəçi də burada oturubmuş. Yemək zamanı bir-iki qədəh araq vurduqdan sonra Akop ayağa durub Suca Seyidə yaxınlaşır və onunla hənək etməyə başlayır. Seyid ağır adam olduğundan kefli ermənininin sözlərinə

məhəl qoymur. Camaat nə qədər nəsihət verirsə də, Akop yenə gəvəzəliyindən əl çəkmir. Xeyli səbr etdikdən sonra, Suca Seyid ayağa durur və hər kəsin gözü qarşısında ermənin qulağına nəsə deyib gedir. Erməni yerindəcə donub qalır, sonra başını aşağı salıb oradan uzaqlaşır.

Sabahı gün kəndə xəbər yayılır ki, Akop dəli olub, əllərini yerə qoyub it kimi hürür. Millət yığılıb ona baxmağa gedir və gələnlər Akopun həqiqətən də it kimi dörd pəncəsinin üstündə durub hürdüyünü söyləyir. Ondan kim nə soruşurmuşsa, adam kimi danışa bilməyib, gah ulayır, gah da zingildəyirmiş. Hətta hirslənib onun-bunun üstünə də atılırmış. Bu məsələdən xəbər tutan kənd ağsaqqalları onun Suca Seyidin qəzəbinə düçar olduğunu söyləyirlər. Bir neçə gün davam edən bu hadisədən sonra Akopun bütün qohum-əqrəbası yığışıb Seyidin qapısına minnətə gəlir, yalvarıb-yaxarırlar ki, onu bağışlasın və dərdinə əlac eləsin. Bu qədər insanın sözünü yerə salmaq istəməyən Suca Seyid durub eşiyə çıxır. Həyətdə hürə-hürə o yan bu yana dolaşan Akopa yaxınlaşır. Kəmərini belindən açaraq üç dəfə yerə çırpır. Bir saniyə keçməmiş namussuz Akop silkinib ayağa qalxır. Suca Seyidə yaxınlaşaraq onun ayaqlarına döşənir. İlk dediyi sözlər – ondan üzr istəyib tövbə etməsi olur.

Suca Seyid də ata-babası kimi erkən yaşlarda rəhmətə getmişdi. Ürəyi zəif idi, müharibənin dəhşətlərinə dözməyib bir sabah namaz üstdəcə keçinmişdi. Lakin onunla bağlı möcüzələrin şahidi olan adamlar, bunları hər yerdə danışır, Seyidlərin ruhuna rəhmət, (onlara) belə qüdrəti verən Allaha şükür oxuyurdular.

Kəklik hərdən düşünürdü ki, niyə Seyidlərin cəddi erməni cəlladlarına qənim olmadı? Niyə qırıb- batırmadı onları? Niyə müqəddəs ruhları narahat edən bu kafirləri birdəfəlik yer üzündən silmədi, itə-qurda döndərmədi? O gözəllikdə kəndləri, ev-eşikləri, bağ-bağatları, uşaqlı-qocalı günahsız adamları məhv eləməyə imkan verdi?! Sonra da fikirləşirdi ki, seyidlərin cəddi neyləsin axı, millətimizin öz günahıdır bu. Deyirlər: "qurdla yoldaş olan, çomağını yerə qoymaz". Ermənilər əsrlər boyu xalqımızın başına oyunlar açmışdılar, amma biz yenə də onlarla mehriban qonşuluq edir, övladlarımıza kirvə tutur, ocağımızın başında oturdurduq. Belə namərdlərə inananın başına hər zülüm gələr! Onların gözünü bir dəfə yaxşıca qorxutmaq lazım idi ki, bir də üstümüzə ayaq ala bilməyəydilər.

Kəklik xatırlayırdı ki, kənddə qonşu həyətdə iri bir it vardı. Bu it dadanmışdı – hərdən toyuq damına girib ən gözəgəlimli toyuqlardan ikisini-üçünü boğurdu. Neçə dəfə qonşuya şikayət etmişdilərsə də, faydası olmamışdı. "Nə bilirsiniz ki, hinə girən mənim itimdi? Lap da mənimkidi. İndi sizə görə, itimi öldürəsi deyiləm ha!" – deyərək, etinasızlıq göstərmişdi.

Bir gün, Suqra yenə də hindən boğulub murdar olmuş iki toyuq tapıb, dodaqaltı deyinə-deyinə, tullamağa aparırdı. Bunu görən Qadir kişi onları arvadının əlindən alıb qonşu həyətə keçmiş və bu toyuqlarla həmin iti o ki var döymüşdü. O gündən sonra, toyuqlar itin belində yatsalar da, lap qabağından yeməyini aparsalar da, qorxusundan başını çevirib onlara sarı belə baxmırdı.

Bax, ermənilər də əzəl gündən beləcə cəzalandırsaydıq, ağızları nəydi ki, bizdən torpaq istəyəy-

dilər, xalqı qırıb-çataydılar, kəndlərimizi, şəhərlərimizi talayaydılar?! – deyə düşünürdü Kəklik.

Heyif! Kənd də bir kənd idi! Gözəl, axarlı-baxarlı... Bir tərəfdə ucu-bucağı görünməyən, hər ağacı bar gətirən bağlar, digər tərəfdə isə, suyu dumduru gur-gur axan arx... Suyu da buz kimi soyuq idi. Ayağını suya salanda, adamın dişi-dişinə dəyirdi. Lakin kənd adamları onun soyuqluğuna da, itiliyinə də alışmışdılar.

Suqra uşaq vaxtı bu arxa düşmüş, kəndin o başınadək axıb getmişdi. Az qala öləcəkdi, yaxşı ki, qonşulardan görən olmuş və uşağı sudan çıxarmışdılar. O zamandan camaat onu zarafatla "Sara" deyə çağırır, gənc oğlanlar isə hər görəndə "Apardı sellər Saranı..." oxuyurdular. 18-19 yaşlarında olarkən, gənc və məğrur Qadir (Suqranın gələcək həyat yoldaşı) belə mahnı oxuyanlardan birinə yaxşıca qulaqburması vermiş, elə o gündən də Suqranın qəlbində özünə yer eləmişdi. Bir il sonra evlənmişdilər. Hətta dörd uşaq anası olan zaman da, o, Qadirin gözündə yeganə gözəl qadın olaraq qalırdı: sarışın, buruq saçlı, hündür nazik bədənli, dərrəkalı, hər işin öhtəsindən gələcək qədər bacarıqlı... Gözəl yaşamışdılar, oğul evləndirib qız köçürmüşdülər. Amma bunlar hamısı davayadək olmuşdu...

Ermənilərin yenicə baş qaldıran vaxtları idi. Kənddən çox adam cəld tərpənib Bakıdan və başqa şəhərlərdən özlərinə ev almış, bəziləri hətta daşınmışdılar.

Qadir kişi, onun yüz igidə dəyən cəsur qardaşı - Həsrət, eləcə də ermənidən qorxmağı özünə ar bilən bir çox qonşular isə nə harasa köçmək, nə də kimdənsə qaçmaq fikrində idilər. Lazım olacağına inan-

masalar da, hər ehtimala qarşı, evlərindəki beşaçılanlarını təmizləyib hazır qoymuşdular. “Hər şey yoluna düşəcək, yuxarılar bu vəziyyəti sakitləşdirəcək” - deyirdilər. Lakin... Bir gün həyətlərində hay-haray qopmuşdu. Evin adamları eşiyə tökülmüş, gördükləri mənzərədən dəhşətə gəlmişdilər. Ermənilər axşamüstü dağın ətəyində mal-qaranı otlaqdan qaytaran Həsrəti tutub başını kəsmiş, kəllərdən birinin buynuzuna taxmışdılar. Bədbəxt heyvan başından qan süzülə-süzülə həyətə gəlmişdi. O gün Suqranın saçları yerindəcə ağappaq ağarmışdı.

Həsrətin üçünü təzəcə vermişdilər. Qadir kişinin qardaşları, kəndin bir dəstə adamı ilə birgə, mərhumun bədənini düşməndən almaq üçün ermənilər tərəfə danışıqlara getmiş, yolda minaya düşüb parçatikə olmuşdular.

Daha bir neçə gün sonra isə açıq-aşkar müharibə başlamışdı. Gecə yarısı kəndə silahlı hücum olmuş, qırılan-qırılmış, sağ qalan qaçıb canını güclə qurtarmışdı. Qadir kişi, özünün, qardaşlarının və bir neçə qonşu ailəni yük maşınında mühasirədən çıxardarkən, ağır güllə yarası almış, lakin sükanı buraxmayaraq adamları xilas edə bilmişdi. Suqranın qucağında can verərkən “balalarım sənə əmanət” deyərək gözlərini yummuşdu. Evsiz-eşiksiz qalan ana, qohum-əqrəbanın köməkliyilə dərdə-acıya birtəhər sinə gərməyə çalışmış, yaşamış, min-bir çətinliklə uşaqlarını böyütmüşdü.

***

...Suqranın nəfəsi güclə gedib-gəlirdi. Rəngi avazımışdı. Xırıldayırdı.

- Ay bala, ay uşaq, bizim Kəkliyi görən oldumu?

Suqranın səsinə oyanan Kəklik yuxulu-yuxulu əlini üzünə çəkdi:

- Bismillah, bəs mən kiməm, ay bacı?

Suqra zəif səslə aram-aram danışırdı:

- Qadan alım, bizim kişi gəlmişdimi məni xəbər almağa?.. Bəs adam gəlib deməzmi ki, evin nökəri ölmüş harda qaldı?.. Adam adamı xəbər alar da, atı, dəvəni xəbər almaz ki! Heç darvazadan içəri keçməyəydi, eləcə eşikdən xəbər alaydı... Bir yana baxanda, elə mənim kimi arvada haqq edir. Getdiyim yerdə çul kimi düşüb qalmışam. Demirəm, ev-eşik necə oldu, bu yazıq kişi harda qaldı... Sabah bir arabadan-zaddan tutaq, gedək yurdumuza-yuvamıza.

Kəklik deməyə söz də tapmadı, doluxsunub başını buladı. Suqra neçə ildən bəri ilk dəfəydi ki, həyat yoldaşından danışırdı. Yaddaşından silinmiş adlar, insanlar qırıq səhnələrlə xatirinda canlanırdı...

- Buralarda yer-yurd varmı gecəni yatmağa? Barxanamız hardadı? Bəlkə elə Qadir gəlməmiş, özümüz piyadaca varaq gedək evə?

- Bura Bakıdı, ay Suqra! Hara gedirik, evin tikilsin? Kəndimizmi var daha? Od tutdu yandı kənd, qırıldı-batdı millət! Bir az özünə gəl, ay bədbəxtin qızı!

Suqranın gözlərində yaş gilələndi. Kəkliyin matıqutu qurudu. Yuxusu tamam dağıldı. Bacısının halının yaxşı olmadığının indi fərqinə vardı. O, hələ bu vaxta kimi Suqranı ağlayan görməmişdi. Həsrətin kəsik başını görəndə də, qayınlarının meyidi gələndə də, ev-eşiyi dağılıb gedəndə də, hətta sevimli əri gözlərinin qarşısında ələndə də ağlamamışdı. Bəlkə də neçə ildə, elə hər dərdi ürəyinə saldığı üçün, ağlayıb sızlamadığı üçün bu günlərə qalmışdı.

Kəklik: “Məni ölüm elə, ürəyimə daman başıma gəldi” - deyərək, tələsik əyin-başını geyinib özünü bayıra atdı və oğul-uşağı səslədi.

...Suqra sakitcə ağlayır, qırıq-qırıq kəlmələrlə danışırdı:

- Ay Allah... Suca Seyid gəlib... deyir, kənddə yaman istidir. Yer-yurd alışıb yanır...

O danışdıqca qadınlar saçlarını yolub özlərinə divan edirdilər. Suqra sayıqlayırdı:

- Cəddinə qurban olduğum deyir ki, yaylağa gedənlər daha qayıtmayacaqlar kəndə... Torpaq yanır, deyir... Ayaq basmaq olmur...

Oğlanları analarının qırış-qırış olmuş titrək əllərini öpür, çarəsizlikdən özlərinə yer tapmırdılar.

Evin ağbirçəyi, təngiyən nəfəsilə, indi də öz-özünə ağı deyirdi:

Səksəni, doxsanı keçibdir yaşım...
Əzrayıl - həmdəmim, məzar - yoldaşım...
Goruma titrəyir bəlalı başım,
İndi çağırıram, gəl, qoca baxtım!..

Suqra yaşlı gözlərini, hələ də doğmalaşa bilmədiyi bu evin divarlarında gəzdirir, dilsiz baxışlarla, adlarını unutduğu, amma hər zaman məhəbbətlə oxşayıb əzizlədiyi balaları, nəvələri, gəlinləri ilə sağollaşırdı...

Onun ətrafına yığılan böyüklü-kiçikli hər kəs ağlayırdı. Yerlə-yeksan olmuş torpaqların bəxtsiz analarından daha biri öz bəlalı ömrünün son dəqiqələrini yaşayırdı...

Moskva

Yusif NAZİM ƏRƏBSOY
/Yusif Ağaəhməd oğlu Məmmədov**;**
Şamaxının Ərəbqədim kəndində doğulub.
BSUnun "Yaradıcılıq" fakültəsinin dinləyicisi olub.
"Şou dünya" və "Cənab Şair" adlı kitabları
gün üzü görüb.
DGTYB-nin üzvüdür./

BAYRAQ

Varsansa,
demək, məmləkətim var!
Yaşa, bayraq!
Sancıl Şuşada torpağa, bayraq,
daşa, bayraq..!
Əllərdə, könüllərdə və
dillərdə qərar tut,
Olsun bu vətən torpağı
başdan-başa bayraq!..

XƏZƏRİN GÖZ YAŞLARI

Bakıda havalar tutulub bu gün,
Dolan boylu buludlar səfərə hazırlaşır...
Xəzərin suyunu Qarabağa aparır...
Qarabağın yanğısını söndürmək üçün..!

SƏRÇƏ SEVGİSİ

Alma ağacı var bizim həyətdə,
bir quş var, onunla dostluq eyləyir.
Yaman tənha quşdu, yalqız dolanır,
dərdini, sirrini ona söyləyir.

İndi yamyaşıldı, çiçək də açıb,
bəlkə də, gələn qış yanar budağı…
Tab etməz o quşun ağırlığına,
deyirsən, indicə sınar budağı.

O quşun dərdi var oxuyur belə,
bir dinsiz yuvasın uçurdub, yıxıb.
Ağacdan yıxılıb ölüb balası,
o gündən dərdini bağrına sıxıb...

Bizim bağçamızda elə bil tapıb,
bu dərd onun sanki itən dərdidir…
Kim bilir bu quşun dərdinin adı,
bəlkə bala dərdi, vətən dərdidir?!

Gözləri məsumdu sərçəciyəzin,
bir az cəsarətli, bir az utancaq…
Qəlbi kövrək olan susub dinləyər,
qəlbidaşlar ona daş atar ancaq…

Mənə umud olma sən bu Vətəni,
gözümdən düşəcək gözüm üstəsə.
Vətəni o sərçə məndən çox sevir,
uçur Qarabağa
haçan istəsə..!

Nazilə GÜLTAC
/Qərbi Azərbaycanın KARVANSARA elində doğulub.
Azərbaycan Tibb Universitetini bitirib.
"Yaşıl pıçıltı" ədəbi məclisinin başçısı,
4 kitab müəllifidir./

QARABAĞIM

Deyib gülmək vaxtı deyil,
Qarabağım matəmdədir.
Və hər gün
özünü
Şuşa qalasından atıb
intihar edir
Xanqızının ruhu...
Üzeyir
"Arşın mal"ı boxçasında çürüyür,
Gülçöhrə, Asya Qarabağsız qocalır...
Atlar yəhər-yüyənsiz...
Cıdır düzünü qanqal basıb,
tək övladları deyil,
İsa bulağı, Xan bağı, Xarı-bülbülü
Şəhiddi Qarabağın..!
Qarabağın çölləri də şəhiddi..!
"Şuşanın dağları başı dumanlı"
ahları ilan tək boynuma sarılı...
Dağların – başından,
bulaqların – gözündən
çiçəklərin – ləçəyindən,
Mənsə... ürəyimdən şəhidinəm,
Qarabağım.

Qulu AĞSƏS

/AĞDAMda doğulub.
"Ulduz" jurnalının baş redaktorudur.
2015-ci ildə
"Əməkdar jurnalist" fəxri adına layiq görülüb./

***

Özün dağ başına qoyan şəhərin
ayağını Xan kəndi yuyurdu
kürəyinin təri
Cıdırda soyuyurdu.
Girməzdi
dumanına gün işığı,
havasına çay qaşığı...
Qayaları sərxoş idi
adamları tay-tuş idi,
küçələri tay-keş idi...
Qəbirüstü yazıları
nəğmə kimi oxunurdu;
kolda-kosda tələf olan
qurd-quşu gül qoxuyurdu.
Kim idi qalxan o boyda dağı? –
yağışdan sallanıb enirdi qonağı.
...Dağın dizləri əsdi bir may səhəri
gözünün yaşı
ayağının suyuna qarışdı şəhərin...

Sabir YUSİFOĞLU
/1998-ci ildən AYB-nin üzvüdür.
İndiyədək üç şeir kitabı gün üzü görüb.
Azərbaycan Respublikası Prezidentinin
28.10.2000-ci il tarixli
Sərəncamıyla prezidentin fərdi təqaüdünə
layiq görülüb.
Sumqayıtda yaşayır./

QARABAĞ...

Əllərim ovcumdan çıxıb,
qaçır Qarabağa tərəf.
bapbalaca nəvəmin də
ovcu -
“qucu” Qarabağa tərəf.

Bu səs yurdun qərib səsi,
özüm üçün qəribsədim...
Bir “Qarabağ şikəstəsi”
uçur Qarabağa tərəf...

Saatlar, günlər çıxılır,
ayaqlar yolda yıxılır.
Ürəyim tez-tez sıxılır,
əlini dilənçi kimi
açır Qarabağa tərəf...

VƏTƏNİN XATİRƏ ŞƏKLİ

Qulu Ağsəsə

Sol tərəfim tutulubdu,
sağ tərəfim sağlam deyil.
Dərdi azdırmaq istədim,
gördüm, yox, e...
avam deyil!

Nə qədər "bu var, o yoxdu",
alt-üstü oyuğ-oyuğdu.
Burda mənə çox soyuğdu, -
bəlkə yurdum-yuvam deyil?!

Yığışdır bu dərdi götür,
yolun o üzünə ötür,
səkkizinci notu gətir,-
bu da mənim havam deyil.

Bilmirsiz, nə vaxt çəkilib
Vətənin xatirə şəkli?
dağları boynu bükülü, -
oğlu mənəm...
ANAM deyil?!

Emin PİRİ
/DGTYB-nin üzvü,
Mədəniyyət-Turizm Nazirliyi və
AYB-nin birgə layihəsi olan
"Gənc Ədiblər Məktəbi"nin məsul katibidir./

ŞƏHİD OĞLUNUN DEDİKLƏRİ

Darıxır
anamın cehizlik ütüsü
Atamın biçənək ətirli
pal-paltarıyçün...
Ütüyə gəlmir ancaq
heç birisi!..

Atamdan qalanlar
"sandıq vətəndaşı"
illərdir qırışmır...
Anamın əlləri qırışıb ancaq,
ütümüz də qocalıb...

Atamın pal-paltarı
cəzasını çəkir
sandıq küncündə
dərsə hazırlıqsız bir şagird kimi...

Gözləyirəm...
iki ilə,
üç ilə ...
bəlkə nə vaxtsa...
boyum çata atama.
Geyəm paltarlarını.

yıxam özümü yerdən-yerə,
sürünəm asfalt üstdə,
bəlkə bir az qırış qatam
bəlkə bir az çirkləndirəm
sevindirəm anamın əllərini,
sevindirəm ütümüzü...

...Anamı heç elə görməmişdim
Atamı gətirəndə
sıxmışdı əllərini...
camaat görməsəydi
yumruqlardı atamı:
“bu iki yetimə bəs, kim baxacaq?!”

...Sonralar
üzümə baxıb,
saçıma əl gəzdirdi
və...
“şəhidlər ölməz” dedi...

Yayın gözü açılan kimi
anam yorğan-döşək
çırpır həyətdə.
Gözündə sevgi,
qolunda nifrət.
Çırpır
ürəyinin çırpıntısını,
çırpır atamın yoxluğunu.

...Atamın izini,
dizini döyür anam.
Sonra nəsə fikirləşib
gözünü döyür anam...

Elməddin NİCAT

/KƏLBƏCƏRin Zəylik kəndində doğulub. Orta məktəbin V sinfinədək Zəylikdə, sonra... məcburi köçkün məntəqələrində oxuyub. Gəncə Dövlət Universitetinin məzunudur. 2015-ci ildə Azərbaycan Prezidentinin Təqaüd Fondunun təqaüdünə layiq görülüb. DGTYB-nin üzvüdür./

***

Boz ayın bozarmış havasından qaçıb qaldığım
yataqxana dəhlizinə doluşmuş sərçələrə...

Bu köçkün evinin buz dəhlizində,
Yemmi axtarırsız a boz sərçələr.
Nədən danışırsız öz dilinizdə
Mənə də anladın bir az, sərçələr.

Tez uçun, tez uçun başımın üstən
Ulduzu sayrışmaz gecə kimiyəm.
Evim yuvanızdan deyil ki, isti,
Görmürsüz üşümüş sərçə kimiyəm..?

Qaçmayın, bir ovuc dən atacağam
Doğma yuvanızda aparıb yeyin.
Deyəsən bu yaz da yas tutacağam
Getsəniz, yuvama salamlar deyin...

Fərqanə MEHDİ
/"Ulduz" jurnalında Poeziya şöbəsinin redaktorudur.
2009-ci ildə Azərbaycan Prezidentinin Təqaüd Fondunun
təqaüdünə layiq görülüb./

UŞAQ BAĞÇASINDAN GƏLİN KÖÇƏN QIZ

Gözümdən yayınmır yol çəkən gözün,
Dərdini içində açıb-bükürsən.
Keçir xəyalından uşaqlıq çağın,
Şükür böyümüsən, gəlin köçürsən.

Daha taleyindən küsmür aşıqlar,
Gözlə, istəyini ha çalar indi.
Qaçıb qabağını kəsmir uşaqlar,
Bağçadan boylanır qocalar indi.

Tale yaddaşına salsın izini,
Baxıb ağ donuna saralsın payız.
Maşınlar daşımır cer-cehizini,
Uşaq bağçasından gəlin köçən qız.

Neyləyək, yurd-yuvan gəlin olmadı,
Payız yarpağı tək tökülləm, bacım.
Toyuna gəlmişəm, toyun mübarək,
Sən gəlin köçürsən, mən ölləm, bacım.

İlham QƏHRƏMAN

/LAÇINın Sus kəndində doğulub.
AYB-nin üzvüdür. İndiyədək 4 şeir kitabı Azərbaycanda,
1 şeir kitabı isə İranda ("Əsir dağlar", Tehran, 2009)
gün üzü görüb.
"Laçın folkloru" (2009), "Laçın lətifələri" (2014) və
Sarı Aşığın irsindən ibarət
"Gül dəftəri" (2011) kitablarını da İ.Qəhrəman toplayıb,
tərtib edib./

LAÇINDA QALAN QARDAŞIM

Mənim bir tut qardaşım varıdı,
Laçında qaldı.
Boyu – necə deyərlər –
Şahə qalxan dəniz.
Ah,
Bizi bir yerdə görsəydiniz
dəyişik salardınız.
Bir az cığal, bir az dağal idi, -
Mən onu silkələyəndə
yuxarıdan
qoynuma tut atar,
köynəyimi qara boyayardı.
Yaman da cüvəllağıydı –
Qızlara "bığ-saqqal" qoyardı.
...qardaş deyib xatırlasam
Ürək qovrular qubardan.
Heyif, şəkli yoxdu,
yoxsa böyüdüb asardım
evimin yalın divarından…

İltimas SƏMİMİ
/İltimas İltifat oğlu Səmiyev**;**
1987-ci ildə LERİK rayonunda doğulub
DGTYB-nin üzvü,
BSU Yaradıcılıq fakültəsinin məzunudur./

QARABAĞ
(silsilədən bir parça)

...Torpağım ah çəkdi, daşım ağladı,
Vətənin halına ağladım mən də.
Üstündə buludlar matəm saxladı,
Dönüb, adam kimi ağladı çən də...

Yalnız gözlər deyil, ağladı ürək,
ağladı uşaq da, qoca da fəqət,
Kəlbəcər
ər yurdu, ərən ocağı,
ah, niyə bitmədi bu qəm, bu həsrət..?

Qarabağ söylədi, Qarabağ..! ürək,
hər köçən son anda "Vətən!" deyəcək..!
neçəki yurdsuzdu
düşünən insan,
açılan sabaha sevinməyəcək…

...Açılan sabaha sevinməyəcək,
ən gözəl günləri keçmişdə qalmış…
Hər sabah çevrilib qəmah olursa,
yurdsuzluq insanı nə kökə salmış.?!

Doğma yurd yerindən didərgin, qardaş,
“İnsan da vətənsiz, insan olarmı?”
Ağladı aranım, ağladı dağım,
bir də o torpağa gün doğularmı?

Qarabağ! sükutum çəkməz çox uzun,
keçər bu qarlı qış, əriyər buzun.
Bizim ər oğullar hünər göstərər,
parlayar yenidən sönən ulduzun!

Məlahət YUSİFQIZI
/QARAMURADLI;
GƏDƏBƏYdə doğulub.
ADU-nun (indiki BDU) Kitabxanaçılıq fakültəsini bitirib. AYB-nin üzvüdür.
Abşeron rayon MKS-nin direktoru vəzifəsində çalışır./

DƏYİŞƏRMİŞ

Yurd da dəyişərmiş, görənəklər də,
Yurd yeri göz dağı olarmış, demə!
Qurduğun binələr, bürclər, qalalar
Hiyləyə-kələyə qalarmış, demə!..

Bir addım geriyə çəkilməsəm mən,
Bir addım irəli gələ bilməzsən.
Dünən qədəmimə əyilən düşmən
Dünyanı başına alarmış, demə!

Dərd döşünə döyür, yıxmışam, deyə,
Yıxıb, başı üstə çıxmışam, deyə.
Varım özəlləşib, yoxmuşam, deyə,
Yaddaşımda yoxluq ularmış, demə!

Vaxt gəlib, yetişir. Gedərəm, ölüb,
Ölməmiş yetişə, istəyim gəlib…
Bir daş parçasını Kəlbəcər bilib,
Əllərim daş-qaya "yalarmış", demə!

Yurd yeri olarmış hər dağ, hər qaya,
Yetmir düşüncələr haraya, haya...
Təkcə onlar enib bulağa, çaya,
Çaylağa, çuxura dolarmış, demə..!

Ruslan DOST ƏLİ
/1993-cü ildə BƏRDƏ rayon Xanərəb kəndində doğulub.
DGTYB-nin üzvüdür.
Qazaxıstanın Türküstan şəhərindəki Əhməd Yəsəvi ad. Uluslararası Türk-Qazax Universitetində oxuyur.
Azərbaycan Prezidentinin Təqaüd Fondunun təqaüdçüsüdür./

MƏNİM ŞEİRLƏRİM QARABAĞLIDIR

Daha sözlərimdə ləzzət gəzməyin,
daha sözlərimin tamı da yoxdu.
İndi dadlı yemək hər evdə bişmir,
indi dadlı söz də hamıda yoxdu...

Nə gəzir gül ətri, çiçək qoxusu,
özün bil, istərsən oxuma daha...
Sözdən dəstə tutur baxma çoxusu,
bir ləçək də girmir yuxuma daha.

Sözləri nəzərə, gözə tez gəlir,
Qəlb döyüntüsünü duyan kəslərin...
Sizin ağlınıza təzə söz gəlir,
mənim qulağıma güllə səsləri...

O... “iyirmi faiz” nə boydadırsa,
Bu xalqın o boyda davası çatmır..!
Biz dağa qaçırıq hava almağa,
Şuşada dağların havası çatmır..!

Əli çənəsində qalan şairə
yurdunun tənəsi, gileyi gəlsin..!
Torpağı işğalda olan şairin
gərək sözlərindən qan iyi gəlsin!..

İndi təbim belə xoşuma gəlməz,
indi misralarım belə, zəlildi...
Mənim şeirlərim yeriyə bilməz,
hamısı “ikinci qrup əlil”di...

Tək adam adamla yaşıd olmurmuş,
eyni yaşdakılar gör nə qədərdi;
Ay mən yaşdakılar, bir dövrdənik,
bizimlə yaşıtdı Xocalı dərdi...

Daralan ürəyin darvazasına
hələ də əl boyda qara bağlıdı...
Oxucum, bilmirəm, sən haralısan,
mənim şeirlərim Qarabağlıdı!..

Orxan BEHBUD
/1990-cı ildə FÜZULİ rayonunun Yağlıvənd kəndində doğulub.
Bakalavr təhsilini ADNA-da (indiki ADNSU), magistr təhsilini isə Azərbaycan Dövlət İqtisad Universitetində alıb./

AY ŞUŞAM

Mən sənsiz heç kiməm, gəzən ölüyəm,
Nə olsun ürəyim atır, ay Şuşam.
Bəlkə də ögeyəm, onunçün sənə,
Bu gün tək xəyalım çatır, ay Şuşam...

Həsrət var çölündə-düzündə sənin,
Məntək darıxırsan özün də, sənin...
Qoyma səs salsınlar üstündə sənin,
Altında Natəvan yatır, ay Şuşam.

Bizim dərdimizdən dərdsiz nə anlar,
Niyə əlçatmazdı bizim olanlar?!.
Cıdır düzümüzdə bitən tikanlar,
Mənim ürəyimə batır, ay Şuşam...

Afət VİLƏŞSOY
/Afət Yusubəli qızı Abuşova**;**
1985-ci ildə MASALLIda doğulub.
İndiyədək altı kitabı gün üzü görüb.
2011-ci ildə Azərbaycan Prezidentinin
Təqaüd Fondunun təqaüdünə layiq görülüb./

CƏBHƏLƏRDƏ!

Səngərəm – Vətənin birinci adı..!
Saçsın zəfər adlı gün cəbhələrdə!..
Anayam – qurbanı baladan olan,
Əsgərəm, şəhidəm ön cəbhələrdə..!

Atəşkəs istəmir bu Vətən oğlu,
Ən isti muraddır qan... cəbhələrdə!..
Susdurub kəsəndə yad səsimizi,
Qılınc saxlamasın qın... cəbhələrdə..!

Türkəm – iman yeri qaladan olan,
Yağını qanına bələdən olan!
Anayam – qurbanı baladan olan,
Əsgərəm, şəhidəm ön cəbhələrdə!

2016

Vüsal OĞUZ
/ƏLFİYEV;
OĞUZ rayonunda doğulub.
DGTYB-nin üzvüdür.
Orta məktəbdə tarix müəllimi işləyir./

QARABAĞ

Bu nə dövran, nə zamandı, desənə,
zəbt ediblər solu, sağı, Qarabağ..?
Gör kimlərə yuva qurdun qoynunda,
kimlər olub sənə yağı, Qarabağ..?

Beyinlər fikirli, ürəklər xəstə,
gözlər yolda qalıb, qulaqlar səsdə;
Oxuya bilmirik "Ssegah", "Şikəstə",
olmusan dillərdə ağı, Qarabağ.

Hər günün-gündüzün toy-busat idi,
qoynunda hər saat xoş həyat idi;
Səslə bu milləti, gəl, oyat indi,
salaq yada ötən çağı, Qarabağ.

Tək qalıb darıxıb xarı-bülbülün,
əsirdir dağ-dərən, çəmənin, çölün;
Oldun bu millətin, oldun bu elin,
sinəyə çəkilən dağı, Qarabağ.

Cahana bəllidir şanın, şöhrətin,
de, nəynən ölçülər qədrin-qiymətin..?
Az qalıbdır, lap tezliklə millətin,
azad edər bu torpağı, Qarabağ!

Zamiq ZƏRDABİ
/Zamiq Maarif oğlu Abdullayev**;**
ZƏRDAB şəhərində doğulub.
BDU-nun Tarix fakultəsini bitirib.
Hazırda vəkil kimi fəaliyyət göstərir.
Mətbuatda ardıcıl olaraq hekayə və
şeirləri ilə çıxış edir./

XOCALIYLA SÖHBƏTİM

Qara geyimli şəhərim
Yalqızlığın acısı,
çoxmu üzüb qəlbini,
yoxmu yarın, yoldaşın,
yoxmu bircə sirdaşın,
bölüşəsən dərdini.
Həm də...
Kimə deyəsən axı
Nə Şuşa var, nə Laçın,
Nə Kəlbəcər...
Ehh... Kim qalıb ki? –
İnsanları dərbədər,
Özləri ondan betər...
Kimlə dərdləşəsən ki?
Hərənin öz dərdi var...

Qara geyimli şəhərim,
Niyə qəddin bükülüb?
Niyə belə durmusan,
Dərdlərinmi ağırdı?
Niyə boynun burmusan,

ağlamağınmı gəlir,
yaralı şəhərim?
Niyə danışmırsan,
niyə susmusan?
Ana əvəzi bilib,
Uğuruna sevinib,
dərdinə qəmləndiyin
Bakıdanmı küsmüsən?

... Qurban olum, elə baxma...
Körpə övladlarının,
hamilə gəlinlərin,
qanı var gözlərində.
Qan iyi gəlir üst-başından,
danışma...
Boğularam qan dolu sözlərində.
Çıxarma səsini, qurban olum,
tankların nəriltisi var,
avtomatların şaqqıltısı,
vəhşilərin hayqırtısı
var səsində.
Fəryad səsləri var,
imdad səsləri var,
səsində...
Meşələrdə donub qalan
qoca nənələrin
naləsi var;
Qoca babaların
iniltili nərəsi var
səsində...
Ürəyimə axar o səs,
qulaqlarımı batırar,

Ürəyimi dayandırar o səslər,
Çıxarma səsini...
Mən sənə
“Qaranı çıxar,
Al-qırmızı geyin,
Üzündə gülüş yarat,
Bir az təbəssüm oyat,
Biz yenə gələcəyik,
Görüşəcəyik,
Qovacağıq namərdləri
isti qoynundan”
deməyə gəlmişdim.
Amma geri qayıdıram,
Sözlərim ürəyimdə,
Kəlmələrim dilimdə,
Yarımçıq qaldı bu söhbət.
İnanmırsan gələcəyimizə,
Düşünürsən ki,
Hardadı bizdə qeyrət...
Amma yox,
Gələcəyik biz
Qara paltarlı şəhər..!
Öpəcəyik üz-gözündən
O qara donunu
cırıb, çıxaracağıq
əynindən;
təzə paltar da biçmişik sənə,
üç rəngli...

Ülvi BÜNYADZADƏ
/Ülvi Yusif oğlu Bünyadzadə

23.09.1969, GÖYÇƏ - 20.01.1990, BAKI...

Azərbaycan Milli Azadlıq Hərəkatının fəal iştirakçılarından olub. 1990-cı ilin 20 yanvar hadisəsində şəhid olub; Bakıdakı Şəhidlər Xiyabanında dəfn olunub. Onun yaradıcılığına 200-dən çox şeir, "Ömür yolu" poeması, "Qansızlar" povesti, eləcə də 40-a yaxın hekayə, 5 pyes, dünya ədəbiyyatından 20-yə qədər çeviri, 7 məqalə daxildir. Vaxtı ilə təhsil aldığı ADU-da Xatirə muzeyi fəaliyyət göstərir./

"ÖMÜR YOLU" POEMASINDAN
BİR PARÇA

Üçüncü Ruh

Aman qardaş,
doğrudurmu deyirlər,
Gecə-gündüz
qan tökülür yurdumda.
Qarabağın tarixini danırlar,
Məscid uçur,
dam sökülür yurdumda.
Qarabağdı mənim dinim –imanım,
O torpağın
nişanəsi,
iziyəm.
Məni belə
aciz görmə qəbirdə,
Qəbirdə də
Qarabağın özüyəm.

***

…Dedilər ki,
Vətən səni çağırır.
Yola düşdüm,
Vətən adı şirindir.
Nə biləydim,
mənə şirin olan tək,
Əfqana da
öz büsatı şirindir.
Sonra bildim
Amma…

daha gec idi.
Xəyanətin bildim qulu olmuşam.
“Böyüklər” də dillənmədi gedəndə.
Mən də bir az
dəli-dolu olmuşam.
Aman, qardaş,
Qədirə de, oxusun.
Alışıram,
“Sona bülbül” dedikcə.
Mən də ona göndərəcəm ərmağan,
Qəbrim üstə
“Xarı bülbül” bitdikcə.
Sevincimiz
başdan aşıb-daşırdı.
Doğrudan da
igid oğlan imiş o.
Yerimizi
görən hardan bilmişdi.
“Topxana”da
xoş günlərim keçibdi.

Danış görüm,
"Cıdır düzü" dururmu?
"Qarabağın bülbülləri" yenə də
Arif kimi zəngulələr vururmu?
Vətən deyib bura gələn oğullar,
İndi, deyir vətənində sayılmır?!
Deyirlər ki,
bizimkilər hələ də
yuxudadı.
Ayılmır ki, ayılmır.
Bu millətin
gözlərinin yaşını,

Görən niyə
birdəfəlik silmirlər.
"Namus" deyən daşnaklar,
öz dilində
"Namus" yaza bilmirlər.
Qarabağa
məndən "salam" deyərsən,
Yad eyləsin
qoy ruhumu bir gözəl.
Əlvida, qardaşım,
sənə yaxşı yol!
Bir də gəlsən
xoş xəbərlə qayıt
gəl.

QARABAĞIN HARAYI

Mən görə bilmədim,
ancaq deyirlər,
Sizin hamınızı
gördük ekranda.
Biriniz harasa
tələsik qaçır,
Deyirlər, tanıdıq
vurulan anda.
Əfqan cavanları
yaxın dost bilib,
Bəlkə də
onlara deyibsən
dayan!
Axı əsgərliyə təzə
gedibsən.
Bilmirdin nə imiş -
qırğın,
ölüm,
qan
Mən özüm görmədim
sən vurulanda,
Bilmədim
sonuncu sözün
nə olub.
Amma bilirəm ki,
qarmon çalanda,
həmişə deyərdin:
"ürəyim dolub".
Bilmirəm heç nəylə boşaldım onu,
Bilmirəm, nə olacaq ömrümün sonu.
Hələ ki, bir yana çıxa bilmirəm,

“Dərdlə güləşirəm, yıxa bilmirəm”.
Elə müəmmalı sözlər deyərdin,
Sonra da başını yerə əyərdin.
Mən özüm görmədim sən vurulanda.
Bilmədim sonuncu sözün nə olub.
Amma bilirəm ki, dərin yaranda
Əzabın qanınla birgə yoğrulub.
Deməli, bu imiş tale oyunu.
Sevinc də kədər də can möhnətidi.
Hansı filosofsa deyibdi bunu
“Ölüm insanların son heyrətidi”.

***

Gözlərində donub qalmış,
Son heyrətin qaldı sənin.
Məsləkinə, düz andına –
Sədaqətin qaldı sənin.
Gözəllərlə alqışlanan,
Taleyinlə qarqışlanan,
Qərənfillə naxışlanan,
Gül ziynətin qaldı sənin.
Bənövşəni qoxladığın,
Dəstə-dəstə bağladığın,
Ürəyində saxladığın,
Əmanətin qaldı sənin.

***

“Al, çax, fələk,
Silahını al, çax, fələk.
Namərdə meydan verdin,
Namərddən alçax, fələk”.

Krasnoyarsk,
Kansk, 1989

Nizami AYDIN

/Nizami Arif oğlu Salmanov;
06.03.1961, GƏNCƏ –
15.06.1992, Sırxavənd-AĞDƏRƏ;

Qarabağın müdafiəsi uğrunda döyüşərkən, "Tərlan" adı verdiyi tankında yanıb kül olmaq bahasına, 40 nəfərə yaxın əsgəri düşmən əsirliyindən xilas edib… Gəncədəki 18 saylı orta məktəb şəhid şairin adını daşıyır./

ƏSL ƏSGƏR

Heç özü də bilmədən
əsl əsgər
bircə güllə atılsa da
düşmən tərəfindən
qurtara bilməyib güllədən...
Bircə döyüş də olmur
əsl əsgərlər ölmədən..!

Elə döyüş də olmur
yaralı əsgərlər
qızıl bayraq kimi
enməsin atlardan.
Atlar inciməsin otlardan,
otlar atlardan…
Sonuncu davada
gözləri açıq ölməsin sonuncu əsgər.

Sonuncu səngərdə
Qızıl bayraq kimi
Qaldırılmasın Vətən torpağı.
Şəhidlərin öldüyü gün
Uşaqlıq şəkli
Tapılmasın cibindən...

Heç özü də bilmədən
əsl əsgər
qurtula bilməyir güllədən.

SƏNDƏN DƏ FƏRSİZ OĞULLAR…

Bircə pillə qalxım deyə,
gözəl bir taleyi,
titrək bir eşqi
qoydunsa ayaqların altına,
gün gələcək
özün də qalacaqsan
ayaqların altında.

Yapışıb özün kimi
zalımların ətəyindən
qalxdığın "zirvə"
kiçik bir təpədi-
qalıbdı illərin tapdağı altda.

O kiçik təpədə
Səndən də qabaq,
Səndən də fərsiz oğulların
günahı yığışmır
torpaq üstündən...

Dərdi də, qəmi də
sevgisi tək diri olan
bu yurdun
Nə ağısı çəkir,
nə duası götürür
səndən də fərsiz oğulları.



Fuad ƏSƏDOV
/25.11.1972, Quycaq-CƏBRAYIL – 28.06.1992, Sur-CƏBRAYIL;

Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda (indiki AMİU) oxuyarkən, – Xocalı soyqırımından sonra Milli Orduya yazılmaq haqqında qəti qərara gəlib. Tələbə olduğu üçün onu bir müddət ordu sıralarına qəbul etməsələr də, nəhayət 28 mart 1992-ci ildə yerli müdafiə batalyonuna qəbul edilib. Dəfələrlə kəşfiyyatda olub, düşmən hücumlarının dəf edilməsində, vuruşmalarda fəal iştirak edib; Sur uğrunda döyüşdə qəhrəmancasına şəhid olub. (*Adı, təhsil aldığı Quycaq orta məktəbinə verilmiş, məktəbin qarşısında büstü qoyulmuşdu. Cəbrayıl rayonu işğal olunduqdan sonra həmin məktəb Xəzər rayonunun Şüvəlan qəsəbəsində (qaçqın məktəbi statusunda) fəaliyyət göstərir.****) Vaxtı ilə oxuduğu AMİU-nun Memarlıq fakultəsi yerləşən binada barilyefi vurulub. 2006-cı ildə onun haqqında "Fuad dünyası" kitabı çıxıb, 2011-ci ildə isə "Yarımçıq gündəlik" sənədli filmi çəkilib.****/***

KOMANDİRƏ MƏKTUB

Niyə götürmürsən məni orduya?
Cavab istəyirəm mən bu sorğuya.
Deyirsən, orduda olmamısan sən,
Uşaqsan heç yaşa dolmamısan sən.
Deyirsən institut səni gözləyir,
Cəbhədə hər adam tab gətirməyir.
Qulaq as, əzizim, yaşım azsa da,
Bu yaşca böyüyə etirazsa da:
Mənim də sözüm var bu gün deməyə,
İnsan yaranmayıb yalnız yeməyə…
Bil, mənim yaşımda Xətai şahdı,
İskəndər sərkərdə, Nadir padşahdı.

Koroğlu bu yaşda çıxdı meydana,
Teymur "Gəlləm" dedi bütün cahana.
Mən misal gətirrəm nə qədər desən.
Ancaq nə faydası? – Özün bilərsən…
Bu yaş da, ordu da bir bəhanədir,
Yersiz rəsmiyyətdir, boş əfsanədir.
Sən mənə qulaq as, dinlə diqqətlə,
Qəlbim silahlanıb kinlə, nifrətlə.
Düşmən üstün gəlsə, qorxu törənsə,
İnan, nifrət dolu od püskürərəm.
Patronum qurtarsa, gücüm tükənsə,
Dişim, dırnağımla cəngə girərəm.
Mən qoltuq altında yata bilmərəm,
Mən qadın ləçəyi örtə bilmərəm!
Namusdan, qeyrətdən məhrum olanın
Fərəhə, qürura həsrət qalanın
İnstitut diplomu nəyinə gərək?
Ürək dəyanətlə döyünsün gərək!
Dünya Şuşa dərdin yaddan çıxarmış,
Xocalı fəryadı beynimi sarmış,
Deyirsən komandir, indi neyləyək,
Kişilik sözünü lüğətdən silək?!.

Körpə uşaqların ahı, naləsi,
Nişanlı qızların axır cikkəsi,
Gözümün önündən çəkilmir, getmir,
Bu kino qurtarmır, bu səhnə bitmir.
Namusu it yemir, it… qeyrətiylə…
Dünya baxır, dinmir küt heyrətiylə.
Düşdü, tapdalandı papaqlarımız,
Odlara qalandı torpaqlanmız.
Xocalı səsinə səs verməyənlər,
Düşmənə layiqli dərs verməyənlər

Gərək yaşamasın bu torpaq üstə.
Əgər deyillərsə şikəst ya xəstə.
Mən indi sıxılmış yay misallıyam,
Xəyalı qarışıq, qeylü-qallıyam.
Məni gəl döndərmə yolumdan, kişi!
Xocalı nisgilli, Şuşa hallıyam.

Qulaq as, söyləyim sözümün canın:
Qələmi sınaydı qanun yazanın!
Mən artıq qarşına hazır gəlmişəm...
Hərbin sirlərinə yiyələnmişəm...
İnstitut olarsa, sənin bəhanən,
Ordan da çıxaram elə bu gündən..!

24 mart 1992-ci il

SƏNGƏR
"Armud" postu haqqında…

Bu səngər məbəddir, pirdir, ocaqdır,
Bu səngər tarixə qovuşacaqdır.
Bu səngər bir parça Vətən torpağı,
Bu səngər düşmənə sipər, göz dağı...
Niyə doğmalaşıb bir parça torpaq? –
Elə bil evimdi, yuvamdı mənim…
Elə bil suyumdu, havamdı, mənim
Dadıma bir fikir yetişir bu dəm
Bir parça torpaqdan yarandı Adəm.
Lap aşıb daşsa da, var-dövlətimiz
Bir parça torpaqdır son qismətimiz.
Mənim də payıma düşüb bu səngər,
Hamımız bu ruhda köklənsək əgər,
Yurda tamah salmaz hər yoldan ötən,
Basılmaz Vətən, basılmaz Vətən!

Hamlet KAZIMOĞLU

/Hamlet Kazım oğlu Kazımov;
21.03.1970, Faxralı-BORÇALI –
19.04.2001, Torjok-Tver-RF...
Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) 1994-cü il məzunudur. Gənc Anavətənçilər Assambleyasının və "Qar çiçəyi" ədəbi qurumunun yaradıcılarından biri kimi həm ictimai, həm də ədəbi fəaliyyətlə məşğul olub. Dövri mətbuatda 1992-ci ildən ardıcıl olaraq çap olunub. 1995-ci ildə Gənclər-İdman Nazirliyinin gənc şairlər arasında keçirdiyi şeir müsabiqəsində "Keçmişə elegiya" şeiri I yerə layiq görülüb. 1997-ci ildən ömrünün sonunadək Rusiyada yaşayıb. Vəfat səbəbi: Ürək tutması… 1997-ci ildə "Ağ çadır" adlı şeirlər kitabı gün üzü görüb. İkinci kitabı isə ölümündən sonra "Nakam şairin şeir kitabı" adı ilə çıxıb (2010, Bakı).../

***

Vətən mənim, mən Vətənin
Vətənsiz ömrüm daşlanar.
Sərhədlər var yarıb keçsəm
yenə də Vətən başlanar.

Dərd yuxusunu Vətənin
görüb tərsinə yozuram.
Atdım döyüşə özümü
candan keçməyə hazıram.

Sığallı ruhum Vətəni
gəzər, gəzər Vətən boyu.
döyüşdə ölən bədənim,
Vətən torpağında uyu…

MƏN AZADLIĞAM, SƏN BAYRAQ...

Gülüm, azadlıqdan məstəm,
Tut əlimdən ötüb gedək.
Uzun donlu bayraqların
Ətəyindən öpüb gedək.

Gözüm qanlı üfüqlərdə
İçimdən sonsuzluq keçir.
Göz yaşı qurtuluş deyil,
İçindən qansızlıq keçir.

Mən azadlığam, sən bayraq
Gülüm, dərdimiz tən qalsın.
Gəl ikimiz qucaqlaşaq,
Vətən elə vətən qalsın.

***

Hər könülə yatmaq olmur,
Öz könlümüzə yatmışıq.
Dənizlərdə batmaq olmur,
Ancaq Arazda batmışıq.

İkiüzlü dərd toxuduq,
Çox qorxulara qorxuyuq,
Bir kamanın cüt oxuyuq,
Qaşlarımızı çatmışıq.

O taya bu tay da gedər,
Sıralar bir boyda gedər,
Azadlıqdan pay da gedər
Hələ təzəcə dadmışıq...

Fərhad METE

/1976, SUMQAYIT – 2009, BAKI...
Şeirləri müxtəlif qəzet və dərgilərdə dərc edilib,
internet saytlarında yayımlanıb.
BSUnun Yaradıcılıq fakültəsinin məzunu olub.
13 avqust 2009-cu ildə faciəli şəkildə avtomobil qəzasında
həlak olub. Ölümündən bir qədər öncə Akif Səməd adına
Poeziya ödülünə layiq görülmüşdü…
Ölümündən sonra "Bu şəhərə uzaqdan baxarsan" kitabı
(2009) gün üzü görüb./

XOCALI

Orada hər şey
faciə gününün sonrasını xatırladır -
şəhər intihar etmiş, sağ əli Allaha doğru uzalı,
sol əli ilə asmış özünü göyün yeddinci qatından
və itələmiş ayağının altından torpağı,
qovuşmuş cənnətinə:
cənnətdə hər şey donmuş haldadır deyirlər.
o şəhərin insanları da bizlərə bənzəməz
qocaların gözləri və əlləri
heyrətdən açıq qalmış
sanki
qarıları yenidən gəlinlik libası geyinirmiş kimi
axtalanmış kişilər üçün qadınları əkin tarlaları
döşləri kəsilmiş qadınlar üçünsə
kişilər süd qardaşları
insanlar ən çox təhlükə anında doğmalaşırlar
o şəhərin körpələri nağıl filmdəki
taxta həmyaşıdlarına bənzəyirlər
baxışları canlı, vücudları sərt
və soruşurlar uşaq sadəlövhlüyü ilə:

“biz cənnətin hansı qatındayıq?”
orada itlər də zəncirindən başıaşağı sallanır
göy üzünün quşları da boğulmuş
gümüşü sularda
orada hər şey
faciə gününün sonrasını xatırladır
inanmırsınız, gedin baxın...

HƏLƏ VAXT VAR…

Alatoran… hamı susur…
On yeddi nəfər qalmışıq.
Az sonra – siqnal fişəngindən sonra
ikinci həmlə olacaq qarşıdakı səngərə.
Hələ vaxt var ölənləri saymağa,
sonra bir siqaret yandırıb səni xatırlamağa…
Yadıma düşür, meydan izdihamının içində
düyünləyib hirsimi-hikkəmi,
ən çox da sənə olan sevgimi
yumruq şəklində qaldırmışdım göylərə.
Və o şairin nitqindən sonra
“Azadlıq” sözünü üç hecaya bölüb
bağırmışdım bağıra bildikcə -
nə boyunduruqdan, nə də köləlikdən,
səndən azad olmaq üçün.
Hələ vaxt var…
Axşamları çörək növbələrində
baxışları yerə dikilmiş,
bir-birindən utanan insanların içində
səni axtarmışdım.
Sonra satıcı xanımın sanki qəsdən

“Bəlkə bu axşam çörək olmadı” sözündən sonra
izdihamdakı “Azadlıq!” bağırtımı xatırlamışdım
və küsmüşdüm sənə olan ehtiyacımdan.
Üstü yaşıl örtüklü şəhid tabutu önündə
cənazə namazı qılarkən
səni istəmişdim ayaqda və səcdədə.
Və bir gün qapınıza gəlib…
Bu da siqnal fişəngi,
vaxt bitdi…
Yadda saxlayın – on yeddi nəfər qalmışdıq.
İkinci həmlədən sonra
yenidən sayarsınız ölənləri
və bir siqaret yandırıb xatırlayarsınız –
mən olmasam…

CƏMİL

Bu mənəm – Cəmil,
yaşım on yeddi, mən sizdən çox uzaqdayam
Bir əyalət uşağıyam
yeni telefonum, yeni nömrəm, bir də telefonumda iki manatlıq
Aysel üçün dondurulmuş zaman
Ona bir etiraf edəcəyəm nə zaman cəsarətimi toplasam
burda park salırlar şəhərdən gələn adamlar,
aralarında bir eynəklisi də var, adını Xan çağırırlar
heykəl kimi acıqlıdı hər zaman, hər gün məni çağırıb
eyni sözlər deyir – vətən yeməli şey deyil...

bu mənəm – Cəmil, yaşım on yeddi, mən sizdən çox uzaqdayam,
amma bilirəm məndən də çox uzaqda – minalanmış torpaqların
o üzündə həmyaşıdlarım var –
təkayaqlı oğlanlar və barmaqları kəsilmiş qızlar,
bir də onların anaları – əsir düşmüş qadınlar,
əllərində və ayaqlarında ağır-ağır qandallar...
tez-tez yuxularımda qışqırırlar, gəlin bizi xilas edin, sonra da güllələyin...
hər gecə qan-tər içində ayılıram və düşünürəm, nə yaxşı ki, Aysel var...

alo, Aysel, bu mənəm – Cəmil, bu mənim yeni telefonum, yeni nömrəm
və sənin üçün əriməkdə olan iki manatlıq zaman
mən artıq bilirəm – vətən yeməli şey deyil, bir də minalanmış
torpaqların o üzündə həmyaşıdlarım...
alo, Aysel, alo... alo... alo...

Üzeyir MƏHƏRRƏMLİ
/1974, AĞSTAFA –
2004, AĞSTAFA;

Qrinfel (indiki Vurğun) qəsəbəsində doğulub. Gəncə Dövlət Univerisetetinin Qazax filialında "Azərbaycan dili və ədəbiyyatı" fakultəsini bitirib. Mərkəzi mətbuatda dəfələrlə silsilə şeirlərlə çıxış edən gənc şair, 1999-cu ildə "İlin ən yaxşı əsərinə görə" Gənclər-İdman Nazirliyinin ödülünə layiq görülmüşdü. Bir sıra şeirlərinə musiqi bəstələnib. "Sevənlərə bağışla", "Ömür yadigarı"adlı şeir kitabları gün üzü görüb.../

SON GÜLLƏ

Səngərdəyəm,
özümçün qazdığım səngərdə
Ölümə əzab verməyim deyə
Özümçün qazdığım səngərdə dayanıb
Əzraili nişan almışam
nişangahda olduğumu bilə-bilə
ölümün üzünə gülə-gülə, gələ-gələ
əlimdə atacağım son güllə
qarşımda – taleyim çəkilmiş mənzərə…
eniş-yoxuş, dağ-dərə.
əsəbdən qaralmış buludların
arasında çaxan şimşək,
sinəmə baş qoyan bir dəstə çiçək,
döyüşlərə atılmaq arzusu,
ciyərim yananda həsrətində olduğum bir içim su,
və son gülləmin
özümə tuşlanan sərt üzü

Döyüşə-döyüşə ölmək xoşbəxtlikdir!
Ölmək istəmirəm,
Xoşbəxt olmaq istəyirəm son gülləmlə
Nə dərd, nə əzab, nə qəmlə..!

Qarşımda yenə tanış mənzərə
Canlı ölülərlə dolu bənd-bərə
Ölüyeyən quşlara
qürubdan gülən günəş
ölümü qarşılayan alqış, çəpik
son misramı səngərdə yazan barmağımdakı tətik…
və…
...və …Atəş!!!

Şəfa VƏLİ
/Şəfa Elxan qızı Vəliyeva;
1988-ci il iyulun 22-də GÖYÇƏ mahalının Dərə kəndində doğulub.
AJB və DGTYB-nin üzvüdür.
2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Təqaüd Fondunun təqaüdçüsü olub. Gənclər-İdman Nazirliyinin "Gənclər mükafatı"na layiq görülüb./

QƏMLİ NAĞIL – KƏLBƏCƏR

Adın əzbərimdə nağıl-Kəlbəcər...
Səmtini tanıdan olmadı... neynim...
"İşğalda" kəlməsi qara bir çəpər...
Ərköyün bir cocuq lazım, dizi qanasın,
Əlləri sıyrılsın... Və "türkəm" deyib
o çəpəri aşsın...
Qara boyanıb nağıllarda sənə gedən yollar...
Qan rəngi geyinmək istəyir dağların...
Düşmən qanı da qırmızı...
Bilirəm, niyə çağırırsan bizi, nağıl-Kəlbəcər...
Danlamağa çağırırsan hamımızı...
Bircə-bircə...
Üzünə baxmağa cəsarət istəyirsən,
Gündə bir eşq yaşamağa hazır gənc qəlbimizdə...
Axı, hardan biləsən ki, xəcalətdən
Xəritədə baxa bilmirik adın yazılan yerə?!
Dağlarını tanımırıq...
Bilmirik, hansı bulaqda
Dədə Şəmşir "Vədəsində" deyib...
Bu yay da yaylaqlarını xatırladı nənəm...

-Hardan bilim o dağlarda nə bitib? –
deyib “ah” da çəkdi...
Bütün “idi”ləri yaraşdırdı adına, Kəlbəcər...
Tanımıram səni...
Görməsəm, tanımaram...
Göstərənim olmadı ki...
Dərdini də çəkəmmirəm indi
mağıl...
Qəmli nağılsan, Kəlbəcər...
qəmli nağıl...
Ümidlə sonunu gözləyirəm...
“Hamı murada yetdi...
Göydən üç alma düşdü” –
eşitmək istəyirəm...

Qabil ƏDALƏT

/1990-cı ildə AĞCABƏDİnin Boyat kəndində doğulub.
Binəqədidəki 205 saylı orta məktəbi bitirib. 2011-ci ildə "Vətənə gedən yolda",
2012-ci ildə "Həqiqəti gözlərində görürəm" adlı kitabları gün üzü görüb.
2012-ci ildə "BAYAT" Ədəbi Birliyini yaradıb./

ÜZÜ SABAHA

YeniGün (Novruz) diləyi

Ya Tanrı, özün yar ol,
gələn bayram tonqalını
Şuşamızda qalayaq!
Səmənini
Laçın buğdasıyla
cücərdib,
yumurtanı
Zəngilanda boyayaq.
Qurşanaq qılınca Qubadlımızda;
Cıdır düzü alqışlasın
atlarımızı...
Ağdərədən Cəbrayıla
qulaq falına çıxaq,
Kəlbəcərdə xonça tutub,
Füzuliyə papaq ataq;
yatmayıb danüzünədək
çiləmizi Xocalıda çıxaraq...
Əcdadın ruhuna dua oxuyub,
Xankəndində
mağar qurub, şənlənək.

“Səhər-səhər, o başdan
Ağdamdan şığıyaq üzü dağlara,
ordan da teylənək üzü aşağı:
sevinsin İsa bulağı,
qoyub dizimizi yerə,
ovuc-ovuc su vuraq
üz-gözümüzə...
Aydınlığa çıxmaq üçün
niyyət tutaq,
dua edək Tanrıya!
Və tutub əl-ələ,
Üz tutaq
böyük sabaha..!

DİNMƏZ

/Mortəza DUSTƏLİNƏJAD;
TƏBRİZdə doğulub. AYB-nin üzvüdür.
İndiyə kimi "GÖY SANCI ÇƏKİR"
adlı bir şeir kitabı gün üzü görüb./

***

Başım duman düşüncəli,
boynum
buludlardan qucaqlanmış
Savalan boyunda heykəl..!
Köksüm Ağrıdağına göynəyir,
ağrıyıram.
Göz yaşım Araza can atır,
yanıram...
Ürəyim qara qara dağlar közərir,
yanıram.
İçərimdə becərtdiyim
qara qara bağlar yanır,
yanıram.
Yandığımı
dilim yox
yandığım
Od püskürür dünyanın kar qulağına..!

***

"Azərbaycan Bayrağı" Ordenli
***Təbriz Musa**yevə ad edilmiş şeir*

Söndürün işıqları,
yumun gözlərinizi,
əllərinizi verin əllərimə;
ayaqlarınıza tapşırın,
bir neçə saat mənimlə yol gəlsinlər.
Gəldiyiniz yolda heç bir qorxunu
yol verməyin ürəyinizə...
Məni
bir uşaq kimi yox,
bir böyük kimi də yox...
nə bir qadın
nə də bir kişi kimi sanın –
Məni
örtün gözlərinizə,
çəkin əllərinizə,
ayaqlarınıza yol salın,
Quylayın ürəyinizə...
Sonra
açın gözlərinizi,
alın əllərinizi,
buraxın ayaqlarınızı...
Ürəyinizə deyin
ürəyimə ürək olsun.
Ürəyim Qarabağda
adıma güllələndi
adım..!

ÇALĞIN

/Məhəmmədrza Cəfəri;
1977-ci ilin YeniGünündə - 21 martda TƏBRİZdə doğulub. Azad Universitetinin məzunudur. 13 yaşından əruz və heca vəznində şeirlər yazıb; bir müddət xalça rəssamlığı ilə məşğul olub, sonra bu sənəti buraxıb, peşəkar şəkildə ədəbi fəaliyyətlə məşğul olmağa başlayıb./

QARABAĞ ŞİKƏSTƏSİ

Qan iyisi gəlir bu tüfəngdən,
yaralarımı toprağa kirayə versəm də,
baxışlarım Qarabağa qohumdur.
Döşlərimə yatırdıram qundağı
Günəş burnumu yerə sürtür...

Paltarımın içində gizlənmişəm,
köynəyimin altından keçir düşmən...
“Ağıllı düşmən”...
İçərimdən bir papaq qalxır,
donuz dərisindən
özünü buynuzunun irtifasından atır başıma...

Lənət olsun,
lənət olsun qışa..!
Min doqquz yüz doxsan ikiyə lənət olsun..!
Dırnaqlarımın altında bir səs göynəyir,
bir gəlin səsi,
Qara bağın şikəstəsi...

SƏRKİSYANA "XİTAB"

Dünən
Günəşin kölgəsində
Azərbaycanlılar
quylandılar
Xocalıda, Ağdamda...

Bugün
bir həzin yağışdan sonra
min kimi cücərirlər
Füzulinin həndəvərində

Sabah...
Mən sənə demişdim
Sərkisyan, sənə demişdim!..

***

Culfadan baş aldım Araz yenişə,
yolları sürünə-sürünə getdim.
Bələşdim Arazın ləpələrinə,
dumana bürünə-bürünə getdim.

Bir gözəl o taydan nigaran baxır,
bəlkə də səhəngi qalıbdı çayda…
Bəlkə yaylığını yel aparıbdır,
bəlkə də sevgisi qalıb bu tayda…

Mənə əl açmışdı Qarabağ, Şuşa,
Kəlbəcər dadına məni çağırdı.
Bağışla, Dəlidağ, bağışla məni,
mənim öz niskilim səndən ağırdı...

Ümid NƏCCARİ

/15 aprel 1989-cu ildə TƏBRİZdə doğulub. İlk şeirlər kitabı ("Quşlar vadisi") 2015-cü ildə gün üzü görüb. 2016-cı ildən AYB-nin üzvüdür./

HARA VƏTƏN DEYİM?

Hara Vətən deyim? –
Torpağamı,
Suyamı?
Yoxsa,
bu sınırların girovunda qalan ərazilərə?
Hara Vətən deyim, ana?
Vətən mənimçün bağ oldu
O tay bu tay oldu.
Araza deyin,
gözlərim doldu.
Qara baxtım kimi qara
əlləri qandaldadır,
ayaqları zəncir...
Ürəyim qan oldu, ana,
necə çörək yeyim,
necə duz yeyim?
Olarmı duz-çörəyi itirim?
Axı igidlərin acığına gələr.
Necə Vətən deyim Qarabağsız?
Al əlimdən hər nə varsa,
ürəyimə qanad ver.
Necə dözüm Qarabağsız?
Necə dözüm.?!

Ramin CƏBRAİLİ

/YAŞAR;
TƏBRİZdə doğulub.
Ədəbi yaradıcılığının yanı sıra xalçaçı-rəssam kimi də ün qazanıb. "Əski türk inancları", "Yer adları", "Milli şeir, mili yol" adlı kitabları çapını gözləməkdədir.../

QARABAĞ ŞƏHİDLƏRİ ÜÇÜN

Vətən toprağının ər oğullarnı,
al ulu qoynuna, üzün ağ olsun.
Bizimçün ölməyən Azərbaycandı,
canımız min dönə ona qurbandı!
Sil göz yaşlarını, başın sağ olsun!

And olsun Babəkin al bayraġına,
bu ana toprağın baş ocağına,
dünyamız dönsə də qan çanağına,
öldü var, döndü yox! qutsal yolundan!
Yaslı anaların yapış qolundan..!

Canını yaxsa da, ayrılıq çağı,
əriyib axmasın könlünün yağı;
Didməsin bağrını əzizlər dağı,
məzarlar üstündə qızıl gül bitir.
Bir igid yerinə, minini yetir…

Əsəd ƏRBİL
/Əsad Şakir Əmin;
İRAQın ƏRBİL şəhrinin, Yüksək Qala məhəlləsində doğulub. Süleymaniyyə Universitetinin məzunudur. İndiyədək Ərbil, Bağdat və İstanbulda 14 kitabı gün üzü görüb./

ƏRBİLDƏN QARABAĞA

Anlatma mənə
özgürlük nə olduğunu,
Mən onu
uzun zamandan bəri anlamışam...
amma dadını,
rəngini heç bilməmişəm.
Azərbaycan!
ah, Azərbaycan!

Nə bir tuhaf olayda
səninlə tanışdım;
Bir türkman olaraq,
səni könlümdə saxladım;
Əlbət, binədən bəri
bir-birimizlə qardaşıq;
Bir ana
bir babadan
doğulmuşuq.

...
Tanrım nə gözəlmiş
bu Qarabağ insanları
üzləri ağ, könülləri təmiz...

Göy rəngi kimi... maviliyə bənzər
gözlərinin rəngi, ey sevgilim.
Gəl, sarıl qollarıma,
Gəl, üzdür məni Qarabağ göllərində…
əgər yoxsa da…
Gəzdir məni
o cənnət ormanlarında.
…Mən qeyb olmuşam, boğulmuşam
gözlərindən…
Boğulmuşam
damla-damla qan axan
özgürlüyün həsrət selində...



Riyaz DƏMİRÇİ

/İRAQın ƏRBİL şəhərinin Qala məhəlləsində doğulub. İraq Ədəbiyyatçı-Yazarlar Birliyinin, İLESAM (Türkiyə) və AYB-nin üzvüdür./

***

Ruhum qanadlandı Azərbaycana,
həsrəti qarışıb damarda qana,
İçimdə atəşi, mən yana-yana,
gedib Qarabağı bir gəzib gəlim.

Baxım vətənimə, ata yurduma,
bəlkə qüvvət verdim orda orduma,
Haydı, türkmanlarım, haydı yardıma,
gedib Qarabağı bir gəzib gəlim.

Şuşanın gözləri yolda qalıbdır,
Kəlbəcər daşınır… bir səs salıbdır.
Zəngilan qaralıb öylə dolubdur,
Gedib Qarabağı bir gəzib gəlim.

Füzulidən durub, Ağdama baxım,
Cəbrayılda donub bir ocaq yaxım;
Qubadlıda qalan düşməni yıxım,
Gedib Qarabağı bir gəzib gəlim.

Qartala sorayım orda dərdimi,
bura baba yurdum olan yerdimi?
Dindirim şeirlə orda mərdimi,
gedib Qarabağı bir gəzib gəlim.

Riyazam, savaşım, canımdan keçim,
düşmənin qanını doldurup içim;
ya ölüm ya qalım – bir yolu seçim! –
Gedib Qarabağı bir gəzib gəlim…

Osman BAŞ
/TÜRKİYƏ;
TOKATda doğulub. Bakıda və Ankarada
Azərbaycanla bağlı kitabları gün üzü görüb.
TİKAnın Azərbaycan təmsilçisi olub.
Hazırda Ankara Milli Eyitim Müdirliyində çalışır.
"DÜNYA-DER"in qurucu-başqanıdır./

HARI-BÜLBÜL

Gül bende
Güle gül bende...

Kış gitti gün önümde,
Bahar kondu yüreğime...

Mevsim çiçek çiçek bahar
Damla damla yağmur,
Masmavi deniz ufukda Güneş
Güneş yanmışlığında Hazar...

Ey!.. Yüreğimin dalğaları
Kaf dağınca sevdalarım
Hasrete vurğun Hazarım...
Bilirim tanırsın beni
Balıklar, martılar kadar
Yakınım sana
Dağlar kadar, ufuklar kadar,
Har-i Bülbül kadar uzağım...

Cıdır düzünü, bir Hazar bilir
Bir de yüreği Hazar olanlar…
Cıdır düzünde bir gül esir
Dualar toprak olmuş, tekbir tekbir...

Biliyorum, hiç görmedim seni
Hiç ellerime alıp koklamadım
Hissediyorum, yüreğini okuyor
Feryadını yüreğimde hissediyorum...

Haydı kalk bülbül konsun dalına
Seni esir aldı sananlar çatlasın
Neyin varsa sal toprağın üstüne
Külekler, Baküde yüreklere aparsın.

Bahar ötesi yaz, yaz ötesi Hazar
Hazarın yüreğinde Har-i Bülbül…
Hazarda dalğa-dalğa bahar
Arı dalda, dalda bülbül, Har-ı Bülbül...

Fırtınalar esentiye dönende
Damlalar isyan edejek çiseye
Haydı uyan, şafakta düğün olsun
Mehmetcik hazırlık yapıyor sefere
Dik dur vatan toprağında, alnın açık olsun...

Şimdi bahardayım, yolum Şuşaya
Cıdır düzünde bülbül olacağım,
Har-ı Bülbüle konacağım önce,
Duşmana şimşek olup çakacak
Dostun hasretine son vereceğim...

Tokat - TÜRKİYE

Güngör YAVUZASLAN,
/TÜRKİYE;
Türkçe Konuşan Ülkeler
Uluslararası Gazeteciler Derneği Başkanı/

NİSAN ŞEHİTLERİNE

(2 Nisan 2016 günü Azerbaycan elinde
LELE TEPESİ'ni kurtaran aziz şehitlerimize)

Ne zamandır beklersin bilirim beni,
Aç koynunu ben geldim, LELE TEPESİ!
Sen kırmızı, kanım kırmızı helal sana,
Ay-yıldız bir bayrak getirdim ocağına,
Aç bağrını ben geldim, LELE TEPESİ!

Karabağ vatanım – esir diyar…
Azerbaycan evladı uğrunda verir can.
Bak, tepene diktim yeniden şanlı hilal!
Açsın toprağımda laleler al al,
Aç koynunu ben geldim, LELE TEPESİ!

Adım Türk vatanım AZERBAYCAN!
Ben şehit doğmuşum uğrunda, Vatan!
2 Nisan'da kattık şanımıza şan!
Esir kalamaz artık bu diyar, bu Vatan!
Koşu,n verin BAKÜ'ye kutlu müjdeyi,
Aç kollarını ben geldim, LELE TEPESİ!

Uzandık Nisan sabahı neferlerle dizi dizi,
Bedir ovasında aslanlar bizle idi…
Çanakkale'den şanlı asker Mehmetçik geldi,
Dedem Korkut dua, Atam Oğuz destan diledi,
Şehidim artık aç toprağını, LELE TEPESİ!

Murat DUMAN
/TÜRKİYE;
YOZGAT ili, Sarıkaya İlçesi'nin Kürkçü köyü'nde dünyaya geldi. Ankara'da ikamet eden şair, İLESAM üyesi, SaküDer'in Kurucu üyelerindendir./

AZERBAYCAN KANIMDIR

Ayrı gayrı sanmayın cehennem odunları,
Türklük çınar ağacı, dalı Azerbaycandır.
Hak adalet bilmeyen şeytanın nâdanları,
"İki devlet, bir millet" yolu Azerbaycandır...

Dünya Türkün bahçesi, koyun siz kafanıza,
Son verecek elbette, zulümkâr sayfanıza,
Ocaklar söndürdünüz katlandık cefanıza,
"İki devlet, bir millet" kolu Azerbaycandır...

Dokunmasın namert eli, onlar yiğit harmanı,
Mehmetçiğim nöbette, onlar gönül dermanı,
Senin dosyan duruyor, tarih yazar fermanı,
"İki devlet, bir millet" balı Azerbaycandır...

Karabağ Türk toprağı, ey Erməni, unutma,
Nankör vahşi yılansın, yalan sözle uyutma,
Birazcık insan olda, çirkeflikten pay kapma,
"İki devlet, bir millet" solu Azerbaycandır...

Bilirim, sen hainsin, sevgiden anlamazsın,
Sana mehmetcik gerek, asla, söz dinlemezsin,
Camide canlar yaktın, zülmünü önlemezsin,
"İki devlet, bir millet" hâlı Azerbaycandır...

Hocalı katliyamı bir ok gibi duruyor,
Hak yolunda ölenler bizden hesap soruyor,
Kalmayacak intikam, mehmet fırsat arıyor,
"İki devlet, bir millet"
salı Azerbaycandır...

Dumanoğlu can verir, Turan benim özümdür,
Al aklını başına, bu sana son sözümdür,
Asil Türkün yavrusu oğlum hemde kızımdır,
"İki devlet, bir millet" balı Azerbaycandır.

01.04 2016, Ankara

Hikmet ELİTAŞ

/TÜRKİYE,

KARAMAN'da doğdu. Şiirleri birçok gazete, dergi, kitap ve takvimlerde yayınlandı. 16 yıl Karaman'da kültür derneği başkanlığını yürüten şairin birçok şiiri ödül almış durumda. "Gönlüm Karalar Başladı" (2004), "Gönül Diliyle Yunus ve Karaman" (2006) kitabları gün yüzü gördü./

KARABAĞDAN MEKTUP

Bülbül feryad eder, vakt-ı seherde,
Karabağ'da galan güller soluptur.
Üreğimiz düşmüş, onulmaz derde,
Gözlerime ganlı seller doluptur.

Bu zulüm ateştir, bu zulüm kordur,
Elbet, her gecenin sahabı vardır…
Bizimdir bu toprak nice yıllardır
Mevlam'da biliptir, kulda biliptir.

Yaramıza taşlar bassam kim bile,
Gücensem kim bile, küssem kim bile..?
Şu aleme zehir gussam kim bile?
Başımıza yaman haller geliptir.

Bilir beni bu yer, buralar tanır,
Bu zulmün adına, bilmem ne denir..?
Göz yaşımdan şu Karabağ yıkanır,
Analarım ak saçını yoluptur.

Hallarımız böyle çetin olanda,
Hayalime eski günler gelende...
Otağımız sılamızda galanda,
Gayri yurdum gurbet eller oluptur...

Osman ÖCAL
/TÜRKİYE;
Yüksek okulu Ankara Eğitim Enstitüsünde tamamlayarak öğretmenlik görevine başladı. "Tuğra" (2009), "Hicran Düştü Sevdama" (2009) və b. kitabları gün yüzü gördü./

YA KARABAĞ YA ÖLÜM!

Görülmemiş tarihte, yoluma yoldaş olmaz
Yazmıyor kitabımda; ermeni gardaş olmaz.
Düşen belden aşağı, ayak olur, baş olmaz.

Beni hak söyletiyor, Hakk'ı okuyor dilim
Yemin olsun Tanrıma: ya Karabağ ya ölüm!

Silahsız halka karşı Rus destekli ordular,
Hocalı toprağına girince kudurdular,
Hamile kadınların bebeğini vurdular.

Bakma Türk düşmanına, biliyor aklıselim
Yemin olsun Tanrıma, ya Karabağ ya ölüm!

Gözlerimi oydular, yüzüldü kafa derim
Bir vahşet değil mi bu, niye riya ederim.
Uşaklar işbirlikçi, işte bundan kederim.

Geçmişte neler oldu anlatır tarih, bilim
Yemin olsun Tanrıma, ya Karabağ ya ölüm!

İşgalcinin her ferdi kesilmeden lokmadan,
Soykırımcı ermeni arkasına bakmadan,
Açılmayacak kapı, Karabağ'dan çıkmadan.

Acar kilit vurmazsam, kırılsın çifte elim
Yemin olsun Tanrıma, ya Karabağ ya ölüm!

Gönlümüzde helalsin, gülsüz gülistan olmaz
Vuslatî'nin sevdası, bir ermenistan olmaz.
Yadigârsın Karabağ, sensiz Türkistan olmaz.

Esarete gelmez Türk, bitsin işkence zulüm
Yemin olsun Tanrıma, ya Karabağ ya ölüm!

Ramazan ÇEŞME
/BERHUDAR;
TÜRKİYEnin Afyon iline bağlı
Akharım ilçesinde doğdu.
Radyocu, şair, yönetmendir.
Almanyada yaşıyor./

KARABAĞ KAN AĞLIYOR
(Şiirden bir parça)

Karabağ'ın işgali kanımıza batıyor,
Hocalıyı yakanlar orda cirit atıyor,
Şehitlerim mezarsız bir çukurda yatıyor.
Ağla, Karabağ, ağla, Türk Dünyası ağlasın,
İnim inim inlesin yürekleri dağlasın,
Kızanlar yas tutsunlar, kızlar kara bağlasın.
Körpe bir gelin gibi seni elden aldırdık,
Sustu ezan sesleri çan sesleri çaldırdık,
Teslim ettik düşmana beyaz bayrak kaldırdık.
Ağla, Karabağ, ağla, Türk Dünyası utansın,
Asırlardır özüme canıma can katansın,
Sensin Türkün öz yurdu ecdadıma vatansın.
Tepene kim dikilmiş göne bayrak çekiyor,
Tarlanı kim sürüyor, ekini kim ekiyor..?
Dede bıyık burardı, torun boyun büküyor.
Ağla, Karabağ, ağla, Türk Dünyası dinlesin,
Açsın artık gözünü, görsün sen kiminlesin,
Ananalar ağıt yaksın dağ taş sana inlesin.
...
Türkün özü oğuzdur hepsi senden yanalar,
Üç beş sapı silik var, ermeni den yanalar,
Birde özür dilerler dana oğlu danalar.

Ağla, Karabağ, ağla, Türk Dünyası derdine,
Dünyanın gücü yetmez Türkün bir tek ferdine,
Türkün hası mert olur, çüş olsun namerdine.
...
Söyle, Karabağ, söyle, asıl kime yarsın sen,
Yaratanın kim senin, kimin için varsın sen?..
Karalardan karasın, yüzümüzde arsın sen.
Ağla, Karabağ, ağla, Türk Dünyası kursunlar,
Yiğitlerim uğruna varsın kurban olsunlar,
Minareler yapılsın Camilere dolsunlar.

Kar yağdı Karabağ'a, ya Rabb, ne zaman erir,
Türke binbir tuzak var, ne olur, terse cevir,
Darmadağın olmuşuz, şaştım bu nasıl devir..?
Ağla, Karabağ, ağla, Türk Dünyası harmandır,
Felek eğirir durur, dertle dönen kirmandır,
Toprağından bir avuç derdimize dermandır.
Karabağ imdat bekler, her Türk koşup gelmeli,
Allah Allah sesleri gök kubbeyi delmeli,
Mesele Memleketse..! – ölmeyi de bilmeli.
Ağla, Karabağ, ağla, Türk Dünyası zordadır,
Herkes kendi derdinde müşküldedir, dardadır,
Varlığın Türk varlığı, armağanlar hardadır..?
...
Dünya bir daha görsün, eğilmez büyük başsın.
Karabağ, sende Türk'sün, özüme öz gardaşsın,
Kükresin aslanlarım, Karabağ'a ulaşsın,
Alem bir daha görsün, uysal eğilmez başsın,
Dünya bir daha görsün, eğilmez Kocabaşsın..!

Safiye SAMYELİ

/TÜRKİYE;
Afyon Karahisar'ın Savran kasabasında doğdu...
Denizli Konservatuvarı Bağlama Bölümü öğrencidir.
Birçok şiiri türkü olmuş durumda.../

AHIM YERDE KALMASIN

Durun,
Durun diyorum..!
Bırakın beni dokunmayın sakın
Çekmeyin saçlarımdan
Yırtmayın şalvarımı,
Karnım burnumda zaten –
Bir faydam olmaz size.
Durun diyorum
Durun..!
İteklemeyin beni, sürümeyin yerlerde,
Tutmayın ellerimden
Çözün bileklerimi, bağlamayın ağaca
Hiç mi
Hiç mi merhamet yok sizde..?
Evde üç körpe kuzum yoluma bakar benim
Bırakın,
Bırakında gideyim yalvarıyorum size.
Yapmayın, ağam,
Etmeyin, beyim..!
Yazı tura ne demek?!
Çıldırdınız mı yoksa, sakın
Ne olur!
Ne olur, kıymayın bize!
Uzak durun benden, dokunmayın kuzuma..!

Çekmeyin süngüleriniz,i deşmeyiniz karnımı..!
Bizler bir Türküz diye, dökmeyiniz,
dökmeyiniz kanımızı..!
Tüy bitmedik masumun
Size ne zararı var!?
Kıymayınız yavrumu, kıymayınız, ağalar
Yaptığınız bu zulum hangi kitaba sığar?!
Zalimin zülmü varsa,
Mazlumun da ahı var.
Durun,
Durun,
Durun, yalvarıyorum, ağalar..!
Bebemin doğmasına,
Henüz on beş günü var.
Durun!..
Duru...
Dur...
Du..
Du-run, a-aga-lar!!!



Ali ALTINLI
/TÜRKİYE;
ANKARA'da doğdu. Anadolu Üniversitesi Halkla İlişkiler Bölümü'nden 2007 yılında mezun oldu. Halen Tarım ve Köy İşleri Bakanlığı'nda görev yapmaktadır./

HOCALI

Huzurunda, el-pençe, varıp selâm durulan;
Yarası kapanmayan, izimizdir Hocalı…
Yirmidört yıl geçti, teker teker vurulan;
Nenemiz, bacımızdır, balamızdır Hocalı…

Bin parça yüreklerdik, kurşunlara dizilen;
Toprağının bağrına, nice mezar kazılan;
Silinmesin diyerek, yüreklere yazılan;
Kan dolu, kahır dolu, özümüzdür Hocalı…

Çakalların sürüsü, sağdan-soldan toplandı;
Nice candan can gitti, nasıl da hesaplandı;
Şubatın yirmibeşi, bağrımıza saplandı;
Tarihe not düşülen, yazımızdır Hocalı…

Güneşler doğsun diye, yıllar yılı beklenen;
"Unutmak" – tövbe-hâşâ – dilime yasaklanan;
Katliamın resmidir, gözümüzde saklanan;
Söylendikçe şahlanan, sözümüzdür Hocalı…

Çakalın kan kustuğu, âyan-beyan bilinen;
Mezarların başına, dualarla gelinen;
Tebessümden habersiz, boynu bükük çalınan;
Tellerde ağıt yakan, sazımızdır Hocalı…

Nihat MALKOÇ
/TÜRKİYE;
TRABZON'un Köprübaşı ilçesine bağlı Gündoğan Köyü'nde doğdu...
KTÜ/Fatih Eğitim fakültesi
Türk Dili ve Edebiyatı Öğretmenliği bölümü'nde okudu.

HOCALI AĞITI

26 Şubat'ta kar üstüne kan yağdı,
Göklerden yağmur değil, civan yağdı, can yağdı.
Vahşice katledildi yaşlılar ve bebeler…
Karınları deşilmiş melek yüzlü gebeler…
Ana, evlât uğurlar karanlığın koynuna,
Düşlerinde sarılır civanının boynuna.
Hocalı kan ağlarken battı bahtın Güneşi,
Gözlerden süzülen yaş, söndürmez bu ateşi.
Küfür tek millet olmuş; salya, sümük ve nefret…
Kocamış, yaşlı dünya görmedi böyle vahşet.
Kızıl kana boyandı Azerbaycan toprağı,
Düşürdü kahpe rüzgâr çınardaki yaprağı.
Hocalı soykırımı, tarihin yüzkarası,
Karanlığa gömüldü arzla arşın arası.
Acı dolu bir çığlıkböler kara geceyi,
Sözlerin yangınında sıtma tutar heceyi.
Gül bahçesi tarumar, karanfil boyun büktü,
Gönül coğrafyamıza hüzün ve kahır çöktü.
Ak kar'ı kefen diye giydi körpe civanlar,
Seyretti vantalistler, sonsuza koştu canlar.
Gecenin ayazında buz tuttu karanfiller,

Kanaryanın boynuna kement attı gafiller.
Hocalı yüreklerde kanayan bir yaradır,
Kıştır bütün mevsimler, bütün renkler karadır.
Karadır Karabağ'ın yürek burkan kaderi,
On yıllardır yaşarız acıyı ve kederi.
Hocalı'yı yâd eder, yaşın yaşın ağlarız,
Şehitlere yas tutar, yürekleri dağlarız.
Ölüm bahar ülkesi, bir ölür bin doğarız,
Gözü dönmüş zalimi, kanımızda boğarız!
Ufuktan pus dağılıp akan kan durulacak!..
Ermeni'nin dölüne bu hesap sorulacak!..



Zülfikar Yapar KALELİ

/TÜRKİYE;
Türkçe öğretmenidir.
Şiirlerinde genellikle hece ölçüsünü kullanmaktadır.
Çile, aşk, ülkü, özlem, edep, zamanın kötülüğü…
konularını şşirlerinde ağırlıklı olarak işlemiştir.
Şimdiye kadar 10 kitabı gün yüzü görüp./

TURNALARI YOLA SALDIM

Hayali el eder, görmez hamisi
Düştüm, sığ sularda kaldım bu gece.
Rotasız yol alır hasret gemisi
Turnaları yola saldım bu gece.

Bir yanın dost olur, bir yanın çalık
Bir yanın dikenli, hırçın, kayalık…
Bir yanın oltayı bekleyen balık
Ay serdin düşüme soldum bu gece.

Türküleri ısmarladım Eğine,
Geceler buz tutar senin neyine.
Kolunu yastık et müdür beyine,
Hasretler hayırsız, bildim bu gece.

Bir Anka kuşunun eşine bindim,
Yalçın kayalardan sahraya indim.
Seni bende bulmak için didindim,
Nefessiz nasihat aldım bu gece.

Mavi hasretimdir, denize bakmam
Suları yakarım, sarıyı yakmam.
Ne derse yaparım sözünden çıkmam
Hep döndüm dolaştım öldüm bu gece.

Bir düşersen tutan olmaz sözünü
Kargayı besle ki oysun gözünü.
Bu karganın şeytan görsün yüzünü
Bazı çizgileri sildim bu gece…

Anlamam bu gece nedendir gülmem
Ben seni tanımam, ben seni bilmem.
Uzaktan el eder, yanına gelmem
Sayende kurdeşen oldum bu gece.

Bilmez boranımı, görmez karımı
Bu gece de taşa çaldım arımı.
Her gece huzursuz uykularımı
Bir sana bir bana böldüm bu gece.

Kartala yolladım düşleri sensiz
Sevdalara nakış işlerim sensiz.
Serçe parmağımı dişlerim sensiz
Karabağ'a gidip geldim bu gece.

DURMUŞ KAYA

/Yitik Ozan;
TÜRKİYE,
(Keçiborlu –) İsparta doğumlu şairin şiirleri, birçok hatırı sayılır dergilerde yayımlandı. Bestelenen bazı şiirleri TRT Repertuarına girdi./

AL GÖZÜM, SEYREYLE SENİ

Kaşlarında bir gizem var
Ay düşüyor çattığın zaman.
Ben uçuyorum uçurumlara!
Gözlerinde
elayimsema bir deniz
Akdeniz desem, değil..!
Hazar desem,
Hazar…
İçimi tutmuş bir ah-ü zar!

Bir yanım apaydınlık
Bir yanım katrankara!
Garabağ'ı yadeller
Eylemiş pazar!

Gözlerinde bir gizem var
Gül döküyor güldüğün zaman
Amandır ben başımı
Gömüyorum kumlara!
Bende ne eski bahar,

Ne eski beniz
Hastayım desem değil!
Nazardır, nazar..
İçimi tutmuş bir ah-ü zar!

Al gözüm seyreyle seni
Gör içimde eseni
Gerilmesin uca dağlar!

Nasıl nece bizim eller
Bülbüllerim kara bağlar
Yastadır desem değil!
Gurbet elde gölgelerim
Uzardır uzar..
Bağlarımda gül ve nar!
İçimi tutmuş bir ah-ü zar!

Duruşunda bir gizem var
Sevdanın okunu çattığın zaman,
Amandır aman! ...

Dr. **Nedim UÇAR**
/TÜRKİYE;
Nevşehir ili Hacıbektaş ilçesine bağlı Köşektaş köyü'nde doğdu. Ankara Üniversitesi'nde okudu.
Bu güne kadar biri roman, biri hikaye, dördü tiyatro eseri olmak üzere 20 kitap çıkartmıştır./

AZERBAYCAN! KARABAĞ!

Güney Kafkasya'nın orta yerinde,
Sular coşkun akar Azerbaycan'da.
Dört mevsim yaşanan ilk seherinde,
Güller başka kokar Azerbaycan'da.

Doğusunu kaplar Hazar Denizi,
Mavi sularında, Türklüğün izi,
Dostlar güler yüzle karşılar sizi,
Yol Bakü'ye çıkar Azerbaycan'da.

Volkanik yaylalar, sıralı dağlar,
Kur nehri taşar ve Sarısu çağlar,
Bozkır yamaçlarda bozulur bağlar,
Deltaya sis çöker Azerbaycan'da.

Uzayıp giderken Gence'nin düzü,
Sarı çiçek açar, Şemkir'in güzü,
Tovuz'un sıcağı sarar gündüzü,
Şafak erken söker Azerbaycan'da.

Mimari yapıtlar, oymalı taşlar,
Tarihi sanatla, kültürle başlar,
Yuvayı ararken göç eden kuşlar,
Diller sevgi eker Azerbaycan'da.

Yan yana süzülür; ayla yıldızım,
Birlikte kutlanır baharım, yazım,
Karabağ içimde dinmeyen sızım,
Hocalı ah çeker Azerbaycan'da.

Hakan İlhan KURT

/TÜRKİYE;

Afşar boyundan bir babanın çocuğu olarak Tarsus'ta doğdu.

2002 yılında Niğde Üniversitesi'nden mezun oldu. Çeşitli yerel edebiyat dergilerinde birçok şiiri yayınlandı. "Gülizâr Divânı", "Köl Tigin Ünlemesi", "Kutalmışoğlu Süleymanşâh Ululaması" isimli kitabları gün yüzü görüp. Gaziantep'te yaşamaktadır./

MÜBARİZ-NÂME

Turan Coğrâfyası'nın mukaddes evladı Mübariz İbrahimov'a…

Ala gök yâkutlara, haktan düşer mi mariz;
Serilsem koyaklara, kay vurur mu oluğu?
Ey civan gövdesiyle tuğ kaldıran Mübariz,
"Ben er doğurdum!" diyen analar hiç ağlar mı?
Şânınla alazlarken, onbin yıllık soluğu,
Yürek, volkan olur da dağlar kara bağlar mı?

O dövrki danışıqlarla erməni əsir və girovluğundan 1500-dən çox azərbaycanlı azad edilib. Ancaq onların qarşılaşdığı zorakılıqlar dinc dövrdə yaxşı həyata heç bir perspektiv vəd etmir. İşgəncələrin ən ağır növlərini yaşayan bu insanlar müxtəlif psixoloji xəstəliklər keçirmişlər.

Arasıkəsilməz hərbi əməliyyatlardan, gözlənilməz cinayətlərdən və terror olaylarından sonra yerli azərbaycanlılar ölkənin digər rayonlarına üz tutmalı olmuşlar. Azərbaycan hökuməti xüsusi proqram hazırlamış, bu problemlə məşğul olan dövlət komitəsi yaratmış, məcburi köçkünlər üçün yeni yaşayış qəsəbələri təşkil etmişdir. Dövlət dəstəyi ilə yeni yaşayış məntəqələrinə köçən əhali getdikcə artır.

Gördüyümüz kimi, Dağlıq Qarabağ məsələsi ilə bağlı situasiyanın çoxu bizə tanışdır. Əlbəttə, qonşu, qardaş ölkənin nələr çəkdiyini anlamaq bizim üçün ağırdır.

Qafqazda baş vermiş olaylardan dərs götürə bilərik. Bir sıra situasiyalar Qazaxstanın “siyasi iqlimi” ilə oxşardır. Bununla bağlı ola bilər ki, gələcəkdə yazım.

Biz qardaş türk xalqı olan Azərbaycan xalqının məsələsi ilə bağlı fərqli baxış bucağı təqdim edirik. Bundan başqa, Azərbaycan dilindən qazax dilinə birbaşa tərcüməni gerçəkləşdirən çox nadir mütəxəssislərə rast gəlinir. Bu sahədə ünsiyyət rus dili ya da Türkiyə türkcəsi ilə qurulur. Bununla da biz, Azər-

baycan xalqına (bir dil, bir ləhcə ötəsindən...) fərqli münasibət göstəririrk...

Bu il Dağlıq Qarabağda münaqişənin alovlanması hamıya aydındır (red: aprel döyüşləri). Bu insidentdən sonra Qazaxıstanın mövqeyi Azərbaycan xalqına yeni impuls vermiş oldu. Biz bunu "Qəlbdəki və qələmdəki Qarabağ" layihəsi çərçivəsində görüşlərdən, qardaş xalqın paytaxtı Bakıdan Xəzərin digər sahilinə qayıdarkən aydın hiss etdik.

Azərbaycanın xalqı kimi Qazaxıstana qardaş bağlılığı, göstərilən sayğını hiss etmək çətin deyildi.

İnanırıq ki, Qarabağ hər bir türk xalqının nümayəndəsinin könlündə özünə yer tapacaq; Türk Dünyası inteqrasiyasının XXI yüzilin formalaşmış yeni dalğası çərçivəsində "birimiz hamımız, hamımız birimiz üçün!" prinsipi ilə yaşamaq mümkün olacaq!

(Əfsanə ƏLƏSGƏRLİ *çevirib.*)

Narsuluu QURQUBAY
/QIRĞIZ Respublikası;
OŞ şəhərində doğulub.
Yeni nəsil qırğız şairləri arasında tanınan imzalardandır. Hazırda Moskvada yaşayır./

*BAKI ÜÇÜN ŞEİR**

Yaxşı gördüm, yaxın gördüm mən səni,
Sən, ey dəniz rəngli, rüzgarlı şəhər..!
Eşqin dalğalanır rüzgarlar boyu,
Şərqin söylənilir neçə dillərdə...

Dəniz şərqisini zümzümə edən,
Yolun – dəniz, dümdüz göyə bağlanar.
Sıyah gecə, zülüm və üzüntüdə,
Dəniz səni varlığıyla qucaqlar...

Mən sənilə dəniz olub, dəyişdim,
Qəlbimdə özgürlük eşqi oyandı.
Göz yaşından, sorunlardan doysan da,
Sevdim sənə doğru gələn yolları...

Sevdim və
doğmalıq duydum mən sənə,
Sən, ey dəniz rəngli, rüzgarlı şəhər...

(**Ə.QOŞALI** *uyğunlaşdırıb*)

* Şair bu şeiri "Qəlbdəki və qələmdəki Qarabağ" layihəsi çərçivəsində ilk dəfə Bakıya səfər etdikdən (4-9/VI/2016) sonra yazıb

Kaliça JAKIP
/QIRĞIZ Respublikası.
NARINda doğulub. K.İ.Skryabina ad. Qırğız Milli Aqrar Universitetinin məzunudur.
Qırğız Respublikası, Qazaxıstan və Azərbaycanda keçirilmiş şeir şölənlərində uğurla iştirak edib.
"Eyforiya" adlı şeir kitabı gün üzü görüb(2015)./

AĞLAMASIN ANALAR...

Azərbaycanın Qarabağ səhidlərinin analarına…

Ağlamasın analar, analar üzülməsin,
Acı, hüzün pozmasın könüllərini…
Nur saçan bənizlər heç soluxmasın,
Ağılarla qaralmasın gül ömürləri…

Qoy insanlıq qalib gəlsin yenə də,
Barış olsun, açılmasın güllələr.
Baxışından sevgi daşan insanların
Gözlərindən acı yaşları axmasın…

Damlatmış kimi yaraya qurşunları,
Tartışmalar, savaşlar olmasın!..
Anaların qəlbi qaralmasın,
Bütün dünyaya barış gəlsin!

Acı çəkərək analar üzülməsin
Pis ruhlular yağa atəş atmasın.
Heç bir ana ağlayıb-sızlayaraq
Oğullarınnan belə ayrılmasın!

Acı və hüzün ömürləri əskitməsin
Ağlamasınlar analar, çəkməsinlər acıları...

(**Ə.QOŞALI** *uyğunlaşdırıb*)

Mahfuza ORTİQOVA
/Mahfuza Rövşən qızı Ortiqova***;***
1986-cı il DAŞKƏNDdə doğulub. Özbəkistan Dövlət Xarici dillər Universitetində (ÖDXU) bakalavr və magistr təhsili alıb. 2014-cü ildən ÖDXU-nun müəllimdir. 5 xarici, 20-dən artıq yerli elmi topluda, 80-dən artıq Özbəkistan qəzet və dərgisində yazıları çap olunub./

BAKIYA GETMƏKÇÜN 11 SƏBƏB...

Azərbaycanın paytaxtı Bakı insan həyatında bir dəfə olsa belə getməsi lazım olan şəhərdir, məncə. Hər kəs bir ölkə və ya şəhərə getmək üçün, onu görmək və təkrar gələ bilməkçün səbəb axtarır.

Mənim Bakıya ilk səfərim iş üçün olmasına baxmayaraq, özümü bu şəhərə yenə səyyah olaraq gəlməyə "məcbur" hiss etdim. Bakıya tez-tez getmək üçün isə aşağıda göstərilən səbəblər yetərlidir:

İlk öncə, gülərüzlülük və qonaqpərvərlik! Bir ölkəyə xarici səyyahlar, qonaqlar gələndə onların bu ölkə haqqında ilk təəssüratının hava limanından başlaması təbiidir. Heydər Əliyev adına Bəynəlxalq Hava Limanı isə sanki mötəbər qonaqları qarşılamaq üçün hazırlanmış kimidir. Təyyarədən enib, hava limanına addım atan kimi xalı döşənən, geniş, aydın terminalı görüb, könül zövq alır.

Nəzarətçilərin nəzakətliliyi, onların özbəkçəyə bənzəyən Azərbaycan dilində "Ölkəmizə xoş gəldiniz!" deməsi insanı o qədər məmnun edər ki, verilən suallara yorulmadan cavab verir, baxmamızı xahiş etdikləri kameraya yaxın dostunuzla şəkil çəkdirirmiş kimi gülümsəyirsiniz...

Hava limanında başlanan gülərüzlülük və qonaqpərvərlik Bakıda keçən bir neçə gündə də davam edər... Küçədə gəzərkən, müştərilərin diqqətini çəkmək üçün çölə çıxan kafe işçiləri təkcə öz ictimai iaşə xidmətlərini təklif etmədən, bəlkə sizin haradan gəldiyinizlə, adınızla maraqlanar, üstəlik: "qonağımız olun", "sizi qonaq etməyə şad olluq", "baş üstə..." kimi sözlərlə sizə sevinc bəxş edərlər. Hələ, Özbəkistan adını eşidəndə, ayrı bir sayğı ilə baxırlar. Belə davranan insanları olan ölkəyə necə getməyəsiniz?!

Bakıya gedən adam "İçəriŞəhər"i görməzsə olmaz..! Burada yerləşmiş, "göy altında açıq muzey", dar amma gözəl küçələr, tarixi abidələr, sənətkarlıq əşyaları... xariciləri özünə heyran qoyur. 2000-ci ildə Qız Qalası və Şirvanşahlar Saray Kompleksi ilə birlikdə UNESCOnun "Ümumdünya irsi Siyahısı"na daxil edilən bu abidə, insanı xəyalən tarixə götürür. Mən İçəriŞəhərdə özümü Xarəzmdəki kimi hiss etdim. Azərbaycan milli paltarları, hələ kişilərin papaqları... mənə Xarəzmin "Çugirma"sını xatırlatdı.

Küləklər şəhərinin sahil boyunda yerləşmiş Qız Qalasına aid əfsanələr çoxdu. Onların çoxu Qız Qalasındakı qız sözüylə bağlıdır. Əfsanədə belə danışılır:

Bir qız varmış. Bu qızı Arazın o tayından bir xan öz oğluna almaq istəyirmiş. Xan neçə dəfə elçi yollayır, qızın "hə"sini ala bilmir. Xan xəbər göndərir ki, qızı xoşluqla verməsəniz, gəlib zorla alacam. Qızın qardaşları bir qala tikdirirlər. Neçə ilin azuqəsini yığıb, yerin altıyla su çəkdirib, qalada yaşamağa başlayırlar. Xan qoşun çəkib gəlir, nə qədər eləyir, qalanı tuta bilmir. Bir qoca, xana deyir ki, "odunun yolunu, suyun yolunu kəssən, qalanı ala bilərsən". Xan qalanın odun yolunu kəsir. Qızın qardaşları odun yerinə

silahların ağac hissəsini, ağac əşyaları yandırırlar...

Xan nə qədər eləyir, qalanın su yolunu tapa bilmir. Qoca deyir:

– Gedin bir qatıra o ki var arpa yedizdirin, amma su verməyin. Aparın qalanın dörd bir yanını dolandırın, qatır harda ayağını yerə döysə, su yolu ordadı.

Elə də eləyirlər; qatır ayağını döyən yeri qazıb, qalanın suyunu kəsirlər, qızı götürüb aparırlar…

Bakının yenə bir ünlü yeri Fəxri Xiyabandır. Burada Azərbaycanın ünlü dövlət xadimləri, siyasətçiləri, mədəniyyət, sənət, təhsil, ədəbiyyat xadimləri dəfn olunub.

…Bu şəhəri görməkçün 5-ci səbəb – "Alov qüllələri" kompleksidir. Üç çoxqatlı binadan ibarət bu kompleks, çağdaş memarlığın möhtəşəm örnəyidir. Şəhərin hər tərəfindən görünən bu kompleksə axşam baxmaq daha huzurvericidir. "Alov Qüllələri" işıqlandırılma üzrə birinci yeri tutur. Üstündə animasiya mənzərə vermək üçün hər üç "qüllə" bütövlükdə "ekran"larla örtürülüb. Animasiyalı mənzərədə **Azərbaycan bayrağını tutan oğlanın şəkli çıxır. Bunu da azərbaycanlıların Vətənə olan sevgisinin nümayişi olaraq qəbul etdik.**

Azərbaycanın ünlü xalıları ölkəyə gəlməkçün 6-ci səbəbdir. Bu xalıların başqalarından fərqi onların yüksək növü, hətta asfalt üstünə döşənəndə belə özünün gözəlliyini itirməməyindədir. Qız Qalasının yanında kiçik körpü var ki, onun üstü və ətrafına Azərbaycan xalçaları döşənilib. Xaricilər onu basmamaqçün qırağından keçər... Azərbaycanlılar isə onun üstündən ayaqqabılarla keçərlər. Bu adət əslində xalçanın "xüsusiyyət"lərini göstərməkçündür. – Yəni Azərbaycanda ən yaxşı xalça Günəşdə çox qalmış,

çox basılmış və isti daşın üstündə qalan xalçalar sayılır...

7-ci səbəb, Azərbaycanın ləziz, şirin yeməkləridir. Siz çətin ki, bu yemək**ləri** görüb dadmayasınız. Dadı özbək yeməklərinə bənzəyən Azərbaycan yemək-lərini unuda bilməyəcəksiniz. Hələ ətdən bişirilən yemək**ləri** möhtəşəmdir..!

"Чёрт побери"... – Sovet dönəminin insanları üçün bu deyim Bakını xatırladır və "Almaz əl" fil-mindəki, dillər əzbər bu deyim, şəhəri görmək üçün 8-ci səbəbdir. Azərbaycanda çəkilən "Amfibiya adam", "Qayınana", "Arşın mal alan" filmləri Özbə-kistanda çox ünlü olsa belə, amma İçəriŞəhərdə Yuri Nikulini xatırladan yer turistlər üçün ən maraqlı yerdir...

9-cu səbəb, Bakı metrosunun memarlığı və na-xışlarıdır. Daşkənd metrosuna bənzəyir. Başqa öl-kələrdə metro sadəcə əhali üçün yol vasitəsi kimi nəzərdə tutulsa da, Bakı metrosuna sənət əsəri də deyə bilərik.

Ticarət mərkəzləri, bazarlardakı satıcılar, onların zarafatlı danışmaları 10-cu səbəb ola bilər. Oradakı müxtəliflik turistlər üçün hər vaxt maraqlı olub.

Bakı küçələrini yorulmadan gəzməyə 11-ci səbəb Bakı küləyidir. Hətta yayın isti günlərində küləyin sərinliyi insanı rahatladır.

Əslində Bakıya getməkçün bir çox səbəb var; amma bu şəhərə getməyə səbəb axtaranlara yuxarıda söylənən 11 səbəb də yetərlidir, deyə düşünürəm...

(ŞAHİSTƏ* və Sərvər Kamranlı *uyğunlaşdırıb)

Şahistə ARTIQOVA
/ÖZBƏKİSTAN;
5 avqust 1992-ci ildə Daşkənddə doğulub.
İlk şeirlər kitabı 2011-ci ildə gün üzü görüb.
Universitet illərində "Kamolat Gənclər Təşlikatı"na üzv olub. Hazırda Azərbaycan çağdaş ədəbiyyatından örnəkləri özbək dilinə çevirir.
DGTYB-nin üzvüdür./

VƏTƏNİMƏ BƏNZƏYƏN VƏTƏN

Siz heç ananıza bənzəyən qadın gördünüzmü həyatınızda? – Gülüşü, danışığı, gözləri və hətta qoxusu da ananızı xatırladan bir qadın... İnsan belə birisiylə qarşılaşdığında sevincindən uçar, bərk-bərk sarılmaq, uzun-uzun danışmaq, əllərindən tutub öpmək istər... Nəfəsi hüzur, qoxusu sərinlik gətirər, dərdlə alışan ürəklərə...

Vətən də bir anadır, ondan uzaqlara gedincə ürəyiniz həmişə narahat olar. Elə ki ürək o zaman ruzgar kimi əsib torpağına sarılmaq istər...

...İlk dəfə Azərbaycana dəvət ediləndə bir az tərəddüd etdim. Uzaq bir ölkə, hələ mənim bilmədiyim bir dil, tanımadığım insanlar... Ancaq Azərbaycan haqqında heç bir fikrim olmasa da, sanki könlüm quşu ona doğru uçurdu.

Azərbaycan torpaqlarına ilk addım atdığım an düşüncələrimin məni aldatdığını, məhz könlümə damanların daha doğru olduğunu hiss etdim. O, "yad" dediyim ölkə, "bilmədiyim" dil, "tanımadığım" adlandırdığım insanlar artıq mənə dos-doğma gəlməyə başlamışdı. Orada Vətənimin qoxusu, ölkəmin istiliyi, doğmalığı vardı. Gülərüzlü insanları, onların sevgi

dolu gözləri "Xoş gəldin, bacım" deyə gülümsəyirdi. Asiyanın incisi olan gözəl Bakının küləkləri saçlarımı oxşayır, Xəzərin coşqun dalğaları məni özünə aşiq edirdi...

Ruhumu bürümüş inanılmaz bir hüzur özümü xoşbəxt hiss etməyimə səbəb olmuşdu. Sanki uzun bir ayrılıqdan sonra darıxdığım anama sarılmış kimiydim. Anamçün darıxarkən, ona bənzəyən başqa birisini tapmağımla, onunla uzun-uzun danışıb həsrəti yox etmiş kimi hiss edirdim özümü...

Bakının hər addımında yeni xatirələrə qovuşurdum.

***

Gözəl yerləriylə birlikdə acıların, göz yaşlarının şəhərinə dönmüş Bakı bağrı qanla dolmuş, qəlbinin ortasına övladlarını dəfn etmiş məyus, günahsız ana kimi titrəyirdi...

Şəhidlərinin soyuq məzarları ürəyinə bıçaq kimi saplanmışdı. Xəzər Dənizi fırtınalarıyla hüznlərdən gücü qalmayan Azərbaycanın fəryadını anlatmağa çalışırdı. Namərdlərin əlində əsir qalan, alçaqların zəncirinə vurulan Azərbaycan övladlarından danışırdı..! Qanlı keçmişinin qara bağlarından pıçıldayır, əsir qalmış Füzuliyə adı verilmiş ustad şairin qəmli qəzəllərini oxuyurdu dəniz...

Bu ölkənin sevinci də, acısı da, xoşbəxtliyi də, hüznü də qəlbimi dindirirdi. Anam kimi sevdiyim bu ölkə məni buraxmaq istəmirdi, ondan daha ayrılmadan darıxmağa başlamışdım. Ayrıldığım andan artıq mənim hayatıma yeni bir hiss, Azərbaycan həsrəti girdi..!

Azərbaycanda keçən hər günüm ömrümün unudulmaz, dəyərli anlarına dönmüşdü. "Azərbaycan ne-

cə idi? deyə soruşanlara nə desəm, necə izah etsəm.?!

Mələklərə həsr olunmuş şeir kimidir Azərbaycan... Göz yaşlarında boğularkən başqasının gözlərindən axan yaşları silən əl kimidir Azərbaycan... Sevdiyi üzülməsin deyə titrəyən dodaqlarıyla gülümsəyən yar kimidir Azərbaycan...

Bakı küləkləri ilə yanan qəlbləri sərinlədən, Gəncəsiylə elm incilərini saçan, Şəkisiylə insanların həyatını dadlandıran, Qarabağıyla milyonları gözyaşlarına boğan, sevgisiylə özünü özlədəndir Azərbaycan..!

(**S.KAMRANLI** *uyğunlaşdırıb*)

Muhammatemin TÖHLİYEV
/ÖZBƏKİSTAN;
Daşkənd Dövlət Doğu Bilimləri Universitetinin məzunu, araşdırmaçı-yazar, tərcüməçi. Onun tərcüməsində "Özbək öykülərindən seçmələr" Türkiyədə dərc olunub./

İKİ QARDAŞ ÖLKƏ – AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN İLİŞKİLƏRİNƏ BİR BAXIŞ

Özbəkistan və Azərbaycan, xalqlarının kökü bir olan iki ölkə, iki dövlətdir. Bu iki ölkə iqtisadiyyat, siyasət, mədəniyyət, ədəbiyyat və başqa sahələrdə də bir- birinə dəstək olmuşlar. Dil, din, millət olaraq eyni gələnəkləri daşıyan bu iki xalq arasındakı bağ, illər keçdikcə daha da güclənir. Özbəkistan prezidenti İslam Kərimov Azərbaycan prezidenti İlham Əliyevi Respublika Günü münasibətilə təbrik etmişdir. Təbrik məktubunda

"*Hörmətli İlham Heydər oğlu,*

Azərbaycanın milli bayramı - Respublika Gününü təbrik edirəm!

...Rəhbərliyinizlə yürüdülməkdə olan siyasi fəaliyyət və islahatlar Özbəkistanda da eynilə izlənilməkdədir. Bəhs edilən islahatlar Azərbaycanın beynəlxalq arenada etibarının daha da güclənməsini təmin edəcəkdir" ifadəsini işlətmişdir.

Təbrik məktubunda İslam Kərimov Özbəkistan ilə Azərbaycan arasındakı qardaşlıq münasibətlərinin qarşılıqlı güvən və sayğı təməlində qurulduğunu vurğulamaqla yanaşı, qarşılıqlı münasibətlərin inkişaf etdirilməsinin hər iki ölkə üçün yüksək səviyyədə

yararlı olacağını bildirmişdir.

Bütün dünya ölkələrinin xəbəri olan amma etiraf etməyə çəkinmiş olduğu Qarabağ mövzusunda Özbəkistan hər zaman Azərbaycanın yanında olmuşdur. BMT-də olan toplantılarda Özbəkistan Qarabağın Azərbaycan torpağı olduğunu vurğulamış və bu müharibənin sülhlə həll edilməsi lazım olduğunu önə çəkmişdir.

Qarabağ Azərbaycanın ürəyindəki acıdır. Orada minlərcə məsum Azərbaycan türkü qətlə yetirilmiş və bir çoxu evsiz qalmışdır...

100 il öncə bugünkü Ermənistan torpaqlarında Azərbaycan türkləri yaşayırdı, Rusiyanın yardımıyla ermənilər tərəfindən yox edildilər...

1992-ci ildə Azərbaycan Respublikası parlamenti Qarabağın muxtar vilayət statusuna son vermiş, normal bir bölgəyə çevirmişdir. 2016-cı il etibarıyla hələ Azərbaycan torpaqlarının 20 %-i erməni işğalı altındadır. Qarabağın erməni işğalından qurtarılması üçün beynəlxalq görüşlər davam etməkdədir.

Azərbaycan və Ermənistan müstəqil olduqdan sonra da Rusiya Ermənistana yardıma davam etdi. Ermənilər xarici dəstəklə Azərbaycan torpaqlarını, Azərbaycanın bir parçası olan Qarabağı işğal etdilər. Yüzlərlə məsum Azərbaycan türkünü öldürdülər...

...SSRİ dövründə Azərbaycan və Özbəkistanda kiril əlifbasını məcbur edən Rusiya, ermənilərə "öz əlifbaları"nı istifadə etmək icazəsi vermişdi.

Bu an Qarabağ mövzusu hələ böyük problem olaraq qardaş Azərbaycanın qarşısında durur. Özbəkistan və Azərbaycan prezidentlərinin görüşlərində bu mövzu geniş danışılır və Özbəkistan prezidenti İslam Kə-

rimov Azərbaycan torpağının bütöv və bölünməz olduğunu, bununla birlikdə Qarabağın Azərbaycanın olduğunu və bunun hər zaman belə qalacağını vurğulamıştır:

"*Biz Qafqazda sülh olmasını, heç qan tökülməməsini istəyirik.*

Biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq.

Biz sülh üçün qərarlıyıq." – deyir İslam Kərimov.

Bundan bəlli olur ki, Azərbaycan və Özbəkistan müstəqillik günündən bu yana hər addımda bir- birlərinə dəstək olmuşlar. Özəlliklə dil və ədəbiyyat mövzusunda da bu iki ölkə, iki xalq arasındakı münasibətlərin ayrıca yeri var.

Ətlə dırnağı ayırmaq olmaz. Azərbaycan və özbək dilləri də belədir. İki qardaş millətin münasibətlərinin zaman keçdikcə inkişaf etməsinin səbəbi də iki dilin bir-birinə uyğun olmasındadır.

Bizim gələcəkdə dədələrimizin yolundan gedərək bu işləri sürdürməmiz lazımdır.

Məsələn, tarixə baxsaq, Nizami Gəncəvini Nəvai öz ustadı bilmiş və eyni zamanda Füzulinin də Nəvaidən bəhrələndiyini deyə bilərik.

Ünlü özbək yazarı Abdullah Kadiri "Ŭtkan kunlar" ("Keçmiş günlər") tarixi romanında Füzuli qəzəllərini ayrıca sevgiylə dilə gətirir.

Əslən Azərbaycanlı olan, əsərlərini isə Özbəkistanda yazan Maqsud Şeyxzadə, özbək-sovet ədəbiyyatının tanınmış bir şairidir. Maqsud Şeyxzadə Daşkənd şəhəri haqqında "Toshkentnoma" ("Daşkəndnamə") lirik dastanını yazıb. O, "Mirza Uluğbek" adlı pyesində böyük özbək astroloqu ve padşahı obrazını istedadla yaradıb.

Maqsud Şeyxzadə iki millət arasındakı ədəbi körpü

olub.

Son zamanlarda özbək mətbuatında ən çox dərc olunan "xarici ölkə" ədəbiyyatı Azərbaycan ədəbiyyatı olub. Bunun səbəblərindən biri də, Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzinin aktiv fəaliyyətdə olmasıdır. Özbək tərcüməçiləri tərəfindən tərcümə edilən Azərbaycan ədəbiyyatı örnəkləri "Cahan ədəbiyyatı" ("Jahon adobiyotı") dərgisində və "Kitab dünyası" qəzetində dərc olunmaqdadır. Qəzet və dərgilər vasitəsiylə bu gün Azərbaycanın gənc yazarlarını özbək oxucuları tanımaqda və sevərək oxumaqdadır. Bu isə ölkələrin hər sahədə bir-birinə daha yaxın olacağı anlamına gəlir.

(**Y.NAZİM ƏRƏBSOY** *uyğunlaşdırıb*)

Yasir RƏŞİD
/ƏFQANISTAN;
Hazara türklərindəndir.
Hazırda Əhməd Yəsəvi ad. Uluslararası
Qazax-Türk Universitetində
2-ci təhsil alır. Türkcə, qazaxca, rusca,
ingiliscə və farsca bilir./

QARABAĞ PROBLEMİ:
AZƏRBAYCAN QAFQAZDA QALICI BARIŞIN TƏRƏFDARIDIR

Köhnə Sovetlər Birliyinin sınırları içində Qafqaz bölgəsindəki gərginlik, müzakirə və döyüşün səbəbi 50 fərqli etnik-məzhəb qrup və fərqli dinlər, dini görüşlər arasındakı qarşıdurmalar və uyuşmamazlıqlardır. Sovetlər Birliyinin dağılmasının ardından Qafqazda etnik qarşıdurmalar və böhranlar oldu. Bir çox elm adamlarının fikrincə XXI yüzil də, ötən yüzildə olduğu kimi qarşıdurmalar və etnik çaxnaşmalarla keçəcək və bəlkə gələcəkdə etnik və şəxsiyyət böhranı yayılacaq; uluslararası system, siyasi təhlükəsizlik, qarşıdurmalar və inkişaf məsələləri ilə daha çox qarşı-qarşıya gələcək. Bu xəbərdarlığı qəbul etsək, Sovetlər Birliyindən qopmuş respublikalar və özəlliklə Qafqaz bölgəsində müxtəlif yönləriylə iş üçün xeyli mövzu mövcuddur.

Qarabağ haradadır?

Dağlıq Qarabağ bölgəsi, Güney Qafqaz bölgəsində, Azərbaycan torpaqlarında yerləşir. Qarabağ uzaq keçmişdən bugünə qədər ən müxtəlif səbəblərlə Qaf-

qazın önəmli mövzusuna sahib olmuşdur. Bu ad iki kəlmədən, “Qara” və “Bağ” sözlərindən törəmişdir. Türkcə “Qara” sözü “qara” və “böyük”, “Bağ” isə “bağ/bağça” anlamındadır.

Bu səbəblə, harada böyük və bərəkətli bir bağça varsa və ağacların yaşıl rəngi qaraya doğru olsa, Qarabağ deyilər. Bu ad, yanılmıramsa, ilk dəfə XII yüzilə aid sənədlərdə göstərilib. Buna əlavə olaraq, ilk insanların ən köhnə məskunlaşma yerlərindən biri olan AZIX mağarası Dağlıq Qarabağın dağlarında tapılmışdır.

Dağlıq Qarabağ strateji mövqeyi səbəbiylə uzun zamandan bəri, bölgədəki etnik qruplar arasında bölgə və məzhəb qarşıdurmaları, siyasi-ideoloji dartışma səbəbi olaraq qalmaqdadır. Kommunist rejim dövründə Qarabağ bir çox dəyişikliklər yaşadı və onun hamısı, dağlıq hissəsi də muxtar vilayət olaraq Azərbaycan Respublikasına bağlı idi. Dağlıq Qarabağı “muxtar vilayət” edənlər o zamanın Moskvadakı və Azərbaycan Sovet Respublikasındakı yüksək rütbəli ermənilər və erməni tərəfdarları idi... Məqsədləri isə bir müddət sonra ətraflardan daha çox erməni yığıb, o bölgəyə köç etdirərək, erməni əhalisini çoxaltmaq, bölgəni “Ermənistan Respublikası”na qatmaqdı (ki, Ermənistan özü də köhnə İrəvan və digət Azərbaycan xanlıqlarının, yəni Azərbaycanın ərazisi olub).

Rusların da istəyi, Qafqazyada “tampon bölgə” yaradaraq, istədiyi zaman o bölgələrdəki ölkələrə müdaxilə edə bilməkdi. (Qeyd: Eyni corab Gürcüstanın başına da hörüldü…)

Bu tarixdən etibarən, yəni 1923-cü il Dağlıq Qarabağ üzərindəki suverenlik üçün mübahisələr günü

gündən alovlanacaqdı... Qarabağ Azərbaycana aid olsa da, ermənilər onlara aid olduğunu iddia edirlər və bu iddianı "sübuta yetirmək"çün öz "səbəbləri" var.

Qarabağ problemi SB dağılma müddətinə girincə daha da gərginləşdi və "Ermənistan Respublikası" ərazisində olan dədə-baba yurdlarından yüzminlərlə azərbaycanlının zorla didərginə çevrilməsi başladı…

Hərçənd bu didərginlik 1905, 1918, 1923 və 1948-ci illərdə də yaşanmışdı… (bu tendensiya 1945-ci ildə daha da gərgin hal alaraq, 1953-ci ilə qədər öz şiddətini saxladı… Bu məsələlər olduğundan Güney Qafqaz bölgəsi, özəlliklə Dağlıq Qarabağ bölgədəki Azərbaycanlılar və ermənilər arasında etnik-bölgə(çi) qarşıdurmalarla müşayiət olundu.

SB-nin son lideri M.S.Qorbaçov hökuməti dövründə, 1988-ci ildə etirazlar başladı, amma rəsmi olaraq 1990-ci ilin başında köhnə SB-nin süqutundan başda Azərbaycan və Ermənistan kimi ölkələrin müstəqilliyə qovuşması sonrası Dağlıq Qarabağda hərbi qarşıdurmalar açıq hal aldı; 1994-ci ildə hər iki tərəfdən minlərlə adamın öldürülməsindən sonra keçici olaraq dayandı. İllər keçdikcə iki ölkə, Azərbaycan və Ermənistan, Dağlıq Qarabağ münaqişəsində atəşkəs qəbul etdilər, amma əsla qalıcı bir barış qəbul etməmişlər. Keçici atəşkəsə də yalnız bir tərəf əməl etmişdir, o da hamımızın bildiyi kimi Azərbaycan tərəfidir.

Qarabağ problemi həm Azərbaycan və həm Ermənistan üçün humanitar və maliyyə itkilərinə səbəb olub və burada yenə qazanan Rusiya (və başqa xarici maraqlı güclər) oldu; çünki hər iki tərəfə silah satır(dı). Qarşıdurmaların sonucunda minlərlə ölü, yaralı və evlərindən, torpağından qovulan qaçqınlar, bir

sözlə, müharibə qurbanı insanlar oldu…

Qarabağ Azərbaycan Respublikasının rəsmi ərazisinin 20%-ni təçkil edir. Qarşıdurmasının başından bəri bu bölgə erməni işğalı altındadır.

Qarabağ problemi etnik və ya dini bir qarşıdurma deyil; bəlkə bir bölgə qarşıdurması olaraq uluslararası sistemdə siyasi dilemma halına gəlmişdir. Azərbaycan hökumətinin rəsmi bilgilərinə görə, problem sonucunda (Azərbaycan torpaqlarının işğalı prosesində) Ermənistandan təxminən 350.000 Azərbaycanlı və Ermənistanın öz havadalraının dəstəyi ilə işğal altda saxladığı Azərbaycan torpaqlarından təxminən 789.000 nəfər, öz yurd-yuvasından zorla köçürülməyə, öz torpağını tərk etməyə məcbur edilmişdir.

1988-1993 illəri arasında 30.000-dən çox adam bu qarşıdurmalarda öldürüldü, 900 yaşayış sahəsi məhv oldu, 15000 ev, 693 məktəb, 855 uşaq bağçası, 695 xəstəxana, 927 kitabxana, 9 məscid, 40.000 muzey, neçə-neçə abidə və b. mədəniyyət örnəyi sıradan çıxarıldı, dağıdıldı, dəyişdirildi, saxtalaşdırıldı və s…

Nəhayət, 2670 km.-lik yol ziyan görmüş və Azərbaycanın uğradığı ziyanlar ümumi olaraq, 300 mlrd ABŞ dollarında çox təxmin edilməkdədir..!

Bu qarşıdurmalar sonucunda Azərbaycan torpaqlarının təxminən 7 bölgəsi, yəni ölkənin təxminən 20 faizi Ermənistan tərəfindən (havadarlarının dəstəyi ilə) işğal edilmiş, bir milyondan çox insan məcburi köç etdirilmiş və hal-hazırda Azərbaycanın başqa-başqa şəhər və rayonlarında yaşayır.

Dağlıq Qarabağ müharibəsi bölgə və uluslararası sistem üçün də bir çox sonuclar doğurdu. Böyük oyunlardan tutmuş, ölkələrin işlərinə müdaxilə etməyə qədər… Bununla belə, bir çox ölkə ermənilər

tərəfindən Azərbaycan torpaqlarının yüzdə iyirmisinin işğal olduğunu qəbul edib. BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının, Avropa Birliyi, Avropa Parlamenti, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı və digər onlarla nüfuzlu uluslararası təşkilat da bu mövzuda bir çox qərarlar qəbul etdi və Dağlıq Qarabağın işğalı faktı təsbit edilib; amma bütün bu qərarlar hələ də kağız üzərində qalmış və indiyə qədər böhranı həll etmək üçün praktik olaraq edilmiş bir şey yoxdur! Ermənistana hər hansı bir sanksiya tətbiq edilməyib, Dağlıq Qarabağın işğalı məsələsi, Ermənistan tərəfindən törədilən qətliamlarla bağlı hər hansı bir məhkumiyyət, cəza yoxdur... ATƏT hələ Xocalıda (Qaradağlıda və s.) olanları soyqırım olaraq qəbul etməyib…

Gözlənilməz gələcək

Azərbaycan iki ölkə arasındakı qarşıdurmanın 24 il boyunca, dəfələrlə Qafqaz bölgəsində və özəlliklə Güney Qafqazda qalıcı bir barış istədiyini ifadə edərək hər zaman siyasi dialoq və uzlaşma yolu ilə ədalətli bir razılaşmaya hazır olduğunu ifadə edib; amma təəssüf ki, bölgədə marağı olan super güclərin haqqın yanında olmaması və xarici müdaxilə səbəbiylə müəyyən bir sonuca varılmamışdır.

Azərbaycan dəfələrlə bəyan etmişdir ki, bölgədəki problemin barış yolu ilə həllinə, dinc Qarabağ ermənilərini Azərbaycan vətəndaşı olaraq qəbul etməyə hazırdır. Azərbaycan siyasi dialoq üçün yol açmış və durumunu hazırlamışdır; amma siyasi ekspertlər bu problemin həll edilməsini istəməyən, pərdə arxasında regional və qlobal siyasətin olduğu fikirindədir. Qaf-

qazda hakim olmaq, uluslararası ticarət yolu, bölgədəki enerji və qaz məsələsi, İrandakı Güney Azərbaycan… Türkiyə-Azərbaycan əlaqələri və Türk Dünyasının məsələsi bölgənin strateji hədəflərinə əlavə edilib, Rusiya, Amerika, İran və AB kimi ölkələrin bu sahədə iştirakı üçün yol açmışdır…

Ermənistan və Azərbaycan arasındakı gərginliklər və Dağlıq Qarabağ problemi, bölgədə ermənilərin güclənməsi Güney Qafqazda Rusiya təsirinin önünü açır. Azərbaycanı qarşıdurmada saxlamaq, ölkəni tarixi vəzifələrdən kənara itələyir. Digər tərəfdən, bölgədəki nüfuzlu ölkələrdən silah və döyüş alətləri satın almaqla, böhranın əhatəsi genişləndirilmiş və bu məsələ bölgənin enerji suverenliyi, strateji siyasətlər və Qərbə neft-qaz ixracatının asanlaşdırılması mövzularını da yeniləşdirir... Qalıcı barışın təmin edilməməsi, Azərbaycanın 20% torpağının geri verilməməsi, Güney Qafqaz bölgəsində gərginliyin azaldılması yolunu bağlamış vəziyyətdədir... Siyasi dialoq müddətində bu problemə qalıcı bir çözüm və razılığa çatma ehtimalını düşünmək hələ çətin görünür…

(**Lamiyə İSAZADƏ** *uyğunlaşdırıb*)

Olqa Mixayil qızı KARASTAN
/UKRAYNA;

15 aprel 1986-cı ildə Ukraynanın Odessa vilayətinin Volnoe kəndində doğulub. 2008-ci ildən "Xəbərçi" ("Xaberci") Qaqauz bülleteninin redaktoru, Ukraynanın Qaqauz Birliyinin üzvüdür. Ukraynada yaşayan qaqauz ların dil və mədəniyyətinin inkişafı, qorunması sahəsində çalışan ictimai fəallardandır. Ukraynada yaşayan qaqauzların yaşamı haqqında yerli qəzetlərə yazır.
Əsasən ana dilində nəsr əsərləri qələmə alır./

BİZ QARABAĞ HAQQINDA NƏ BİLİRİK?

"*...Bura hardasa Ermənistan və Azərbaycan arasında mübahisəli ərazidir*" – qeyd edilən ərazidən minlərlə kilometr uzaqda yaşayan sıravi ukraynalının fikirləri təxmini bu cürdür...

Vaxt azlığı üzündən, müxtəlif (güvənli!) informasiya qaynaqlarına əlçatımlığın olmaması, bir çox nüfuzlu kütləvi informasiya vasitələrinin olayları təktərəfli olaraq, xəsiscəsinə işıqlandırması, üstəlik, bugün dünyada ərazilər uğrunda savaş və qarşıdurmaların olması sıravi ukraynalıya on illər bundan öncə keçmiş Sovetlər Birliyi respublikalarından birində baş vermiş olayları obyektiv qiymətləndirməyə imkan vermir. Azərbaycan haqqında təsəvvürümüz əsa sən isti iqlimə sahib olması, islam dini və yerli bazarlarda şirəli narlarla birgə xoşsimalı satıcılarla məhdudlaşır...

İlk dəfə olaraq Bakıya gələndə Azərbaycanın pay- -taxtı olan bu şəhər məni özünün çoxtərəfli cəhətləri ilə təəccübləndirdi: çağdaş mədəniyyət və incəsənət Doğu arxitekturasının motivləri ilə üzvi surətdə bağlıdır. Şə-

hər möhtəşəmdir! Eyni zamanda ciddidir: onda Asiya şəhərinin o qədər də gözə çarpmayan kiçik ticarət səs-küyü var, onda barışsevərlik və "vaxtla ayaqlaşan" həyat təəssüratı yaranır...

Dış sakitlik və rifah öz yerində, ancaq ən önəmlisi odur ki, şəhər bura gələn əcnəbilərə öz xalqının çəkdiyi əzablar barədə ehtiyatla bilgi verir, azərbaycanlılara edilən haqsızlıqları unutmağa qoymur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın 7 rayonunun işğalı ilə sonuclandı. Çoxlu yaşayış məntəqəsinin, binaların, sosial-mədəniyyət obyektlərinin, hidrotexniki və kommunikasiya qovşaqlarının dağıdılması, itirilmiş kənd təsərrüfatı imkanları ilə birgə ölkəyə 300 milyard ABŞ dollarındn çox maddi ziyan vurulub..!

Eyni zamanda yetmiş mindən çox insanın ölümü, yaralanması, əlil olması və bir milyondan çox sakinin məcburi köçkün statusu alması insanın bu olaylara laqeyd qalmasına imkan vermir...

Şəhər ehtiyatla öz xalqının tarixindən danışır...

Şəhidlər Xiyabanındakı Memorial Kompleks və "Əbədi Məşəl" həmin dəhşətli olayları sözsüz xatırlatmanın əlaməti kimi... sakitliyi aydınlaşdıran kövrəkliyin, təhlükəsizliyin və barışsevərliyin simvolu olaraq, bakılıların sevimli istirahət yerindən – Bakı Dənizkənarı Bulvarından əzəmətli görünür...

Azərbaycan xalqı ona vurulmuş əzabları əks etdirən qan yaddaşını göz bəbəyi kimi qoruyur: bu barədə uşaqlarına, dünya ictimaiyyətinə bilgi verir. Yalnız uzun- müddətli yaddaş bu cür olayların təkrarlanmaması üçün təminat ola bilər.

Dağlıq Qarabağ ürəklərdə və qələmlərin ucunda olmağa davam edəcək...

(**Əfsanə ƏLƏSGƏRLİ** *çevirib*)

Hakan YILDIRIM

/KKTC;
13 yıldır gazetecilik ve televizyon programcılılğı yapıyor. Bunun yanında "Ana haber" bülteni spikerliği görevini de yürütüyor./

KALBİMDESİN KARABAĞ, KALBİMDESİN AZERBAYCAN!

Atavatanın güzel insanlarına, hayatımda ilk defa geldiğim Azerbaycan ziyaretinde bizleri ağırlayan, bizleri güzel insanlarla buluşturan herkese selam olsun!

Çocukluk yıllarımı hatırlarım. Evimizde televizyon izlerken Azerbaycan ismi geçtiği zaman babam televizyonun sesini biraz daha açardı ve pür dikkat izlerdi. Bize de "durun, gardaşlarımızla ilgili haber var" derdi. Bu hep böyle oldu.

Bizler her zaman Azerbaycan sevgisi ile büyüdük, hala daha o sevgiyi içimizde yaşamaya devam ediyoruz.

İlk olarak Azerbaycan'a Dünya Genç Türk Yazarlar Birliğinin davetlisi olarak geldim.

Çok heyecanlıydım. Yıllardır ismini duyduğum ülkeyi ziyaret edecektim…

Nitekim geldiğim zaman gördüklerim beni şaşırtmadı, kardeşce karşılanacağımı biliyordum, öyle de karşılandım.

Mutluluğuma mutluluk katarak geri döndüm.

Bizimle her saniye ilgilenen tüm arkadaşlara çok çok teşekkür ediyorum.

Aramızdaki sevgi-kardeşlik tartışılmaz ancak somut adımlar atmak şart..!

Değerli Milletvekili Ganire Paşeyeva bir gün Kuzey Kıbrıs Türk Cumhuriyeti'ne geldi ve bir konferans verdi. Konferansa başlarken bazı sorular sordu. İlk soru "evinizde dünya haritası var mı?" İlginç geldi bana ilk başta. Ne demek istediğini anlamaya çalışıyordum. Konuşmasına devam ederken Ganire hanıma katılmanın yanında utangaçlığımı da gizleyemedim. Çünkü ben Azerbaycanı sadece seviyordum, onun dışında da çok fazla bilgiye sahip değildim. Sayın vekilimin konuşmalarından da bilgimin yetersiz olduğunu anladım. O sebeple de Azerbaycan'a gelmeden önce dersimi çalıştım, öyle geldim. Sadece seviyorum demenin yetersiz olduğunu artık biliyorum…

Gerçek olan birşey var, biz Türkiye ve Azerbaycan olarak bir birimizi çok seviyoruz. Bir birimiz için ağlarız, bir birimize yardım ederiz, bir birimiz için ölürüz. Bunlar çok güzel şeyler… ama yeterli değil..! Bizler bir birimizi daha iyi tanımak zorundayız. Mesela ben, Azerbaycan Marşını bilmek zorundayım. Azerbaycanda kardeşlerim ne yerler, ne içerler, tatile nereye giderler, hafta sonu ne yaparlar, müzikleri nasıl, herşeyi bilmek zorundayım. Tanımak da bilmekten geçer. Ve ben Azerbaycanı ne kadar çok tanırsam, gittiğim diğer dünya ülkelerinde o kadar çok konuşabilir, sorunları o kadar çok dillendire bilirim. Ve ben bunu yapmaya başladım. Kardeş ülkemin marşını da öğrendim, tarihini de okumaya başladım. (Bu bağlamda Sayın Ganire Paşayeva'nın konuşması bende çok etkili olmuştur. Bunun için teşekkür ederim.)

YA KARABAĞ YA KARABAĞ!

Bizim en büyük sorunumuzun Karabağ olduğunu biliyordum da, Azerbaycan'a geldiğimde o sorunu damarlarıma kadar hissettim. Ermenilerin küçük hesaplarını, ona destek veren ülkelerin yapmak istediklerini, dünya'nın özelde Azerbaycan'a bakışını, genelde Türk Dünyasına bakışını o kısacık sürede yaşadım… ve bizlerin yapması gerekenleri bir an önce yapmaya başlamamız gerektiğini öğrendim.

Ben TURAN isteyen bir kardeşinizim. Benim tek derdim Türk Birliğini kurmak. O birliğin içerisinde bize yıllarca Ali Cengiz oyunu yapan dünyanın diğer ülkelerini dize getirmek istiyorum. TURAN belki şu anda hayal gibi gelebilir ama biz bu hayal için adım atabiliriz. En büyük adım da bir birimizi tanımakla geçiyor. Önceliğimiz bol bol okumak, bol bol gezmek, bol bol karşılıklı iletişimde bulunmak. Ben şu anda tanıdığım herkese mutlaka Azerbaycan'a gitmeleri yönünde önerilerde bulunuyorum. Gidin, diyorum, hem Atavatanımızın güzelliklerini görün, hem oradaki insanları dinleyin, hem de sorunlara ortak olun…

Gardaşlık ancak böyle olur. Bizler bir birimizi daha iyi tanıdığımız zaman, bir birimizin tarihini bildiğimiz zaman, hem bir birimize hem de tarihimize güçlü bir şekilde sahip çıkarız.

Dünya bizi istemiyor. Çünkü biz TÜRKÜZ. Bizim büyümemizi, bizim daha iyi yerlerde olmamızı istemiyor. Güçlerimizi birleştirmemizden korkuyor. Yeraltı kaynaklarımızı kullanmamızda, bir birimize destek olmamızdan rahatsız oluyor. Ama biz inatla,

aşkla hem bir birimizin yanında olmaya devam edeceğiz, hem de tarihimize sahip çıkmaya devam edeceğiz. Az önce söylediğim gibi, bunun için de gezmemiz, konuşmamız, bol miktarda okumamız şart..!

Karabağ bölgesini aldığını zanneden o küçük beyinlere de sözüm; bir gün Allahımın izni ile Azerbaycan'ın şanlı bayrağını, Türk'ün güzel bayrağını Karabağdan asacağız.

YA KARABAĞ YA ÖLÜM!

SİZLERİ ÇOK SEVİYORUM, AZERBAYCAN!

CANSINIZ, KANSINIZ....

NASIL TÜRKİYE İÇİN GÖZÜMÜ KIRPMADAN ÖLÜRSEM, SİZİN İÇİNDE BİR SANİYE DÜŞÜNMEM..!



Aybeniz Küzeci YILDIRIM

/1990 yılında Kerkük - Irak'ta doğdu. 1997 yılında ana vatanı Türkiye'ye taşındı. Eğitim hayatının önlisans bölümüne kadar olan kısmını Türkiye'de tamamlayıp, 2011 yılında yavru vatan KUZEY KIBRIS'a lisansını tamamlamaya getdi… Eğitimi devam ederken Kuzey Kıbrıs medyasına da adım atdı ve halen Kıbrıs Diyalog TV'de görev yapmaktadır./

KARABAĞ İÇİMİZDE BİR YARA…

Bizler Türk Dünyasının mensubu olan insanların içlerinde hep bir yerlerde kanayan yaralarımız var. İşte Karabağ'da öyle bir yara içimizde…

Karabağ sorunu, Ermenistan ile Azerbaycan arasında oldukça kanlı geçmişe sahiptir. Halen bir çözüme kavuşturulmayı bekleyen Karabağ sorunu, katliamlar, yerinden edilmeler gibi ciddi insan hakları ihlallerine sebep olmuştur. Ve olmaya da devam etmektedir.

Ben Kerküklü biri olarak orada yaşananları bilerek, Karabağ'ın acısını da anlıyorum… Hatta belki de en çok ben anlayabiliyorum yaşanılan acıları, çekilen çileleri… ama eminim ki bir gün bir şekilde biz Türkler haklı amaçlarımıza ulaşacağız…

Eninde sonunda Karabağ'ı geri alacağız..!

Kerkük'ü hainlerden temizleyeceğiz..!

Hatta Kuzey Kıbrıs'ta yaşayan Türklerin haklarını alacağız..!

***

Bir dönemler şiir yazardım. Yaşım küçüktü o zamanlar ama acımız aynıydı… Sanırım 7-8 yaşında yazmış olduğum "Bayrağım" şiirini sizlerle paylaşmak istiyorum… Çünkü 7-8 yaşında olan bir çocuk bile… bu kanayan yaranın farkında olabiliyor aslında.

BAYRAĞIM

Sevgi dolu al bayrak
Gel, seninle dağlara, taşlara, göllere uçalım.
O ay yıldızını görsünler
Gel seninle dağlara, taşlara göllere uçalım.

Sen hep gökyüzündesin,
Herkesi iyi bilirsin,
Tanrıda bilir..!
Seni gören sevinçlenir,
Seni gören duygulanır.
Seni gören seninle gurur duyar..!

Al bayrağım!
Şehitlerin örtüsü,
Toprakların süsü,
Ben seni Karabağ, Tebriz,
Erbil, Kerkük kalesine
Dikmek istiyorum!
Canım benim, ay-yıldızlı bayrağım!

7-8 yaşında bile... bu duygulara sahip olabiliyorsak, yaşanılan acılarımız birse bizlerde biriz..!
Tanrı Türk'ü korusun!

Lenar ŞEYX

/Lenar Minnemöhüm oğlu Şeyxov***;***
TATARISTAN.
2013-cü ildə Tatarıstanın Musa Cəlil adına Respublika Ödülünə və "NewBook.Volqa – 2015" Ədəbi Ödülünə layiq görülüb. 2007-ci ildən Tatarıstan Yazıçılar Birliyinin üzvü, 2012-ci ildən isə Birliyin Yönətim Kurulu üzvüdür./

QARA BAĞ...

"Qara bağ" adını kim verdi sənə?
Səni düşündükcə, canım ağrıyır,
ruhum əzilir...
qardaşımın əziz yurdu,
Üzülürəm, üzülürəm... üzülürəm..!

Cənnət kimi çox gözəlsən deyirlər,
Amma açıq qəlbin qəm yuvasıdır...
Ey, Qarabağ,
tarix səndə saxlanıb,
sən tarixin, tarix sənin adındır...

Zaman zaman əldən ələ keçərək,
yorulan, usanan, gözəl pərisən...
Dağlar arasında mən bilmədiyim,
hələ görmədiyim sirr aləmisən...

Nə qədər qurban var – canından keçən...
keçib də, cənnətdə yetən vüsala...
Qara bağ qan... qırmızı bağ olmuş,
olmuş ki, qovuşsun azadlığına..!

O bağdakı meyvə ağacları da
şəhidlər qanıyla sulanar bir-bir...
Keçmiş səssiz qalıb, elə bil ki, o,
bugünlə sabaha tamaşa edir...

Tarix sənə Ağbağ, pak bağ desəydi,
ad versəydi belə... deyirəm, bəlkə,
Əmin-aman yaşardı çal dağların,
xar dəyməzdi çəmənində çiçəyə...

Nə yazıq ki... Qara bağsan əzəldən,
İeh, ad verən kimsələrə nə deyim..?
Azərbaycan adlı qardaşlarımı
düşündükcə göz yaşlarım tökülür...
Sənsiz doğan hər gün... canımı üzür...

(**Ə.QOŞALI** *uyğunlaşdırıb*)

Rifat SƏLAH
/Rifat Qali oğlu Sələxov;
TATARISTAN.
1987-ci ilin 8 iyulunda Tatarıstanın Bu(ğ)a elinin Yeni Çəçqan köyündə doğulub. 2004-2009-cu illərdə Kazan Dövlət Universitetində oxuyub. Dəfələrlə yerli və uluslararası Şeir yarışmalarının qalibi olub./

QARABAĞ

Kiçiksə də, dünya pəncərəsindən,
çox göründü gözlərimə Qarabağ.
Könüllərə dolan ağrılarını
Nə eyləsəm, mümkün olmaz anlatmaq...

Sən gerçəkdən qara bağsan, qara bağ...
Bağçadakı güllər soldu… qaraldı...
Yer üzündə zülm edən adama,
Göstərmərik, dərinsə də... yaranı...

Sən canımın yarasısan, Qarabağ,
Səni heç görməsəm də,
həsərətini çəkirəm.
Bizim bulqar babalar da keçmişdi
o bağlardan – Qafqaz dağından.

Qara bağlar səni örtən,
Axır qanlı nəhirlər...
Köhnə vaxtlar bizim ata-analar,
Su dalınca oralara enmişlər...
Amma ən ilk növbədə,

Ədalətin yoxluğuna yanıram..!
Səndə yaşamağın bədəli,
Şəhid olmaqdır, qanıram!..

Sən canımın yarasısan, Qarabağım,
Səni heç görməsəm də,
görmüş kimi anaram.
...İmansızdan kimlər iman gözləyir,
Qiyamət qopacaq yaxın zamanda..!

(**Ə.QOŞALI** *uyğunlaşdırıb*)



Fənil GİLAJİ
/Fənil Fail oğlu Qıyləjev –
TATARISTAN.
1987-ci ildə KAZANda doğulub.
KDU-da oxuyub. "İdil qağayıları" (2010)
və "Allaha güvən" (2011) ədəbi yarışmalarında
"Qran-pri"yə layiq görülüb. "Kazan odları" ədəbi
dərgisində işləyir.
Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.
"Rizasızlıq" adlı şeir kitabı çıxıb

XƏZƏR QIYILARINDA

Xəzər boyu obalarda
Azərbaycan xalqı var.
"Dağ tatarı" deyirdilər
onlara bir zamanlar;

Bəzən "Qafqaz tatarları",
bəzən "Qafqaz bəyləri"...
Tarixən bir döyünmüşdür
bizimlə ürəkləri...

İnsanları saf niyyətli
o yerlərdən keçmişəm;
Dostluğundan ilham alıb,
pürrəngi çay içmişəm...

Burda gözəldi axşamlar,
hüzurludu səhərlər, -
Bizim ortaq babaların
çadır qurduğu yerlər...

Sizə,
ey, qan qardaşlarım,
dənizin o üzündən,
Xəzər övladlarından -
Kazan tatarlarından
salam gətirmişəm
mən!

(**Afaq ŞIXLI** *uyğunlaşdırıb*)



İÇİNDƏKİLƏR

Cavanşir FEYZİYEV 5
Şəmil SADİQ 8
Gülnar QASIMLI 30
Tural ADIŞİRİN 43
Rauf ZEYNİ, ... 54
Tural TURAN 59
Taleh MANSUR 62
Təranə TURAN 68
Tural İRFAN 73
Vəfa MÜRSƏLQIZI 79
Afaq ŞIXLI 83
Yusif NAZİM ƏRƏBSOY 97
Nazilə GÜLTAC 99
Qulu AĞSƏS 100
Sabir YUSİFOĞLU 101
Emin PİRİ 103
Elməddin NİCAT 105
Fərqanə MEHDİ 106
İlham QƏHRƏMAN 107
İltimas SƏMİMİ 108
Məlahət YUSİFQIZI 110
Ruslan DOST ƏLİ 111
Orxan BEHBUD 113
Afət VİLƏŞSOY 114
Vüsal OĞUZ 115
Zamiq ZƏRDABİ 116
Ülvi BÜNYADZADƏ 119
Nizami AYDIN 124
Fuad ƏSƏDOV 127
Hamlet KAZIMOĞLU 130
Fərhad METE 132
Üzeyir MƏHƏRRƏMLİ 136
Şəfa VƏLİ 138
Qabil ƏDALƏT 140
DİNMƏZ 142
ÇALĞIN 144

Ümid NƏCCARİ 146
Ramin CƏBRAİLİ 147
Əsəd ƏRBİL 148
Riyaz DƏMİRÇİ 150
Osman BAŞ 151
Güngör YAVUZASLAN 153
Murat DUMAN 154
Hikmet ELİTAŞ 156
Osman ÖCAL 157
Ramazan ÇEŞME 159
Safiye SAMYELİ 161
Ali ALTINLI 163
Nihat MALKOÇ 164
Zülfikar Yapar KALELİ 166
Durmuş KAYA 168
Nedim UÇAR 170
Hakan İlhan KURT 172
İbrahim ŞAŞMA 175
Selçuk DÜZGÜN 177
Alptekin CEVHERLİ 185
Necdet SİVASLI 188
Oraz YAĞMUR 192
Murat TOYLU 201
Sayat KAMŞIGER 206
Erkinbek SERİKBAY 208
Narsuluu QURQUBAY 213
Kaliça JAKIP 214
Mahfuza ORTİQOVA 215
Muhammatemin TÖHLİYEV 222
Yasir RƏŞİD 226
Olqa KARASTAN 232
Hakan YILDIRIM 234
Aybeniz Küzeci YILDIRIM 238
Lenar ŞEYX 240
Rifat SƏLAH 242
Fənil GİLAJİ 244

Çapa imzalanıb: 31.05.2016
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 17.5
Sifariş № 354
Tiraj: 1260